RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 273 (9152) ÇƏRŞƏNBƏ, 14 dekabr 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# Nəhəng infrastruktur qurğusu

## Prezident İlham Əliyev "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 13-də Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib.

AZƏRTAC xəbər verir ki, bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Counz, Azərbaycan Dövlət Neft Şirkətinin - SOCAR-ın prezidenti Rövşən Nəcəf dövlətimizin başçısına layihə üzrə görülən işlər barədə məlumat verdilər, videoçarx nümayiş olundu.

Bildirildi ki, "Azəri-Mərkəzi-Şərqi" layihəsi üzrə yekun investisiya qərarı 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" (AÇG) üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra AÇG tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. Dəyəri 6 milyard dollar olan layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır.

Bu layihə çərçivəsində dənizdə suyun dərinliyi təxminən 140 metr olan sahəsində, "Mərkəzi Azəri" və "Şərqi Azəri" platformalarının arasında 48 şaxtadan ibarət yeni hasilat, qazma və yaşayış platforması quraşdırılacaq.

→ 2

# N.A.Paşayevanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında elm və təhsilin inkişafında böyük xidmətlərinə görə Nərgiz Arif qızı Paşayeva "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 dekabr 2022-ci il*

# XİN-də diplomatik korpusun nümayəndələri üçün brifinq keçirilib

Dekabrın 13-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyevin və xarici işlər nazirinin müavini Elnur Məmmədovun iştirakı ilə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri və hərbi attaşelər üçün brifinq keçirilib.




AZƏRTAC xəbər verir ki, brifinq zamanı Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı, habelə ekoloji vəziyyətin pisləşməsi ilə bağlı ilkin monitorinq məqsədilə Azərbaycan Respublikası dövlət qurumlarının nümayəndələrinin və mütəxəssislərin əraziyə girişinə maneçilik törədilməsi nəticəsində Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin və ekoloqların etirazı ilə bağlı yaranmış vəziyyət barədə iştirakçılara ətraflı məlumat verilib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi Hikmət Hacıyev çıxışı zamanı vurğulayıb ki, Azərbaycanın sözügedən ərazilərində təbii sərvətlərin qeyri-qanuni istismarı dayandırılmalı, bütün təbii sərvətlərin istismarı Azərbaycan Respublikası qanunvericiliyi əsasında həyata keçirilməlidir. O deyib ki, bütün faydalı qazıntı yataqları, o cümlədən "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılması, əmlakın kadastr uçotunun təşkili, ətraf mühitə, yeraltı və yerüstü su mənbələrinə potensial zərərin və risklərin qiymətləndirilməsi və dəymiş zərərin nəticələrinin aradan qaldırılması məsələləri üzrə işçi qrup yaradılıb.

→ 2

# Rusiya qızıl ortanı tapa bilmədi



→ 4

# SÜLHMƏKRLİLƏRƏ SÜLHSEVƏRLƏRİN DƏRSİ

## 34 il əvvəl Topxana harayı ilə başlanan xalq hərəkatı iki müharibədən keçdikdən sonra bu gün Laçın yolunda yeni vüsətlə davam edir

Ermənistan yenə nala-mıxa vurur!

Gah KTMT-dən kömək tələb edir, gah "böyük bacısı" Fransanın yanına qaçır, gah da ABŞ-dən dəstək dilənir.

*Görünən isə odur ki, Ermənistana ümid verirlər...*

Təkcə ümid vermirlər, həm də silahlandırırlar və yenidən xam xəyallara düşməsinə şərait yaratmaq istəyirlər.



**Hazırda Qarabağda müvəqqəti yerləşən RSK xalqları bir-birinə yaxınlaşdırmaqla deyil, sülhməkrliliklə məşğul olur:**

* Hələ də Qarabağdakı qanunsuz erməni silahlı qüvvələri çıxarılmayıb!

* Hələ də RSK-nin arxasından Azərbaycan ərazilərinə güllə atılır və hər gün atəşkəs pozulur!

* Hələ də Laçın dəhlizindən Azərbaycan ərazisinə qanunsuz silah-sursat, hərbi texnika daşınır!

→ 3

# Rus əsgəri sülh məramlı yox, erməni məramlıdır



→ 4

# Haqlı tələbin dinc nümayişi



→ 4

# Son 2 ayda İranda 490 nəfər qətlə yetirilib

İranın Hüquq Müdafiəçiləri Qrupunun xəbər agentliyi dekabrın 12-si axşam saatlarına olan məlumatında hökumət məmurları tərəfindən qətlə yetirilən etirazçıların sayını açıqlayıb. Məlumatda sentyabrın 17-dən bəri İranda davam edən etiraz nümayişlərində 68-i uşaq olmaqla 490 nəfərin hökumət qüvvələri tərəfindən öldürüldüyü bildirilib. Bununla yanaşı, 18170 nəfərin saxlanıldığı, onlardan 626 nəfərinin tələbə olduğu qeyd edilib.

→ 6

# Eva Kayli vəzifəsindən kənarlaşdırıldı

## Avropa Parlamenti yunanıstanlı ermənipərəst deputatın korrupsiya əməllərini müzakirə edib

→ 12

# Erməni fitnəkarlığı öz işini görür



→ 5

# Dar gündə Azərbaycan bizə sahib çıxdı

Bu illər ərzində bir həqiqəti də dərk etdik. Xeyirxahlıq Azərbaycan xalqının milli-mənəvi dəyəridir, bu dəyərləri yaşadan, inkişaf etdirən unudulmaz insan Heydər Əliyevin sayəsində isə nəinki yəhudilər, Azərbaycanda yaşayan bütün xalqlar eyni hüquqlara malikdirlər və onların hüquqları dövlətin Əsas Qanunu - Konstitusiyası ilə qorunur. Azərbaycanda antisemitizm olmayıb və bu gün də yoxdur.

→ 12




# Nəhəng infrastruktur qurğusu

## Prezident İlham Əliyev "Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun dənizə yola salınması mərasimində iştirak edib





*Əvvəli 1-ci səh.*

Layihəyə həmçinin yataqdaxili yeni sualtı boru kəmərləri də daxildir. Bu xətlər platformadan hasil ediləcək neft və qazın Səngəçal terminalına ötürülməsi üçün mövcud AÇG "Faza 2" sualtı ixrac kəmərlərinə qoşulacaq.

"Azəri-Mərkəzi-Şərqi" platformasının dayaq blokunun çəkisi 16 min ton, hündürlüyü 153 metrdir. Bu qurğuya biri suvurma, biri neft ixracı, biri də qaz ixracı üçün nəzərdə tutulmuş üç dik boru daxildir. Dayaq bloku suyun 137 metr dərinliyində quraşdırılacaq.

bp-nin regional prezidenti **Qəri COUNZ** dedi: Bu, hər iki tərəfdə yerləşən nəhəng çənlərin idarəetmə modullarıdır. Hər tərəfində belə üç çən var. Olduqca nəhəng qurğudur.

**Prezident İlham ƏLİYEV:** Bəli, həqiqətən də möhtəşəmdir. Video çox əhatəli idi. Sıfırdan nəhəng infrastruktur qurğusu yaradılıb.

**Qəri COUNZ:** Burada - zavodda gördüyünüz hər şey poladdan hazırlanıb.

**Prezident İlham ƏLİYEV:** Bəli, bu da ən böyük nailiyyətlərdən biridir. Çünki başlanğıcda bu, heç də belə deyildi. Lakin bir müddət sonra bütün inşaat işləri burada həyata keçirildi. Bu, əhəmiyyətli nailiyyətdir. Bundan başqa, bir neçə gün əvvəl "Akademik Xoşbəxt Yusifzadə" tankerini istismara verərkən biz faktiki olaraq bütün gələcəyimizə, neft-qaz layihələrinə mühüm töhfə vermiş bu ərazinin, zavodun keçmişi ilə bağlı xatirələrimizi bölüşdük. Çünki əgər o, 1970-1980-ci illərin sonunda yaradılmasaydı, hasilata başlamaq daha çox vaxt aparardı.

SOCAR-ın birinci vitse-prezidenti **Xoşbəxt YUSİFZADƏ:** Bəli, burada dərin özüllər zavodu Heydər Əliyevin sayəsində tikildi. O olmasaydı, zavodu burada tikməyəcəkdilər.

**Qəri COUNZ:** Görüləcək çox iş var. Bilirsiniz ki, biz "Şahdəniz"də də dərində qazma işləri aparırıq. Çox maraqlıdır. Növbəti 30 il bəlkə də son 30 ildən daha da maraqlı olacaq.

**Prezident İlham ƏLİYEV:** Bəli, xüsusilə beynəlxalq bazarlarda təbii qaza olan böyük tələbatı nəzərə alsaq, bu, düşünürəm ki, əsl vaxtında olacaq. Əlbəttə ki, potensialımıza dair böyük gözləntilər var. Biz həmişə bilirdik bizim nə qədər ehtiyatımız var. Ümid edirəm ki, qazmaya başlayanda "Azəri-Çıraq-Günəşli"də olduğu kimi, bu yataq da böyüyəcək. Praktik nəticələr ilkin proqnozdan ən azı iki dəfə artıq oldu. Bütün infrastrukturun, daşıma infrastrukturunun hazır olduğunu nəzərə alaraq hesab edirəm ki, mümkün olduğu qədər çox hasil etmək üçün səy göstərmək baxımından, Azərbaycan xalqına və beynəlxalq tərəfdaşlarımıza xidmət göstərmək üçün bu, həqiqətən də tarixi fürsətdir.

**Qəri COUNZ:** Bu, bizim məqsədimizdir.

**Rövşən NƏCƏF:** Tərəfdaşlarla müzakirə etdiyimiz ideya ondan ibarət idi ki, tərəfdaş olmaq sadəcə mənfəət və xərclərin bölüşməsi deyil. Eyni zamanda bilik və yeni texnologiyaların mübadiləsidir. Ona görə biz daha yaxşı nəticə əldə etmək üçün yeni mütəxəssisləri, yeni fikirləri və yenilikləri bir araya gətiririk.

Sonra Prezident İlham Əliyev, SOCAR-ın birinci vitse-prezidenti Xoşbəxt Yusifzadə və bp-nin regional prezidenti Qəri Counz dayaq blokunun dənizə yola salınmasını bildirən düyməni basdılar.

**Prezident İlham ƏLİYEV:** Bizim daha bir vacib mərasimimiz var. Qəri Counz təqribən iki ay yarım əvvəl "Dostluq" ordeni ilə təltif edilib. Hesab edirəm ki, bu gün həmin ordeni təqdim etmək üçün ən yaxşı fürsətdir.

**Qəri COUNZ:** Cənab Prezident, bu, mənim üçün gözlənilməz oldu. Sizə çox təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Siz buna həqiqətən layiqsiniz. Bu, sizin Azərbaycanın neft-qaz sənayesinin inkişafına verdiyiniz mühüm töhfəniz, dostluğunuz və Azərbaycanın yaxşı sakini olduğunuza görədir. Siz demək olar ki, vətəndaşımızsınız və xalqımızın təməl ehtiyaclarını anlayırsınız. Bizimlə Şuşaya səfər etdiyinizə və bütün heyətinizin gördüyü işlərə görə sizi məmnuniyyətlə təltif etdim. Təltif sentyabrın 19-da olub, ancaq mən fürsət gözləyirdim və zənnimcə, bu gün əla gündür. Bu nəhəng qurğunun önündə sizə bu ordeni təqdim edirəm.

**Qəri COUNZ:** Çox təşəkkür edirəm. Bu, mənim üçün böyük şərəfdir. Şəxsən öz adımdan və bütün bp heyəti adından Sizə minnətdarlığımı bildirirəm.

Prezident İlham Əliyev "Dostluq" ordenini bp-nin regional prezidenti Qəri Counza təqdim etdi.

# Dövlət Neft Fondunun Müşahidə Şurasının növbəti iclası olub

Dekabrın 13-də Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının növbəti iclası keçirilib.




Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ARDNF-in Müşahidə Şurasının sədri Əli Əsədovun sədrliyi ilə keçirilən iclasın gündəliyində Dövlət Neft Fondunun 2023-cü il üçün büdcə layihəsi, fondun investisiya siyasəti və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasın yekununda Dövlət Neft Fondunun 2023-cü il üçün büdcə layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması barədə müvafiq qərar qəbul edilib.

# XİN-də diplomatik korpusun nümayəndələri üçün brifinq keçirilib



*Əvvəli 1-ci səh.*

Cari il dekabrın 3-dən etibarən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparıblar.

Əldə olunmuş razılığa uyğun olaraq, dekabrın 10-da faydalı qazıntıların qanunsuz istismar olunduğu bu iki əraziyə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, bu səfərə maneçilik törədilib.

H.Hacıyev bildirib ki, son iki gün ərzində Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyası Azərbaycan ictimaiyyətinin haqlı narazılığının göstəricisidir və vətəndaş cəmiyyətinin bu mövqeyinə hörmətlə yanaşılmalıdır. Ermənistan tərəfinin guya Laçın yolunun bağlanması, bölgədə humanitar fəlakət yaşanması, etnik təmizlənmə həyata keçirilməsi barədə iddiaları çıxış zamanı qətiyyətlə rədd olunub. O, Ermənistan tərəfindən Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edilməsinin qarşısının alınmasının vacibliyini qeyd edib.

Ermənistanın sabiq rəhbərləri R.Köçəryan və S.Sarkisyanın işğal dövründə törətdikləri hərbi cinayətlərinə və qeyri-qanuni iqtisadi əməllərinə toxunan Prezidentin köməkçisi indi də kriminal iş adamı olan RubenVardanyanın Azərbaycanın təbii sərvətlərini talan etməsinə və ətraf mühitə ciddi ziyan vurmasına imkan verilməyəcəyini qeyd edib.

Bildirilib ki, Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb. Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin talan edilmiş təbii sərvətlərin qanunsuz daşınmasının qarşısını almağa çalışdıqlarını, mülki təyinatlı digər nəqliyyat vasitələrinin hərəkəti məsələlərinə qarışmadıqlarını deyib.

Ümumiyyətlə, Ermənistan hökumətinin Azərbaycan əraziləri daxilində baş verən hadisələrə verdiyi şərhlərini Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının hələ də davam etdiyinin göstəricisi olduğunu diqqətə çatdırıb. Bununla yanaşı, belə bəyanatların Ermənistan baş nazirinin Praqa və Soçidə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmət edilməsi üzrə bir daha qəbul etdiyi öhdəliklərə zidd olduğu bildirilib.

Nazir müavini Elnur Məmmədov çıxışı zamanı Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 30 illik işğalı dövründə ərazilərimizdə faydalı qazıntılar, əlvan və qara metallar, mineral sular, həmçinin digər şirin su resurslarının qanunsuz istismarı və qeyri-qanuni iqtisadi fəaliyyət barədə məlumat verib. Bu cür qeyri-qanuni fəaliyyətə bir çox xarici şirkətlərin cəlb olunduğu, onların sırasında "BaseMetals" ("VallexGroup"), "GeoProMining", "GoldStar" və digər şirkətlərin adları diqqətə çatdırılıb.

Ermənistanın apardığı qeyri-qanuni iqtisadi fəaliyyətin beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozduğu və Ermənistan Respublikası üçün hüquqi məsuliyyət yaratdığı bildirilib. Nazir müavini bu çərçivədə, əlvan metalların qeyri-qanuni hasilatını aparan şirkətlərə qarşı görülən hüquqi tədbirlər barədə məlumat verib.

Ermənistanın ekoloji terror siyasəti nəticəsində Azərbaycan ərazisindən keçən Araz çayına axan Oxçuçayda suyun tərkibindəki ağır metalların miqdarının dəfələrlə normadan artıq olduğu vurğulanıb. Ermənistanın işğal zamanı Sərsəng su anbarında su axımını, demək olar ki, bağlaması, anbardan kanala suyun yalnız qış aylarında daşqın yaratmaq, əraziləri ekoloji terrora məruz qoymaq məqsədilə buraxılması faktları diqqətə çatdırılıb.

Kəlbəcər rayonundakı Söyüdlü, Zəngilan rayonundakı Vejnəli faydalı filiz yataqlarında Ermənistan tərəfindən qanunsuz olaraq qızıl çıxarıldığı, təbii sərvətlərimizin mənimsənildiyi, ətraf ərazilərin çirklənməyə məruz qoyulduğu barədə ətraflı məlumat verilib.

Nazir müavini ATƏT, BMT-nin İnkişaf Proqramı (UNDP), Ətraf Mühit Proqramı (UNEP), Avropa Şurası Parlament Assambleyası (PACE) tərəfindən qəbul olunmuş hesabatlarda və qətnamələrdə işğal dövründə ərazilərimizdə həyata keçirilmiş qeyri-qanuni iqtisadi fəaliyyət, təbii sərvətlərin qanunsuz istismarı faktlarının qeydə alındığını bildirib.

Sözügedən faktlar nəzərə alınaraq, sülhməramlı kontingentin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətin dərhal dayandırılmasının vacib olduğu diqqətə çatdırılıb.

# SÜLHMƏKRLİLƏRƏ SÜLHSEVƏRLƏRİN DƏRSİ

## 34 il əvvəl Topxana harayı ilə başlanan xalq hərəkatı iki müharibədən keçdikdən sonra bu gün Laçın yolunda yeni vüsətlə davam edir











Deyir ayının yüz oyunu var, o da bir armudun başında.

(Əlbəttə, bütün növ ayılar nəzərdə tutulur).

**Əsrlərdir ki, Qarabağı nifaq almasına çeviriblər!**

Buraya köçürülən hayların, alət millət sayılan ermənilərin əli ilə!

**Əsrlərdir ki, Qarabağda insanların dinc şəraitdə rahat yaşamalarına imkan vermirlər!**

Çünki Qarabağı, üstəlik, Şərqi Zəngəzuru zorla Azərbaycandan alıb Ermənistana vermək istəyirlər.

Hətta bizim ərazilər hesabına Ermənistan dövləti də yaratdılar.

Sonrakı mərhələdə yenə Azərbaycandan hissə-hissə torpaq qopartmaqla Ermənistanı böyütməyə can atdılar.

Beyni "Böyük Ermənistan" mifologiyası ilə zəhərlənmiş ermənilər bununla kifayətlənmirlər, bütün qonşularına torpaq iddiaları irəli sürürlər.

Necə deyərlər, iştah diş altında olur!

**Amma 2020-ci ildə 44 günlük Zəfər müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev ermənilərin XX əsrdə rəzil və şərəfsiz yollarla qazandıqlarını burunlarından tökdü!**

*Əgər RSK (Rusiya sülhməramlı kontingenti) araya girməsəydi, indi vəziyyət tam başqa cür olardı.*

**Bəli, ermənilər aşkar və "gizli" dostlarının köməyi ilə Qarabağı ələ keçirərək düz otuz il çapıb taladılar!**

O qədər qudurdular ki, nə BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə məhəl qoydular, nə ATƏT-in Minsk qrupunu adam yerinə saydılar, nə də sülh yolu ilə bircə qarış torpaq qaytardılar!

*Hətta cızıqlarından o qədər çıxdılar ki, "Qarabağ Ermənistandır və nöqtə" deyərək məsələnin bitdiyinə işarə vurdular!*

**"Dəmir yumruq" başlarına dəyənə qədər Allaha bəndəlik etmədilər!**

❖ ❖ ❖

*Rusiya Prezidenti V.Putinin təşəbbüsü və zəmanəti ilə 10 noyabr 2020-ci ildə Ermənistanın kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanat imzalandı.*

Sonralar daha üç dəfə üçtərəfli görüş keçirilərək bəyanatın bəndlərinin icrasına və sülh müqaviləsinin hazırlanaraq imzalanmasına sadiqlik təsdiq olundu.

**Amma hələ də sülh sazişi imzalanmayıb!**

Ermənistan yenə nala-mıxa vurur!

Gah KTMT-dən kömək tələb edir, gah "böyük bacısı" Fransanın yanına qaçır, gah da ABŞ-dən dəstək dilənir.

*Görünən isə odur ki, Ermənistana ümid verirlər...*

Təkcə ümid vermirlər, həm də silahlandırırlar və yenidən xam xəyallara düşməsinə şərait yaratmaq istəyirlər.

**Hazırda Qarabağda müvəqqəti yerləşən RSK xalqları bir-birinə yaxınlaşdırmaqla deyil, sülhməkrliliklə məşğul olur:**

* Hələ də Qarabağdakı qanunsuz erməni silahlı qüvvələri çıxarılmayıb!

* Hələ də RSK-nin arxasından Azərbaycan ərazilərinə güllə atılır və hər gün atəşkəs pozulur!

* Hələ də Laçın dəhlizindən Azərbaycan ərazisinə qanunsuz silah-sursat, hərbi texnika daşınır!

* Hələ də Fransadan, Rusiyadan kim istəsə, sərbəst şəkildə Xankəndiyə gəlib pozuculuq işləri aparır!

* Hələ də İran casusları və hərbçiləri bu yolla Azərbaycana gəlib, gizli işlər görürlər!

*Üstəlik, Qarabağdakı qızıl, mis və molibden yataqlarımız talan edilir və çıxarılan məhsullar Laçın yolu ilə asudə şəkildə Ermənistana daşınır...*

**Sülhməkrlilərin havadarlığı ilə Xankəndidə köhnə qazan qaynadılır...**

**Ötən əsrin 90-cı illərinin ssenarisi yenidən işə salınıb...**

❖ ❖ ❖

**Biz bu yolu bir dəfə keçmişik...**

**Onun əzab, əziyyət və faciələrini kifayət qədər çəkmişik!**

M.Qorbaçovun razılığı ilə 1988-ci ildən başlanan "miatsum" hərəkatına Moskva rəhbərlik edirdi.

Yerli ermənilər bölgənin "iqtisadi cəhətdən zəif inkişafından" narazılıqlarını bildirirdilər.

*Sonra mərkəz işi "asanlaşdırmaq" üçün "Xüsusi İdarəetmə Komitəsi" yaradaraq Qarabağı Azərbaycanın tabeliyindən çıxardı.*

**Moskvadan quruma rəhbər kimi göndərilən A.Volski Qarabağın Azərbaycandan qoparılması üçün mümkün olan hər şeyi edirdi.**

*"Moskvanın adamı" sayıldığından heç kəs ona söz deyə bilmirdi.*

*Bütün günü donuz əti yeyib, tut arağı vurmaqla erməni maraqlarını təmin edirdi.*

❖ ❖ ❖

366-cı sovet-rus polku Xocalı soyqırımını törədərək işğalın dəstəkçisi oldu.

**İndi isə Moskva Xankəndiyə Vardanyanı göndərib!**

**Nə Ermənistan, nə də Azərbaycan vətəndaşlığı olmayan rusiyalı erməni milyarder Xankəndiyə gəlib!**

Nəyə?

Pul qazanmağa?

Xankəndidə pul var ki, onu da qazana?

Bəlkə pul xərcləməyə gəlib?

Məsələn, elə sülhməkrlilərin ehtiyaclarının ödənilməsinə...

Çünki RSK elə günə düşüb ki, onun əsgərləri erməni sahibkarın taxtasını maşından boşaltmaqla qəpik-quruş qazanırlar...

**Amma Vardanyan "dövlət naziri" olub Azərbaycan əleyhinə açıqlamalar verəndən, müəyyən separatçı, antisülh addımlar atandan sonra məramı tam dəqiqləşdi.**

**Vardanyan Volskinin işini davam etdirməyə gəlib!**

*Doğrudur, onun sərəncamında 366-cı alay yoxdur!*

*Amma görünən odur ki, RSK rusiyalı erməni milyarderin dediyini edir.*

Lap sonuncu hadisələrdə olduğu kimi!

❖ ❖ ❖

Ekologiyanın pozulması, faydalı qazıntı yataqlarının talan edilib daşınması ilə bağlı faktlar aşkarlandıqdan sonra mütəxəssislər, həmçinin bir qrup Azərbaycan jurnalisti və QHT təmsilçiləri Xankəndiyə gedərək general Volkovla görüşdülər və həmin mədənlərə baxış keçirmək üçün növbəti günə razılaşdılar.

**Lakin Azərbaycan hakimiyyətinin nümayəndələri mədənlərə buraxılmadılar!**

**Azərbaycan jurnalistlərinə peşə vəzifələrinin icrasına imkan vermədilər!**

**Azərbaycan QHT təmsilçilərinin monitorinqinə şərait yaratmadılar!**

Səbəb...

Yerli "sakinlər" mitinq keçirərək mədənlərə girişi bağlamışdılar.

*RSK isə onları kənarlaşdırıb, Azərbaycanın dövlət nümayəndələrinin və vətəndaş cəmiyyəti üzvlərinin işləməsinə şərait yarada "bilmirdi"!*

*İnandınız?*

**Azərbaycana sülh yaratmağa, qarşıdurmanı aradan qaldırmağa, ermənilərlə azərbaycanlıları barışdırmağa gələn RSK "dinc" əhalinin öhdəsindən "gələ bilmirdi"!**

*Çünki "mitinqçilərə" Vardanyan rəhbərlik edirdi.*

*Çünki "müdafiəçiləri" mülki paltar geyinmiş qanunsuz erməni silahlı qüvvələrinin nümayəndələri ruhlandırırdı!*

*Çünki Volkov onların qarşısında gözükölgəli idi və xətirlərinə dəymək istəmirdi!*

**Beləliklə, general Volkov verdiyi sözün arxasından qaçdı!**

**Beləliklə, RSK Azərbaycandan gələn rəsmi və qeyri-rəsmi nümayəndələrin öz torpaqlarında işləməsinə şərait yaratmadı!**

Sonrası isə sonrakı gün davam etdi!

❖ ❖ ❖

*General Volkov azərbaycanlı mütəxəssislərin, jurnalist və QHT təmsilçilərinin üzünə çıxa bilmədi!*

Ermənilər qarşısındakı gözükölgəliyi onu azərbaycanlılar qarşısında diligödək etmişdi!

Bizimkilər ha çağırsalar da, ha səsləsələr də faydası olmadı!

**General gizləndiyi yerdən çıxmadı!**

❖ ❖ ❖

Belədə azərbaycanlı sülhsevərlər rus sülhməkrlilərinə dərs keçməyə başladılar!

General Volkovla görüş yerini tərk etmədilər!

*Dinc nümayiş yolu ilə istək və tələblərini çatdırmaqda, monitorinq aparmaqda israrlı olduqlarını təkidlə bildirdilər.*

Nəticədə Laçın-Xankəndi yolu bağlandı.

❖ ❖ ❖

**Düz 30 ildən sonra ilk dəfə idi ki, bu yola Azərbaycan vətəndaşları sərbəst şəkildə ayaq basdılar.**

Məsələnin uzandığını görüb özlərinə çadır qurdular!

**30 ildən sonra bu yolun üzərində Azərbaycan bayrağı dalğalandı!**

Azərbaycanın oğul və qızları bu yerlərin həqiqi sahibləri olduqlarını əyani şəkildə nümayiş etdirdilər!

❖ ❖ ❖

*Azərbaycanda kifayət qədər vətənpərvər jurnalist var!*

*Azərbaycanda kifayət qədər vətənpərvər QHT təmsilçisi var!*

*Azərbaycanda kifayət qədər əliavtomatlıdan qorxmayaraq, dinc yolla mübarizə aparmaqla düşmənə qalib gəlməyi bacaran mərd və igid oğullar, qadınlar var!*

**Onlar gecə sübhədək qardan, şaxtadan qorxmayaraq durduqları yeri tərk etmədilər!**

**Sonadək, istəklərinə çatanadək mübarizələrini dinc vasitələrlə davam etdirəcəklərini söyləyirlər!**

Eşq olsun xalqın vətənpərvər övladlarına!

❖ ❖ ❖

**34 il əvvəl Topxana harayı ilə başlanan xalq hərəkatı iki müharibədən keçdikdən sonra bu gün Laçın yolunda yeni vüsətlə davam edir!**

*O dövrdə başlanan xalq hərəkatı məqsədinə çata bilmədi!*

*Nə Topxana meşəsini qırılmaqdan qorudu, nə də Qarabağı əldə saxlaya bildi.*

Üstəlik, I Qarabağ müharibəsində də uduzduq!

Xalqı qınamaq da mümkün deyil!

ÇÜNKİ:

* O dövrdə Azərbaycan Moskvadan asılı idi.

* Azərbaycana "muştuluğumu verin, ermənilər geri qayıtdı" deyərək sevinən Ə.Vəzirov başçılıq edirdi!

* Azərbaycana "SSRİ-nin saxlanılmasına" xidmət edən referendum keçirən A.Mütəllibov prezidentlik edirdi!

* Xalqın həqiqi rəhbəri, inandığı və güvəndiyi lideri yox idi.

* Ordu yaradılmamışdı, silahsursatsız qalmışdıq.

* Bizə rəhbərlik edənlər siyasətdən baş çıxarmayanlar, şəxsi maraqlarını güdənlər idi.

* Əsl dostumuz yanımızda deyildi, "din qardaşımız" isə aşkar-gizli formada düşmənə kömək edirdi.

**Odur ki, xalq 20 min övladını şəhid versə də, torpağını qoruya bilmədi.**

İndi isə vəziyyət bambaşqadır!

**Azərbaycan müstəqil, güclü dövlətdir!**

**Azərbaycana 44 günlük Zəfər müharibəsində möhtəşəm qələbə qazandıran, 28 illik işğaldan sonra torpaqları azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev rəhbərlik edir!**

**Demək, azərbaycanlı sülhsevərlər bu dəfə də rus və erməni sülhməkrlilərinə əsl dərs verəcəklər!**

**Bəxtiyar SADIQOV**

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etiraz edirlər

## Rusiya qızıl ortanı tapa bilmədi

Sülhməramlıların son davranışları onların ermənipərəst olduğunu, qərəzli və ədalətsiz mövqe sərgilədiklərini bir daha sübut edir. Rusiya hərbçiləri elə missiyalarının icrasına başladıqları vaxtdan qalmaqallarla gündəmə gəlir, 10 noyabr üçtərəfli Bəyanatından irəli gələn öhdəlikləri yerinə yetirməkdən boyun qaçırırlar.





Onlar Azərbaycanın tarixi yaşayış məntəqələrini uydurma erməni adları ilə təqdim edir, müvəqqəti nəzarətlərində olan dəhliz və yollarla Ermənistandan silah-sursatın daşınmasına icazə verir, ermənilərin bizim ərazilərimizdə təxribat törətmələrinə göz yumur, eləcə də razılaşmaları pozaraq azərbaycanlı eko-mütəxəssislərin və jurnalistlərin Xankəndiyə daxil olmasına süni əngəllər törədirlər.

Dekabrın 10-da Azərbaycan mütəxəssisləri faydalı qazıntıların qanunsuz istismar olunduğu yataqlara səfər etmək istəsələr də, buna sülhməramlılar tərəfindən süni əngəl törədilib. Rusiya sülhməramlı kontingentinin heç bir tədbir görməməsi fonunda yerli sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası səfərə mane olub. Rusiyaya bu hadisə ilə bağlı təqdim edilən notada Azərbaycan nümayəndələrinin səfərinə əngəl törədilməsinin və ya hər hansı bir şərt irəli sürülməsinin qəbuledilməz olduğu vurğulanıb.

Əlbəttə ki, vətəndaş cəmiyyəti təmsilçiləri belə qanunsuz davranışlardan narahat olmaya bilməzdi. Ona görə də Şuşada toplaşan ictimai təşkilatların nümayəndələri ekoloqların Azərbaycan ərazilərində monitorinq aparmasına şərait yaradılmasını tələb edirlər. Qanunsuz əməllərə qarşı vətəndaş cəmiyyəti fəalları tərəfindən belə etiraz aksiyaları dünyanın bütün sivil dövlətlərində keçirilir.

Mütəxəssislər bu etiraz aksiyasını "yumşaq kəşfiyyat" adlandırırlar. Ermənilər, nəhayət ki, həmin ərazilərdə torpaqların əsl sahiblərini - yerli sakinlərimizi, eləcə də Azərbaycanın gömrük və sərhəd postlarını görməyə alışmalıdırlar.

### Sülhməramlıların ermənipərəst mövqeyi onlarla bağlı daha sərt qərarlar qəbul edilməsinə səbəb ola bilər

Milli Məclisin deputatı Fazil Mustafa qeyd edib ki, Azərbaycan ictimaiyyətinin və dövlətinin haqlı narazılığına səbəb sülhməramlıların öhdəliklərini yerinə yetirməmələri və qanunsuz davranışlarıdır: "Azərbaycan suveren ərazilərinə Rusiya sülhməramlılarını dəvət edəndə müqavilədə nəzərdə tutulan şərtlərə əməl edilməsini tələb kimi qarşıya qoyub. Sülhməramlı kontingent həmin şərtlərin həyata keçiriləcəyi ilə razılaşsa da, sonradan ermənilərə dəstək nümayiş etdirməyə başlayıblar. Bu, bizim ərazilərimizin təhlükə ilə üz-üzə qalması deməkdir. Yəni baş verən belə haqsız davranışların Azərbaycan ictimaiyyətinin qəzəbinə tuş gəlməsi olduqca təbiidir".

Deputat bildirib ki, etirazçılar sülhməramlı kontingentin rəhbərini ora dəvət etsələr də, komandir bundan imtina edir: "Halbuki Andrey Volkov aksiya yerinə gedərək vəziyyəti şərh etməli, tələbləri dinləməlidir. Yəni öhdəliklərdən boyun qaçırmaq çıxış yolu deyil. Rusiya sülhməramlıları vəziyyəti düzəltmək istəyirlərsə, Azərbaycanla Ermənistana tərəfsiz yanaşdıqlarını sübut etməlidirlər. Əks halda vəziyyət dəyişə bilər. Sülhməramlı kontingentin ermənipərəst mövqeyi Azərbaycanın onlarla bağlı daha sərt qərarlar qəbul etməsinə səbəb ola bilər. Belə davranışlar, qanunsuz əməllər Azərbaycan ictimaiyyətində Rusiya sülhməramlılarına olan etimadı yoxa çıxarır".

### Rusiya hərbçiləri bölgədəki vəziyyəti daha da çətinləşdirirlər

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Rusiya sülhməramlılarının son davranışları onların vəzifələrinə və postmünaqişə dövrünün reallıqlarına cavab vermir: "Azərbaycan ərazilərindəki erməni silahlı bölmələrinin hələ də tərksilah edilməməsi, separatçıların təxribatçı tədbirlərinə şərait yaradılması sülhməramlıların məramı ilə bağlı ciddi suallar yaradır. Rus hərbçilərin separatçılarla eyni mövqedən çıxış etməsi onlara olan etimadı yox edib. Sülhməramlılar indi də ölkəmizin vətəndaş cəmiyyəti nümayəndələrini Xankəndi-Xocalı istiqamətlərindəki ərazilərimizə buraxmamaqla Azərbaycan vətəndaşlarının konstitusion hüquqlarına təcavüz etmiş olurlar. Sülhməramlı kontingentin öz ölkəsində sərbəst hərəkət etmək hüququ olan vətəndaşlarımızın, o cümlədən jurnalistlərimizin qarşısına zirehli maşınlarla çıxaraq süni əngəllər törətməsi onların missiyasının həm praktik, həm də mənəvi cəhətdən yararsız olduğunu bir daha təsdiq edir".

Deputat bildirib ki, bundan sonra sülhməramlıların bölgədəki mövcudluğunun ümumi işin faydasına olacağı inandırıcı görünmür: "Onlar növbəti üç ildə bölgədə birgəyaşayışın təminatı üçün cəhd etsələr də, onların istənilən fəaliyyəti uğursuzluğa məhkumdur. Çünki sülhməramlılar mövcud mühitdə öz tərəfkeş davranışları ilə faydasız rudimentə çevriliblər. Təəssüf ki, biz Azərbaycan-Rusiya münasibətlərinin xarakterinə uyğun olaraq sülhməramlıların faydalı fəaliyyətini arzu etsək də, onlar və bütövlükdə Rusiya Müdafiə Nazirliyi regionda qızıl ortanı tapa bilmədi, yaxud tapmaq istəmədi. Xüsusilə də bizə Vardanyanın gözü ilə baxmağa başladıqdan sonra vəziyyət sürətlə xoşagəlməz məcraya yönəldi. Nəticədə bizim Rusiya ilə münasibətlərimizi daha da yaxşılaşdıracağına, Ermənistanla sülh prosesini tezləşdirməyə töhfə verəcəyinə ümid etdiyimiz sülhməramlı missiya nəinki ümidləri doğrultmadı, əksinə, vəziyyəti daha da mürəkkəbləşdirdi".

B.Məhərrəmovun sözlərinə görə, sülhməramlıların son davranışları onların növbəti 3 ildə Qarabağda fəaliyyətlərini davam etdirmələrinə ehtiyac olub-olmaması məsələsini gündəmə gətirir: "Necə qərar verilməsindən asılı olmayaraq, bu məsələ Bakı-Moskva münasibətlərinə xələl gətirməməlidir. Əgər sülhməramlılar 10 noyabr üçtərəfli Bəyanatının şərtlərinə uyğun olaraq, Ermənistanın ordu qalıqlarını ərazimizdən çıxarmayacaqlarsa, separatçıları leqallaşdırmağa yönəlik fəaliyyətlərinə davam edəcəklərsə, onların bizə heç bir faydası olmayacaq. Əksinə, təxribatlara alət olmaqda, separatizmə rəvac verməkdə israrlı olan sülhməramlıların mövcudluğu həm Rusiyanın, həm də Azərbaycanın mənafelərinə zərər verə bilər. Bütün bunların fonunda isə bir məqamı unutmamalıyıq ki, sülhməramlı amili yüksəksəviyyəli Azərbaycan-Rusiya münasibətlərində həlledici meyar deyil. Yəni sülhməramlı kontingentin ölkəmizdəki missiyasının dayandırılması Bakı-Moskva əlaqələrini zədələməməlidir".

Deputat həmçinin deyib ki, separatçıların sülhməramlılara güvənmələri absurdur: "Ona görə ki, həmin torpaqlar suveren Azərbaycan əraziləridir. Erməni vətəndaşlarımız Xankəndi, Xocavənd, Xocalı və Ağdərədə Azərbaycanın hakimiyyət nümayəndələrini, vətəndaş cəmiyyəti təmsilçilərini, media mənsublarını görməyə alışmalıdırlar. Əks halda ərazidəki komando hissələrimiz onları bu vəziyyətə alışdırmalı olacaq".

Xankəndidə özbaşınalıqla məşğul olan cinayətkar dəstə, eləcə də onlara dəstək verən Rusiya sülhməramlıları anlamalıdırlar ki, onlar suveren Azərbaycan ərazilərində yaşadıqları üçün ölkə qanunlarımızı poza bilməzlər. Bu həm ermənilər, həm də Rusiya hərbçiləri üçün cinayət məsuliyyəti yaradır. Prezident İlham Əliyev deyib ki, "Qarabağda yaşayan ermənilərin nə statusu, nə müstəqilliyi, nə də xüsusi imtiyazı olacaq. Necə Azərbaycan vətəndaşları, onlar da elə". Ona görə də Şuşada keçirilən aksiya nəticəsində etirazçıların tələbləri yerinə yetirilməzsə, mədən yataqlarında monitorinq aparılması üçün müvafiq dövlət qurumlarına lazımi şərait yaradılmazsa, Azərbaycan hüquq-mühafizə orqanları ərazidə baş verən cinayət əməllərinin qarşısını almaq üçün adekvat addımlar ata bilərlər.

*Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"*

## Ürəyimiz Şuşa ilə döyünür

Bu gün xalqımızın ürəyi yenə də Şuşada döyünür. Rus sülhməramlılarının öz missiyalarına uyğun olmayan mövqe sərgiləməsi, birbaşa olmasa da, dolayısı ilə tərəf tutması, Qarabağa qanunsuz səfərlərin gerçəkləşməsinə, silah-sursat daşınmasına açıq- aydın göz yumması hər bir Azərbaycan vətəndaşında hiddət doğurur, əsəblərimizi tarıma çəkir.

Xankəndinin qondarma rejimində "mühüm vəzifə"yə təyin olunan erməni əsilli Rusiya vətəndaşı Vardanyan Qarabağda təbii sərvətlərimizin talan edilməsinə möhkəm girişib. Sülhməramlılarla işbirliyi quran bu dələduz o qədər həddini aşıb ki, Azərbaycanın dövlət qurumlarına da meydan oxuyur, ərazidə monitorinq aparılmasına imkan vermir. Rus sülhməramlıları da heç bir qanuna sığmayan erməni özbaşınalığına nəinki mane olmur, əksinə, bütün gücüylə əlverişli şərait yaradır. Rus sülhməramlılarının komandanı, general Volkov isə bizim haqlı tələblərimizə məhəl qoymur. Hətta o dərəcədə ki, etirazçıların qarşısına çıxmağı, çoxsaylı suallara cavab verməyi lazım bilmir.

Bu gün hər bir azərbaycanlı Şuşada olmaq, etirazçılara qoşulmaq istəyir. Bu gün hər bir ölkə vətəndaşının ürəyi Şuşayla döyünür. Əlbəttə, işlər bu cür davam edə bilməz! Qanun çərçivəsində tədbir görülməsə, "dəmir yumruğ"un havaya qalxacağı şübhəsizdir. Bu yumruq xalqımızla ordumuzun yenilməz vəhdətinin simvoludur. Onun gücünün nəyə qadir olduğunu 44 günlük müharibədə ermənilər yaxşı görüblər. İndi özləri seçim etsinlər.

*Etibar SƏFƏROV,*
*Ağdam rayonu Xındırıstan kənd tam orta məktəbinin tədris işləri üzrə direktor müavini*

## Haqlı tələbin dinc nümayişi

QHT nümayəndələrinin və müxtəlif ictimai təşkilatları təmsil edən fəalların Şuşa şəhərinin girişində Azərbaycanın təbii sərvətlərinin erməni separatçıları tərəfindən talan olunmasına qarşı keçirdikləri dinc etiraz aksiyası davam edir. Çox güman ki, bu aksiya vacib xəbər kimi bir neçə gün dünya mediasının gündəmindən düşməyəcək və talançı erməni separatçıları ilə rusiyalı sülhməramlıların bağlanılan üçtərəfli müqaviləni necə pozduqlarını sərgiləyəcək.



Yəqin ki, siz də aksiyanın ilk günü sülhməramlıların erməni terrorçularının onlara süzdükləri arağın ruhuna uyğun ağalıq etdiklərini gördünüz. Bu biabırçı səhnələr nə dinc və silahsız Azərbaycan vətəndaşlarının yolunu kəsə biləcək, nə də Xudayar bəy kimi qaçıb axurda gizlənən general Volkova başucalığı gətirəcək. "Sülhməramlı" generalın silahsız Azərbaycan vətəndaşlarının qarşısına çıxmağa cəsarəti çatmır. Amma ona cəsarəti çatır ki, haqqı tələb edən etirazçıların ətrafina hərbi texnika cəmləşdirsin, əsgərlərinə manevr etməyə və dinc nümayişçilərə təzyiq göstərməyə əmrlər versin.

İctimai fəallarımız isə sülhməramlıların içində leşinə kimi vurub keflənən rus zabitini göz qırpımında ifşa etdilər. Deməli, onların "missiya"sı terrorçuların çəkdikləri tut arağını gillədib dingildəmək imiş. Belə çıxır ki, general Volkov da araqdan sümükləri gəmirçəyə dönənədək vurubmuş. Onun adam arasına çıxmamağa bundan böyük səbəbi ola bilməzdi. Sülhməramlıların arasında biri maskanı üzünə çəksə də, erməni burnu maskanı yırtıb nümayişkaranə tərzdə bir qarış irəli çıxmışdı. Onu anındaca ifşa edən ictimai fəallarımız onunla ermənicə də danışdılar. Deməli, o ara-bərədə yenə də bir neçə erməni var imiş. Qarabağda nə qədər sülhməramlı olduğunu demək çətindir, amma müxtəlif mənbələr onların 7-8 min nəfər olduğunu göstərir. Təxmini hesablamalara görə, sülhməramlıların içində ermənilərin sayı 500 nəfəri keçə bilər. İndi barmağınızı gicgahınıza dirəyin və Ermənistandan gətirilib Azərbaycan torpaqlarında basdırılan minaların kimlər tərəfindən və hansı cığırlarla daşınmasını təxmin edin.

Artıq hamıya bəllidir ki, ictimai fəalların aksiyası Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində ekoloji vəziyyətin gərginləşməsi ilə əlaqədardır. Ekoloqlarımız nə istəyirlər ki... Sadəcə Azərbaycan ərazilərində monitorinq aparmaları üçün şərait yaradılmasını. Məqsədləri də ekoloji terrorun dayandırılması, Azərbaycanın iki mühüm faydalı qazıntı yatağının ermənilər tərəfindən istismarına son qoyulmasıdır. Təəssüf ki, ərazimizdə qonaq olub özlərini qonaq kimi aparmayanlar hələ ki, buna imkan vermirlər. Yeri gəlmişkən xatırladaq ki, İqtisadiyyat Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəsmiləri də bir neçə gün öncə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı və onun törətdiyi fəsadlarla bağlı monitorinq keçirmək istəsələr də, buna nail ola bilməmişlər.

Təbii ki, bu belə davam edə bilməz. 2 il öncə sübut etdik ki, səbrimiz nə qədər geniş olsa da, sonsuz deyil. Keçirdiyimiz bu dinc aksiya haqlı tələbimizin dinc nümayişidir. Amma hələlik...

*Bahadur İMANQULİYEV, "Azərbaycan"*

## Rus əsgəri sülh məramlı yox, erməni məramlıdır

### Elməddin MURADLI: "Yorulmadan, tükənmədən aksiyamızı davam etdirəcəyik"





Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərimizdə faydalı qazıntı yataqlarının, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etiraz olaraq ekofəalların və QHT təmsilçilərinin dekabrın 12-si səhər saatlarından başlayan aksiyası dünən də davam etmişdir.

Etirazçılar Şuşa-Laçın yolunu bağlayaraq haqlı tələblərini irəli sürmüşlər. Aksiyanın səbəbi qeyri-qanuni istismar olunan faydalı yataqlarda Azərbaycanın aidiyyəti qurumlarının mütəxəssislərindən ibarət qrupun ekoloji fəsadların və dəymiş ziyanın müəyyənləşdirilməsi üçün monitorinq aparmasının qarşısının rusiyalı sülhməramlılar tərəfindən alınmasıdır. Əldə olunmuş razılığa əsasən, dekabrın 10-da faydalı qazıntıların qanunsuz istismar olunduğu "Qızılbulaq" və "Dəmirli" yataqlarına Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, erməni separatçıları tərəfindən buna maneçilik törədilib. Rusiya sülhməramlı kontingenti isə bu istiqamətdə heç bir tədbir görməyərək onlar da monitorinqin keçirilməsinə mane olurlar. Bununla da Rusiya sülhməramlı kontingentinin məramının başqa niyyətli olduğunun, qanunsuz fəaliyyətinin şahidi oluruq.

### Erməni separatçıları sülhməramlıların himayəsi altında təbii sərvətlərimizi talayırlar

Şuşada aksiyada iştirak edən Jurnalistika və İnkişaf İctimai Birliyinin sədri Elməddin Muradlı qəzetimizə açıqlamasında deyib ki, dekabrın 12-si səhər saat 10 radələrindən Rusiya sülhməramlılarının postunu keçib Laçın dəhlizinə daxil olaraq yolu hər iki istiqamətdən avtomobillər vasitəsilə və çadırlar quraraq bağlayıblar. O qeyd edir ki, bu, sivil aksiyadır və dünyaya ekologiya ilə bağlı bir çağırışdır: "Bugün bütün dünya ekoloji problemlərlə mübarizə aparır, biz də bu sahədə öz sözümüzü deyirik, çünki erməni separatçıları Rusiya sülhməramlılarının himayəsi altında təbii sərvətlərimizi talamaqla məşğuldurlar. Mədənlərimiz amansızcasına istismar olunur, digər tərəfdən oradan atılan tullantılar flora və faunaya ziyan vurur. Beləcə, ətraf mühitin çirklənməsi baş verir".

Elməddin Muradlı deyir ki, ermənilər təbii sərvətlərimizin qanunsuz istismarı sayəsində milyonlarla dollar pul qazanırlar. Bu da onların separatçı əməllərinin daha da genişlənməsinə gətirib çıxarır. Həmin mədənləri istismar edən şirkətlərdən biri 2019-cu ildə - təkcə bir il ərzində Xankəndidəki separatçılara 19 milyon dollar vergi ödəyib. Separatçıların bu gün ayaqda qalması üçün xərclənən pulların 70 faizi həmin mədənlərdən gəlir. Onlar başa düşürlər ki, bu mədənlər əldən çıxsa, müflis olacaqlar.

Onun sözlərinə görə, ermənilər bunu Rusiya sülhməramlılarına izah edirlər, onlar da məramlarını kənara qoyaraq ermənilərin "məram"larının müdafiəsi ilə məşğul olurlar: "Dekabrın 12-də Laçına daxil olub Xankəndi yolunu bağlayanda sülhməramlılar bizə qarşı çox kobud münasibət göstərdilər. Hazırda aksiya davam edir. Yolu hər iki tərəfdən bağlamışıq. Onlar da bizim qarşımızda canlı sipər çəkiblər. Çox sevinirəm ki, burada tarixi hadisələr baş verir, mən də bu tarixin bir iştirakçısıyam".

### "Ekoloji terrora, vandalizmə son qoyulmalıdır"

2021-ci ildə Zəngilanda Prezident İlham Əliyevlə görüşən QHT sədri qeyd edir ki, dövlət başçısını diqqətlə dinləyib. Dövlət başçısı qeyd edib ki, bundan sonra ancaq və ancaq irəli gedəcəyik, Azərbaycan daha da güclənəcək, qüdrətlənəcək. Yerdə qalan problemlərimiz də həllini tapacaq. Bu gün o problemlərdən biri həll olunmaq üzrədir: "Biz təkidlə aksiyanı davam etdiririk. Cənab Prezidentin siyasətinə dəstək olaraq öz haqlarımızı sivil şəkildə tələb edirik. Bu gün dünyada elə proseslər var ki, silahla, müharibə ilə, qanla deyil, sözlə, hərəkətlə həll edilir. Biz də burada sözümüzü deyirik".

O dedi ki, aksiya iştirakçılarının təhlükəsizliyi Daxili İşlər Nazirliyi və Müdafiə Nazirliyi tərəfindən ən yüksək səviyyədə qorunur. Vətəndaş cəmiyyətinin nümayəndələri, eləcə də jurnalistlər, sıravi vətəndaşların sosial şəbəkələrdə dəstək nümayişindən qürurlandıqlarını deyən E.Muradlı bildirir ki, bu, onlara güc verir və yorulmadan, tükənmədən aksiyanı davam etdirirlər: "Bizə yeni qoşulanlar da var. Dekabrın 12-si axşam saatlarında sayımız 500 nəfərə çatıb və etirazçıların sayı hələ artmaqdadır. Şuşada işləyənlər də işdən sonra bizə qoşulurlar. Bu xalq heç vaxt əyilməyəcək və qarşısına qoyduğu məqsədlərinə nail olacaq. Ekoloji terrora, vandalizmə son qoyulmalıdır. Rusiya sülhməramlılarının himayəsi altında olan ermənilər bizim torpaqları istismar etməməlidir. Tələblərimiz ekoloqlarımızın sülhməramlıların müşahidəsi altında həmin ərazilərə gedərək monitorinqlər aparmasıdır. Həmin yataqlar daim Azərbaycanın nəzarətində olmalıdır. Ermənilər bununla artıq barışmalıdırlar".

Düşmənin hiyləyə əl ataraq aksiyaya başqa don geydirməyə çalışmasından danışan ictimai fəal deyir ki, onlar etirazçıların xüsusi təyinatlı, əsgər olduğunu və üzərlərində silah daşıdığını deyirlər: "Amma üzərimizdə telefondan başqa heç nə yoxdur. Biz bura silahsız gəlmişik, sülhməramlılar isə qarşımıza silahla çıxıblar, hətta pulemyotlardan belə istifadə edirlər".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etiraz edirlər

## Ermənistanın Azərbaycana qarşı ekoloji terroru bu gün də davam etməkdədir







Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva vətəndaş cəmiyyəti nümayəndələrinin və ictimai fəalların Laçın-Şuşa yolunda keçirdiyi etiraz aksiyalarına münasibət bildirib.

Ermənistanın Azərbaycana qarşı etnik nifrət zəminində həyata keçirdiyi soyqırımı, işğalçılıq, terrorçuluq siyasəti ilə yanaşı, yürütdüyü ekoloji terror siyasəti nəticəsində 30 il ərzində ölkəmizin təbiətinə, bioloji müxtəlifliyinə, flora və faunasına, su mənbələrinə, ümumilikdə işğal altında olmuş ərazilərin ekologiyasına, regionun ekosisteminə ciddi zərər vurulduğunu, beynəlxalq ekoloji cinayət törədildiyini bildirən Səbinə Əliyeva qeyd edib ki, müxtəlif nadir bitki və heyvan növləri məhv olmuş, çay və göllərdə özünü tənzimləmə prosesinin dayanması su hövzələrinin bütün canlılar üçün zərərli, ölü bir zonaya çevrilməsinə gətirib çıxarmışdır.

"Transsərhəd çay olan Oxçuçay uzun illər Ermənistan ərazisində kəskin çirklənməyə məruz qalmış və Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayındakı su ehtiyatlarının keyfiyyətinə mənfi təsir göstərmişdir.

Qeyd etmək istərdim ki, Ermənistanın Azərbaycana qarşı ekoloji terroru bu gün də davam etməkdədir. Belə ki, Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden faydalı qazıntı yataqlarının qanunsuz istismarı ciddi ekoloji fəsadlar törətməkdədir.

Azərbaycanın müvafiq dövlət qurumları, İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmaq istəsələr də, sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb, nümayəndə heyəti hər iki istiqamətdə təxribatla üzləşib.

Bütün bu baş verənlərə etiraz olaraq Azərbaycan vətəndaş cəmiyyətinin üzvləri, ekoloji hüquqların müdafiəsi sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının nümayəndələri, ictimai fəallar insan hüquqları sahəsində mövcud beynəlxalq sənədlərdə, o cümlədən milli qanunvericilikdə təsbit olunmuş hüquqlarından, xüsusilə sağlam ətraf mühitdə yaşamaq, sərbəst toplaşmaq, sərbəst hərəkət etmək, fikir və söz azadlığı hüquqlarından istifadə edərək hüquqların pozulmasına bilavasitə təsir göstərən ekoloji fəsadlara səbəb olan hallarla bağlı haqlı narazılıqlarını bildirirlər.

Bununla əlaqədar vətəndaş cəmiyyəti üzvlərinin, ictimai fəalların beynəlxalq və milli qanunvericiliyə müvafiq olaraq dinc şəkildə həyata keçirdiyi aksiyaya Azərbaycan Respublikası ərazilərində müvəqqəti yerləşən Rusiya sülhməramlı kontingentinin mane olma cəhdlərini qəti şəkildə pisləyir, Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il 10 noyabr tarixində imzalanmış üçtərəfli Bəyanatın şərtlərinə və malik olduqları mandata uyğun fəaliyyət göstərməyə dəvət edirəm.

Azərbaycan ombudsmanı olaraq, insan hüquq və azadlıqlarının müdafiəsi, ermənilər tərəfindən törədilən ekoloji terrorun aradan qaldırılması ilə bağlı aksiya keçirən vətəndaşlarımıza dəstəyimizi ifadə edir, həmçinin Ermənistanın Azərbaycan ərazilərində ekoloji vəziyyətin pisləşməsinə səbəb olan və sərvətlərimizin talan edilməsi kimi əməllərinə son qoymasını tələb edir, dünya ictimaiyyətini, beynəlxalq qurumları və beynəlxalq qeyri-hökumət təşkilatlarını insan hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən bu aksiyaya dəstək verməyə çağırıram", - deyə ombudsman Səbinə Əliyeva bildirib.

***"Azərbaycan"***

## Erməni fitnəkarlığı öz işini görür

### Separatçıların toruna düşən "sülhməramlılar" missiyalarını yerinə yetirmirlərsə, ərazilərimizdən çıxarılmalıdır

Yenə həmin dalğa, həmin koordinat. Ermənilər 1989-cu ildə fitnəkarlığa Topxana meşəsini qırmaqla, ekoloji terrorla başlamışdılar. Vandal ermənilərin təbiətimizi məhv etməklə başladıqları separatçılıq hərəkatı torpaqlarımızın 20 faizindən bir az da çoxunun işğalı, canımıza, malımıza qəsdlə yekunlaşdı.





Havadarlarının vasitəçiliyi ilə torpaqlarımızı işğal edən vandallar nəinki insanlarımızı, ərazilərimizi də məhv etməyə çalışdılar. Ac qurd kimi təbii sərvətlərimizi talamaqla, işğal olunmuş ərazilərdə müxtəlif tullantılarını basdırmaqla, çaylarımıza zərərli kimyəvi maddələr axıtmaqla məşğul oldular. Bir sözlə, 30 ilə yaxın bir dövrdə işğal etdikləri ərazilərdə təbiətimizin flora və faunasına qənim kəsilərək Qarabağı ölü zonaya çevirməyə çalışdılar...

Vətən müharibəsində məğlub olsalar da, erməni fitnəkarlığı yenə də davam edir. Yenə də təbii sərvətlərimizi talamaqla məşğuldurlar.

Pis vərdiş, fitnəkarlıq elə bir şeydir ki, ondan asanlıqla əl çəkmək mümkün deyil. Müalicəsi çətin olur. Xəstə müalicəyə tabe olmayanda vəziyyəti bir qədər də mürəkkəbləşir. Mənfur hisslər ermənilərə o qədər hakim kəsilib ki, reallıqları qəbul etmək, uduzduqlarını dərk etmək istəmirlər. Çirkin vərdişlərindən əl çəkib nəfslərinə hakim ola bilmirlər. Bəla burasındadır ki, bu dəfə də Qarabağa sülhməramlı kimi gələn "sülhməramlılar"dan istifadə etməyə çalışırlar. Ən pisi də budur ki, sülh missiyası üçün torpaqlarımıza təşrif buyuranlar özlərini hakimi-mütləq kimi aparmaq həvəsinə düşüblər. Hətta "sülhməramlılar"ın komandanı general-mayor Andrey Volkov özünü Qarabağın general-qubernatoru hesab edir. Unudurlar ki, Azərbaycan 1989-cu ildəki Azərbaycan deyil. Hazırda dünyanı təəccübləndirə bilən orduya, gücə sahibdir. Eyni zamanda onu da unudurlar ki, "sülhməramlılar" Azərbaycanın torpaqlarına Azərbaycanın razılığı ilə gəliblər. Missiyalarını yerinə yetirməsələr, onların mandatına xitam verilə bilər.

Ermənilərin torpaqlarımızı talamaları, faydalı qazıntıların qanunsuz istismarı ilə məşğul olmaları narahatlıq doğurmaya bilməzdi. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin sorğusu əsasında Müdafiə Nazirliyi Rusiya sülhməramlı qüvvələrinin komandanlığına onların müvəqqəti olaraq yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntıların qanunsuz istismarı və bundan əmələ gələn ekoloji fəsadların araşdırılması və monitorinqi məqsədilə Rusiya sülhməramlılarının komandanı general-mayor Andrey Volkova müraciət edib danışıqlar aparsalar da, "general-qubernator" monitorinq məqsədilə ekspertlərdən ibarət qrupun həmin ərazilərdə fəaliyyət göstərməsinə imkan yaratmayıb. Rusiya sülhməramlılarının bu özfəaliyyəti vətəndaş cəmiyyəti üzvlərinin, gənc fəalların, QHT nümayəndələrinin, mətbuat təmsilçilərinin haqlı narazılığına səbəb olub. Bakıdan Qarabağa, Şuşaya səfər edən fəallarımız artıq iki gündür ki, Laçın dəhlizində, Xankəndiyə gedən yolda dinc etiraz aksiyası keçirməyə məcbur olublar. Məqsəd də silahsız, əliyalın ekoloqların tarixi ərazilərimizə buraxılmamasının səbəbini öyrənməkdir.

Etirazçılardan Gənclərin Antinarkomaniya İctimai Birliyinin sədri Büllür Məmmədova ilə əlaqə saxladıq. Bizimlə söhbət zamanı o dedi:

- Artıq ikinci gündür ki, buradayıq. Məqsədimizə nail olmayınca eyni prinsipiallıqla aksiyamızı davam etdirəcəyik. Bizim tələbimiz çox sadədir. Ekoloqlarımızın, mütəxəssislərin "Dəmirli" və "Qızılbulaq" məntəqələrində monitorinq aparmaları üçün Rusiya sülhməramlıları şərait yaratmalıdırlar. Rusiya sülhməramlılarının komandanı hələ ki, bizimlə danışıqlardan imtina edir. Bir məsələni də qeyd edim ki, əgər etiraz aksiyasına başlayanda 100 nəfər iştirakçısı var idisə, bu gün bura gələnlərin sayı xeyli artıb. Bu rəqəm 1000 də, 100 min də ola bilər. Biz xalq olaraq bundan sonra şəhidlərimizin qanı ilə suvarılmış torpaqlarımızda kimlərinsə özbaşınalığına qəti surətdə yol verə bilmərik. Canımızı verərik, amma tutduğumuz ədalətli yoldan, prinsiplərimizdən geri çəkilmərik. Qeyd etdiyimiz kimi, tələbimiz çox sadədir: general Andrey Volkov bizimlə görüşüb, ekoloqlarımızın "Dəmirli" və "Qızılbulaq" məntəqələrinə getmələrinə şərait yaratmasıdır.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Aksiya iştirakçıları təbii sərvətlərimizin talanına son qoymağı tələb edirlər

Bir neçə gündür ki, Cənubi Qafqazın, eləcə də bütün dünya ictimaiyyətinin diqqəti Xankəndi-Gorus yolunun bağlanması, habelə ərazidəki faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarı və daşınması ilə əlaqədar qeyri-hökumət təşkilatı nümayəndələrinin, ictimai fəalların tələblərindən irəli gələn proseslərə yönəlib.







Dekabrın 12-si səhər saatlarından başlayan aksiyada iştirakçılar faydalı qazıntı yataqlarının, xüsusilə "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarının qanunsuz istismarına etirazlarını bildirirlər. Azərbaycan mütəxəssislərindən ibarət heyətin həmin yataqlarda monitorinq aparılmasına Rusiya sülhməramlıları tərəfindən şərait yaradılmasını tələb edir, eyni zamanda bununla bağlı lazımi tədbir görmədiyinə görə Rusiya sülhməramlılarının komandanı Andrey Volkovla görüşmək istəyirlər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət qrupun Qarabağ iqtisadi rayonunda apardığı monitorinqə görə, sərvətlərimizin talandığı faktı yenidən aktuallaşıb. Özü də bu, indi başlanan proses deyil, hələ işğalın mövcud olduğu 30 il ərzində Ermənistan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yeraltı-yerüstü sərvətlərini barbarcasına talayıb, xarici şirkətləri qanunsuz şəkildə bölgəyə cəlb edib. Bu şirkətlər həm Ermənistana, həm də digər xarici ölkələrə məxsusdur. Xatırladaq ki, Azərbaycanın Baş Prokurorluğunun hələ 2018-ci ildə apardığı araşdırmalara görə, Ermənistanda və digər ölkələrdə hüquqi qeydiyyatdan keçən "Vallex Group", "Base Metals", ACP, Lerna Metalurgiayi İnstitute, "Teghout" və digər şirkətlər, o cümlədən Ermənistandan olan fiziki şəxslər qızıl hasilatı biznesinin təşkilində iştirak ediblər.

"Vallex Group" talama prosesində aparıcı şirkətlərdən olub. İsveçrədə qeydiyyatdan keçən bu şirkəti erməni biznesmen Valeri Meclumyan təsis edib. Şirkət müxtəlif ölkələrdə qeydiyyatdan keçən - misal üçün, Kipr, Lixtenşteyn və s. - törəmə şirkətləri də özündə birləşdirir. Şirkətin maliyyə mənbələrindən biri kimi Rusiyanın VTB bankının da adı çəkilir. Qrupa o cümlədən Ermənistan və Rusiyada, eləcə də işğal dövründə Qarabağda fəaliyyət göstərmiş şirkətlər də daxil olub.

2001-ci ildə "Base Metals" şirkətini təsis edən "Vallex Group" işğal dövründə Kəlbəcərin "Heyvalı" yatağını istismar edərək, qurudub. Məlumatlara görə, 2009-2011-ci illərdə 400 min ton filiz emal edilib, halbuki bu müddətdə emal həddi 150 min olmalıdır. "Heyvalı"nı qurudandan sonra şirkət 2011-ci ildə keçmiş Ağdərə rayonundakı "Kaşen" - "Dəmirli" yatağının istismarına başlayıb. Bu yataqdan çıxarılan filiz əsasən Avropa ölkələrinə ixrac edilib.

"Base Metals" istismara qeyri-qanuni şəkildə xarici mütəxəssisləri də cəlb edib. Misal üçün, Cənubi Afrikadan olan mədən mühəndisi Johann Murrayın 2016-cı ildə separatçıların "televiziyasına" müsahibəsi bunu təsdiq edir. Belə mütəxəssislərdən biri də "Base Metals" şirkətinin (eyni zamanda "Vallex Group" şirkətlər qrupunun) maliyyə investoru, İsveçrə vətəndaşı Vartan Sirmakesdir.

Danimarkanın "FLSmidth" şirkəti də 2006-cı ildən "Vallex Group" ilə əməkdaşlıq çərçivəsində işğal altındakı ərazilərdə yataqların istismarına cəlb edilib. Bu şirkət "Vallex Group"un avadanlıq və layihələndirmə ilə bağlı sifarişlərini yerinə yetirib, yerli işçilərə treyninqlər keçmək üçün mütəxəssislər təqdim edib, o cümlədən 2008-ci ildə Ermənistanın Lori regionunda "Vallex"ə məxsus olan "Teghut" mis-molibden yatağında sifarişlə xidmətlər göstərib.

Diqqətçəkən məqamlardan biri də Qarabağda yataqların istismarında iştirak edən xarici mütəxəssislərin bölgəyə birbaşa yox, Ermənistan üzərindən gətirilməsidir. Mütəxəssislər Ermənistandakı yataqlarda işləməyə dəvət olunur, daha sonra Qarabağa gətirilirdi. Bu, böyük ehtimalla mütəxəssislərin işğal altındakı ərazilərə qanunsuz səfər etmək istəməməsindən qaynaqlanırmış. Misal üçün, "FLSmidth" şirkətinin Loridəki "Teghut" yatağında işləyən mütəxəssisləri buna paralel olaraq, "Kaşen" ("Dəmirli") yatağında da çalışıb. Onların CV-lərində işlədikləri ölkə kimi Ermənistan, iş yerləri kimi "Dəmirli" yatağı göstərilir.

Rusiya vətəndaşı Roman Valeyev də belələrindəndir. O, "FLSmidth" şirkətinin mühəndisi kimi 2014-2015-ci illərdə Ermənistandakı "Teghut" yatağında işləyib, 2015-ci ildə fasilələrlə Qarabağdakı "Dəmirli" yatağında istismar işinə cəlb olunub. "FLSmidth" şirkətinin tərcüməçisi, Rusiya vətəndaşı Yelena Kanturun, Almaniya və Türkiyə vətəndaşlığı daşıyan mühəndis Yalçın Kulaklıoğlu müəyyən müddətdə Qarabağda bu şirkətlərdə çalışmışlar.

"Teghut" yatağında işləyən İranın "Kavoshgaran Consulting Engineers" (KCE) şirkətinin əməkdaşları da "Dəmirli" yatağının istismarına cəlb olunublar. Mexanizm eynidir: "FLSmidth" şirkətində olduğu kimi, KCE şirkətinin əməkdaşları da "Teghut" yatağında işləyib, buna paralel olaraq, "Dəmirli" yatağının da istismarında iştirak ediblər. KCE-nin rəsmi saytında isə "Dəmirli" yatağı Ermənistan ərazisindəki mədən kimi göstərilib.

Qarabağdakı "Dəmirli" yatağının qanunsuz istismarına cəlb edilən KCE mütəxəssisləri arasında İran vətəndaşları Zohreh İranmaneşin, Mostafa Asadizadehin, 2015-2018-ci illər arasında KCE-də baş geotexniki mühəndis olmuş Sahand Şokrinin adını çəkmək olar. Bu şəxslərin 2015-ci ildə "Teghut" yatağı ilə yanaşı, "Dəmirli" yatağında da işlədiyinə dair məlumatlar var.

Rusiyanın "Gold Star" QSC isə Zəngilan rayonunun Vejnəli kəndində qızıl yataqlarının qanunsuz istismarını həyata keçirib. Burada olan "Vejnəli" yatağı ilə yanaşı, Kəlbəcər rayonunun "Söyüdlü" (zod-qızıl-sulfid), "Qızılbulaq" (qızıl-mis-kolçedan), "Heydərə" (qızıl), "Qərbi Qızılitən" və "Ağzıbir" (qızıl) yataqları da talanıb.

İşğal dövründə erməni mənbələr Qarabağ və ətraf ərazilərdəki "qızıl mafiyası" haqda zaman-zaman məlumatlar dərc edib. Hələ o zaman Qarabağdakı separatçı-terrorçu rejimin keçmiş "rəhbəri" Bako Saakyan və Ermənistanın keçmiş prezidenti Serj Sarkisyan Azərbaycanın işğal altındakı ərazilərində istismar edilən qızılın xaricə daşınmasına görə ittiham edilirdi.

Erməni jurnalist Vaqram Ağacanyanın araşdırmasına görə, işğal dövründə Ermənistanın 30-dan çox şirkəti Qarabağdakı qızıl və digər qiymətli metalların istismarını həyata keçirib. Belə şirkətlərdən biri FDM-dir. 2001-ci ildə fəaliyyətə başlayan şirkət Azərbaycanın 16 tondan çox qızılını talayıb. Təkcə 2008-ci ildə talanan qızılın həcmi 4 ton olub.

Azərbaycanın Baş Prokurorluğu 2018-ci ildə işğal altındakı ərazilərin sərvətlərinin talanması ilə bağlı beynəlxalq məhkəmələrə müraciət ünvanlayıb. Torpaqlarımız işğaldan azad edildikdən sonra istintaq işləri birbaşa yerlərdə aparılıb və yeni faktlar aşkarlanıb. Belə ki, Vejnəli kəndində əlvan metal yataqlarından qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq, gəlir əldə edən İsveçrədə rəsmi qeydiyyatdan keçmiş "Vallex Group" şirkətlər qrupunun filialı olan "Base Metals" Qapalı Səhmdar Cəmiyyəti 2009-2017-ci illər ərzində cəmi 301 milyon 918 min manat məbləğində qanunsuz gəlir əldə edib. Qeyd edilən cinayət faktları ilə əlaqədar "Vallex Group" şirkətlər qrupunun maliyyə investoru, İsveçrə vətəndaşı Vartan Sirmakes və rəhbəri Valeri Mejlumyan, o cümlədən həmin şirkətlər qrupuna daxil olan "Base Metals" QSC-nin icraçı direktoru Artur Mkrtumyan haqqında cinayət işi açılıb, beynəlxalq axtarışa veriliblər.

Hazırda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərdə təbii sərvətlərimizin talan edilməsi davam etdirilir. Qarabağ iqtisadi rayonunda başlanılması nəzərdə tutulan ekoloji monitorinqin məqsədi də qanunsuz fəaliyyətin qarşısını almağa hesablanıb. Azərbaycan mütəxəssislərindən ibarət heyətin həmin yataqlarda monitorinq aparılmasına Rusiya sülhməramlıları şərait yaratmır və bununla bağlı lazımi tədbir görmürlər. Ona görə ki, ermənilərin alətinə çevriliblər. Ona görə də aksiya iştirakçıları monitorinqə şərait yaradılmayana qədər aksiyanı davam etdirəcəklərini bildiriblər. Onlar Andrey Volkovun əraziyə gəlməsini, qanuni və hüquqi tələblərinin yerinə yetirilməsini tələb edirlər.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycan, Türkiyə və Türkmənistanın XİN başçıları Avazada bir araya gəliblər



Dekabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Türkmənistanın Avaza şəhərində keçirilən Azərbaycan Respublikasının, Türkiyə Respublikasının və Türkmənistanın xarici işlər nazirlərinin iclasında iştirak edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda dekabrın 14-də keçiriləcək Azərbaycan, Türkiyə və Türkmənistanın Dövlət Başçılarının Birinci Zirvə Görüşündə müxtəlif sahələr, o cümlədən energetika, ticarət, gömrük, nəqliyyat, təhsil və mədəniyyət sahələri üzrə qəbul olunacaq sənədlər, həmçinin Azərbaycan-Türkiyə-Türkmənistan üçtərəfli formatının inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Nazir Ceyhun Bayramov Azərbaycan-Türkiyə-Türkmənistan Dövlət Başçılarının Birinci Zirvə Görüşünün ölkələrimiz arasında üçtərəfli dialoqun inkişafında mühüm rol oynayacağını bildirib. Üç dövlət arasında beynəlxalq təşkilatlar, o cümlədən Türk Dövlətləri Təşkilatı çərçivəsində münasibətlərin inkişafı məmnunluqla qeyd edilib.

Azərbaycan, Türkiyə və Türkmənistan arasında üçtərəfli əməkdaşlıq formatının bölgənin nəqliyyat və tranzit potensialından tam istifadə olunmasına, eyni zamanda Şərq-Qərb Trans-Xəzər nəqliyyat dəhlizinin gücləndirilməsinə töhfə verəcəyinə inam ifadə edilib. Bu xüsusda, Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə yeni nəqliyyat infrastrukturunun yaradılması, o cümlədən Zəngəzur dəhlizinin açılması istiqamətində fəaliyyətinin xüsusi əhəmiyyət kəsb etdiyi bildirilib.

Dünyada baş verən hadisələr fonunda enerji təhlükəsizliyi amilinin aktuallığının artmasının ölkələrimiz arasında bu sahədə səylərin gücləndirilməsinin vacibliyini göstərdiyi bildirilib.

Nazir Ceyhun Bayramov həmçinin Azərbaycan tərəfindən 30 illik işğalın nəticələrinin aradan qaldırılması, habelə öz yurdlarından didərgin düşmüş vətəndaşlarımızın təhlükəsiz geri qayıdışının təmin edilməsi istiqamətində aparılan genişmiqyaslı bərpa və quruculuq işləri haqqında ətraflı məlumat verib. Bu xüsusda mina təhlükəsinin regionda aparılan bərpa və quruculuq işlərinə, o cümlədən sülh gündəliyinin irəli aparılmasına ciddi əngəl törətdiyi vurğulanıb.

Daha sonra digər ölkələrin xarici işlər nazirləri çıxış edərək üçtərəfli tərəfdaşlığın perspektivləri barədə danışıblar.

# Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulmasının hüquqi bazası təkmilləşdirilir

Dekabrın 13-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin növbəti iclası keçirilib. Komitə sədri Sadiq Qurbanov gündəliyə üç məsələnin daxil edildiyini bildirib.

Sadiq Qurbanov, əvvəlcə, birinci oxunuşda olan "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, qanun layihəsi tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi və istehlakçıların elektrik şəbəkələrinə qoşulmasının asanlaşdırılması məqsədilə hazırlanıb.

Sənəddə qoşulmanın normativ tənzimlənməsinin təmin edilməsi, qoşulma şərtləri müəyyən edilərkən istehlakçının kateqoriyasının, aldığı enerjinin həcminin və tikinti obyektinin statusunun nəzərə alınması, habelə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və əlavə güc alması qaydasının, qoşulma xidmətinə görə ödənişin məbləğinin müəyyən edilməsinə dair metodologiyanın müəyyən edilməsi üçün hüquqi əsasın yaradılması məsələləri öz əksini tapıb.

Layihəyə tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması ilə bağlı yeni maddə əlavə olunur. Əlavəyə əsasən, tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji alması qoşulma müqaviləsi əsasında həyata keçirilir. Tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulmasına görə sifarişçi enerji təchizatı müəssisəsinə və ya dövlət elektroenergetika müəssisəsinə qoşulma xidmətinə görə ödəniş edir. Habelə qeyd olunur ki, qoşulma nöqtəsi tikinti obyektlərinə ən yaxın məsafədə yerləşən yarımstansiyada, transformator məntəqəsində, elektrik xəttində, paylayıcı lövhədə müəyyən edilir. Enerji istehsalçılarının elektrik enerjisi istehsal edən tikinti obyektləri gərginlik səviyyəsi və elektrik şəbəkəsinin gücü baxımından uyğun olan və elektrik stansiyasına ən yaxın məsafədə yerləşən qoşulma nöqtəsinə birləşdirilir.

Sənəddə "elektroenergetika obyektləri", "qoşulma nöqtəsi", "qoşulma xidmətinə görə ödəniş", "qoşulma müqaviləsi", "ötürücü şəbəkə", "enerji təchizatı şəbəkəsi (paylayıcı şəbəkə)" və bir sıra digər yeni anlayışlar və onların izahları verilib.

İclasda iştirak edən Energetika Nazirliyinin Hüquq şöbəsinin müdiri İbrahim Ağayev məsələ ilə bağlı fikirlərini açıqlayıb. Diqqətə çatdırılıb ki, sənəd ölkə Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq hazırlanıb. Plana əsasən, qanunvericilikdə təbii qaz, su və elektrik enerjisi təchizatı qurumları tərəfindən texniki şərtlərin verilməsi ilə əlaqədar normativlərin, eləcə də qüvvədə olan digər texniki norma və tələblərin müasir standartlara uyğunlaşdırılması, müvafiq infrastrukturun yenidən qurulmasına görə ödənişlərin hesablanması və müvafiq işlərin görülməsinin ümumi dəyərinin müəyyən edilməsi ilə bağlı müddəaların təkmilləşdirilməsi nəzərdə tutulub. İbrahim Ağayev qanun layihəsinin istehlakçıların və sahibkarların hüquqlarının qorunması baxımından əhəmiyyətindən bəhs edib. Təklif olunan dəyişikliklərin mahiyyətindən danışan mütəxəssis qanunda təsbit edilən qaydaların müasir standartlara uyğunlaşdırılmasının vacibliyini qeyd edib.

Komitə üzvləri Məşhur Məmmədov, İltizam Yusifov sənədlə bağlı bir sıra qeydlərini səsləndiriblər. Energetika Nazirliyinin nümayəndəsi İbrahim Ağayev qaldırılan məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında tövsiyə olunub.

İclasda "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələrinə də baxılıb.

Hər iki sənəd Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Sonra komitə sədri Sadiq Qurbanov, komitənin üzvləri Naqif Həmzəyev, İltizam Yusifov, Fatma Yıldırım Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində təbii sərvətlərin qanunsuz istismarına etiraz əlaməti olaraq ekoloqların, ictimai fəalların, könüllülərin iştirakı ilə Laçın-Şuşa yolunda keçirilən etiraz aksiyası ilə bağlı fikirlərini açıqlayıblar. Bildirilib ki, Azərbaycanın təbii sərvətlərinin talan edilməsinə son qoyulmalı, aidiyyəti qurumların nümayəndələrinin yataqlarda monitorinq aparılmasına törədilən maneələr aradan qaldırılmalıdır.

*"Azərbaycan"*

# Malların gömrükdən daha sürətli keçidi təmin ediləcək

Dekabrın 13-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Tahir Mirkişili bildirib ki, gündəliyə 26 məsələ daxil edilib.

Komitə sədri bir-biri ilə bağlı olan ilk iki məsələni müzakirəyə təqdim edib. O, Gömrük Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrini gömrük sistemində aparılan islahatlar kontekstində xarakterizə edərək təklif olunan dəyişikliklərin gömrük prosedurlarının sadələşdirilməsi, sahibkarların maraqlarının qorunması baxımından əhəmiyyətini yüksək qiymətləndirib.

Tahir Mirkişili deyib ki, Gömrük Məcəlləsinə təklif olunan dəyişikliklər malların gömrükdən daha sürətli keçidinin təmin edilməsi məqsədilə hazırlanıb. Layihədə malların buraxılışının həyata keçirilməsi ilə bağlı gömrük orqanına daxil olan müraciətə (bəyannaməyə) bir gün müddətində baxılması və bunun əsasında malların buraxılışının təmin olunması təklif olunub. Əgər malın buraxılışı üçün gömrük dəyərinə müvafiq düzəlişlər edilməsinə zərurət yaranırsa, gömrük orqanı bu barədə bildirişi bəyannamənin gömrük orqanına təqdim olunduğu andan 24 saat ərzində bəyannaməçiyə təqdim etməlidir.

"Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi isə malların gömrük dəyərinin müəyyən edilməsinin sadə və ədalətli meyarlara əsaslanmasını təsbit etməklə, gömrük dəyərinin müəyyən edilməsi sahəsində vahid təcrübənin formalaşmasına, bu sahədə sui-istifadə və neqativ halların qarşısının alınmasına, beynəlxalq qaydaların implementasiyasına və şəffaflığın artırılmasına xidmət edir.

İclasda iştirak edən Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini, sədr vəzifəsini icra edən Şahin Bağırov deyib ki, qanun layihələri daha çox biznes mühitinin inkişafına yönəlib. Malların gömrük dəyərinin düzgün müəyyən edilməsinin əhəmiyyətini vurğulayan Şahin Bağırov dəyişikliklərlə bağlı gömrük orqanlarının üzərlərinə düşən məsuliyyətə ciddi riayət ediləcəyini bildirib.

Dövlət Gömrük Komitəsinin rəhbəri gömrük orqanlarında görülən işlər, prosedurların sadələşdirilməsi, gömrük sisteminin elektronlaşdırılması, vətəndaşların gömrük sahəsində məmnunluq səviyyəsinin yüksəldilməsi və digər istiqamətlərdə həyata keçirilən tədbirlər barədə deputatlara məlumat verib.

Müzakirələrdə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, komitənin üzvləri Vahid Əhmədov, Ziyad Səmədzadə, Mahir Abbaszadə, Vüqar Bayramov, Rüfət Quliyev, İqbal Məmmədov, Məzahir Əfəndiyev, Aydın Hüseynov, Məşhur Məmmədov və Anar Məmmədov çıxış ediblər. Deputatlar layihələri gömrük xidmətlərindən istifadənin asanlaşdırılması və elektronlaşdırılması baxımından müsbət qiymətləndiriblər, son vaxtlar gömrük sistemində görülən işləri təqdirlə qarşılayıblar. Deputatlar malların gömrük dəyərinin formalaşması qaydaları, daxili bazarın qorunması metodologiyası ilə maraqlanıblar, gömrük sahəsində məmnunluq indeksinin yüksəldilməsinin vacibliyini vurğulayıblar, qanun layihələri barədə fikirlərini bildiriblər və suallarını səsləndiriblər.

Dövlət Gömrük Komitəsi sədrinin vəzifəsini icra edən Şahin Bağırov deputatların suallarına aydınlıq gətirəndən sonra hər iki qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

Sonra komitə sədri bildirib ki, gündəliyin 3-cü məsələsindən başlayaraq növbəti 18 məsələ Azərbaycan Respublikası Prezidenti tərəfindən təsdiq edilmiş "Açıq hökumətin təşviqinə dair 2020-2022-ci illər üçün Milli Fəaliyyət Planı"na uyğun olaraq hazırlanıb və üçüncü oxunuşda müzakirəyə çıxarılan qanun layihələridir.

Beləliklə, deputatlar Vergi Məcəlləsində, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Valyuta tənzimi haqqında", "Maliyyə-sənaye qrupları haqqında", "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Avtomobil yolları haqqında", "Banklar haqqında", "Lotereyalar haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "İpoteka haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Dövlət borcu haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lisenziyalar və icazələr haqqında" qanunlarda, həmçinin "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi ilə bağlı qanun layihələrini nəzərdən keçirərək üçüncü oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

İclasda bir-biri ilə bağlı olan və mobil cihazların qeydiyyatının aparılmasının hüquqi əsaslarını müəyyən edən İnzibati Xətalar Məcəlləsində və "Telekommunikasiya haqqında" qanunda dəyişiklik edilməsi ilə bağlı olan qanun layihələri, həmçinin radiotezlik resurslarının müddətli ayrılması, radiotezliklərdən istifadənin əsaslarının müəyyən olunduğu "Telekommunikasiya haqqında" qanunda, "Lisenziyalar və icazələr haqqında" qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi ilə bağlı daha üç qanun layihəsi də nəzərdən keçirilərək ikinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasın sonunda Ələt Azad İqtisadi Zonasında fəaliyyət üçün əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisinə daxil olması, müvəqqəti qalması məsələlərinin tənzimlənməsi ilə bağlı Miqrasiya Məcəlləsində və "Ələt Azad İqtisadi Zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə (ikinci oxunuş) baxılaraq Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# XİN: "Ermənistan Azərbaycanın ərazi bütövlüyünə qarşı bəyanat və addımlara son qoymalıdır"

## Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Azərbaycan Respublikası ərazilərində müvəqqəti yerləşmiş Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb

Ermənistan Xarici İşlər Nazirliyinin 2022-ci il 13 dekabr tarixli, Şuşa-Laçın yolunda son vəziyyətlə əlaqədar Azərbaycan tərəfini ittiham edən, əldə olunmuş razılıqlar çərçivəsində öhdəlikləri təhrif edən əsassız bəyanatını qətiyyətlə rədd edirik.

Ermənistan XİN-in Azərbaycan tərəfini Laçın yolunu bağlamaqda və üçtərəfli Bəyanatı pozmaqda ittiham etməsi riyakarlıqdan başqa bir şey deyildir.

AZƏRTAC xəbər verir ki, bu, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin 2022-ci il 13 dekabr tarixli bəyanatına dair şərhində yer alıb.

Şərhdə bildirilib: "İlk öncə xatırladırıq ki, Ermənistan tərəfindən üç ölkə liderlərinin imzaladığı 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarının yerinə yetirilmədiyi, xüsusilə də 4-cü bəndə zidd olaraq erməni silahlı qüvvələrinin hələ də Azərbaycan ərazilərindən çıxarılmadığı, 6-cı bəndə zidd olaraq Laçın yolundan həm hərbi təxribatlar, həm də qeyri-qanuni iqtisadi fəaliyyət üçün istifadə olunduğu, 9-cu bəndə zidd olaraq bölgədə bütün nəqliyyat-kommunikasiya yollarının açılmasına maneçilik törədildiyi dəfələrlə tərəfimizdən bəyan edilib.

Laçın yolunun bağlanması və guya ərazidə yaşayan erməni sakinlərin humanitar böhran təhdidi ilə üzləşdikləri barədə iddialara gəldikdə qeyd edək ki, Laçın yolu azərbaycanlı etirazçılar tərəfindən deyil, Azərbaycan Respublikası ərazilərində müvəqqəti yerləşmiş Rusiya Federasiyasının sülhməramlı kontingenti tərəfindən bağlanıb. Azərbaycan tərəfi ərazilərimizdə yaşayan bütün erməni sakinlərin humanitar ehtiyaclarını qarşılamağa hazırdır və Ermənistan tərəfinin iddialarının heç bir əsası yoxdur.

Azərbaycan vətəndaş cəmiyyətinin nümayəndələrinin və ekologiya fəallarının Şuşa-Laçın yolunda həyata keçirdiyi etiraz aksiyası Azərbaycan ictimaiyyətinin Rusiya sülhməramlılarının yerləşdiyi Azərbaycan ərazilərində həyata keçirilən qeyri-qanuni iqtisadi fəaliyyətə, təbii sərvətlərin talanmasına və ekologiyaya dəyən zərərə haqlı narazılığının nəticəsidir.

Azərbaycan Xarici İşlər Nazirliyi tərəfindən bir neçə gün əvvəl məlumat verildiyi kimi, cari il dekabrın 3-dən etibarən Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər törəmə fəsadlar ilə bağlı aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət heyət sülhməramlı kontingentin komandanlığı ilə danışıqlar aparıb. "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarına yerində baxış, qanunsuz istismarın dayandırılması, müxtəlif istiqamətlər üzrə monitorinq və inventarizasiyanın aparılması, ətraf mühitə potensial risklərin qiymətləndirilməsi və dəymiş zərərin nəticələrinin aradan qaldırılması tələb olunub.

Əldə olunmuş razılığa uyğun olaraq, dekabrın 10-da faydalı qazıntıların qanunsuz istismar olunduğu ərazilərə Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, bu səfərə maneçilik törədilib. Bütün bunlar Azərbaycan xalqının etirazına səbəb olub.

Bununla yanaşı, Azərbaycanı "beynəlxalq hüququ pozmaqda", "etnik təmizləmədə", "soyqırımı siyasətində" ittiham edən Ermənistan XİN-ə xatırladırıq ki, beynəlxalq hüququn bütün norma və prinsiplərini pozan, 30 ilə yaxın Azərbaycan ərazilərini işğal altında saxlayan, bir gecə ərzində Xocalıda, eləcə də Azərbaycanın digər şəhərlərində yüzlərlə mülki əhaliyə qarşı kütləvi qırğın törədən, 1 milyona yaxın azərbaycanlını Ermənistan və işğal etdiyi Azərbaycan ərazilərindən qovan, işğal siyasətinə son verildikdən sonra hələ də qanunsuz silahlı dəstələrini Azərbaycan ərazilərindən çıxarmayan, hərbi və mina təhdidlərini davam etdirən məhz Ermənistandır.

Qeyd olunmalıdır ki, məhz Ermənistan tərəfindən 2021-ci ildə istehsal olunmuş minaların ərazilərimizə daşınması, ərazilərimizin məqsədyönlü şəkildə minalanmasının davam etməsi postmünaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına mane olan əsas təhdidlərdəndir. Məhz Ermənistanın davam edən təxribatları nəticəsində 2020-ci il Vətən müharibəsinin başa çatmasından etibarən bu günədək 268 vətəndaşımız mina partlayışından zərər çəkib, onlardan 3 nəfəri jurnalist olmaqla 45 nəfər həlak olub. Həlak olan 45 nəfərdən 35-i mülki şəxsdir.

"Ermənilərin hüquq və təhlükəsizliyinin təmin edilməsi üçün beynəlxalq mexanizmin yaradılması" barədə əsassız çağırışlara gəldikdə qeyd edək ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərinin hüquq və təhlükəsizliyi məsələsi Azərbaycanın daxili işidir. Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir və bu bölgədə yaşayan erməni əsilli əhalinin hüquq və təhlükəsizliyi Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq təmin ediləcək.

Azərbaycan öz tərəfindən üzərinə götürdüyü öhdəlikləri tam yerinə yetirir və Ermənistan tərəfinin də bu öhdəliklərə əməl etməsini qətiyyətlə tələb edir. Ermənistandan fərqli olaraq, sülh gündəliyinin təşəbbüskarı olan Azərbaycan bölgədə gərginliyin yaranmasında maraqlı deyil. Azərbaycan öz ərazilərinin təhlükəsizliyini və bütövlüyünü qanuni əsaslarla təmin edir.

Ermənistan tərəfi Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı bəyanat və addımlara son qoymalıdır".

# Son 2 ayda İranda 490 nəfər qətlə yetirilib

## Avropa İttifaqı bu ölkəyə qarşı yeni sanksiyalar elan edib

Avropa İttifaqı İran İslam Respublikasına qarşı insan haqlarının pozulmasına və Ukraynadakı müharibədə İranın pilotsuz təyyarələrindən istifadəyə görə yeni sanksiyalar elan edib.





Avropa İttifaqının xarici işlər nazirlərinin iclasında insan haqlarının pozulması və Ukraynadakı müharibədə iştirakı ilə bağlı iddialar əsasında bir sıra iranlı fiziki şəxslərə və qurumlara qarşı sanksiyalar tətbiq edilib.

Aİ sənədinə əsasən, İranın 20 fiziki şəxsi və bir qurumu, o cümlədən media mənsubları insan haqlarının pozulması iddiası ilə blokun sanksiya siyahısına əlavə edilib, daha 4 fiziki şəxs və 4 qurum isə Ukraynada müharibə zamanı İranın pilotsuz təyyarələrindən istifadə edilməsilə bağlı ittihamlarla əlaqədar sanksiyalara məruz qalıb. Avropa İttifaqı sanksiyalara məruz qalan 8 fiziki və hüquqi şəxsin İran pilotsuz təyyarələrinin hissələrinin tədqiqi, layihələndirilməsi və istehsalı prosesinə cəlb edildiyini bildirib. Almaniyanın xarici işlər naziri Aİ-nin yeni sanksiyalarının İrandakı SEPAH-ı hədəf alacağını bildirib.

İranda insan hüquqlarının pozulması davam edir. Hüquqşünas və Şərqi Azərbaycan Vəkillər Birliyinin üzvü Sina Yusifi 6 ay həbs cəzasına məhkum edilib. Telefon, kompüter və bir sıra şəxsi əşyalarının müsadirəsi və həbsdən sonra 2 il ölkədən çıxışına qadağa qoyulub.

Azərbaycanlı vəkil bununla bağlı özünün sosial media hesabında paylaşım edib və yazıb ki, vəkillik borcunu yerinə yetirdiyi və xalqın hüququnu müdafiə etdiyi üçün cəzalandırılıb.



Gunaz.tv telekanalının verdiyi xəbərə əsasən, oktyabrın 14-də tanınmış vəkil Sina Yusifinin Təbrizdə 1700 nəfərin hökumət məmurları tərəfindən həbs edildiyini və saxlanılanların azadlığı üçün müdafiə komitəsi yaratdıqlarını bildirdikdən bir gün sonra həbs edilmiş və oktyabrın 27-si girov qarşılığında müvəqqəti olaraq sərbəst buraxılmışdı.

Digər xəbərə görə, Təbrizdə yaşayan milli fəal Hüseyn Məhəmmədiyan özünün iş yerində həbs edilib. Onun həbs səbəbi və nədə ittiham olunduğu, hara aparıldığı barədə heç bir məlumat verilməyib.

Hüseyn Məhəmmədiyan bundan öncə də dinc fəaliyyətlərinə görə saxlanılıb və təzyiqlərlə üzləşib.

İranın Hüquq Müdafiəçiləri Qrupunun xəbər agentliyi dekabrın 12-si axşam saatlarına olan məlumatında hökumət məmurları tərəfindən qətlə yetirilən etirazçıların sayını açıqlayıb. Məlumatda sentyabrın 17-dən bəri İranda davam edən etiraz nümayişlərində 68-i uşaq olmaqla 490 nəfərin hökumət qüvvələri tərəfindən öldürüldüyü bildirilib. Bununla yanaşı, 18170 nəfərin saxlanıldığı, onlardan 626 nəfərinin tələbə olduğu qeyd edilib. Bu müddət ərzində 161 şəhərdə etirazçılar İranın idarəetmə sisteminə qarşı nümayişlər həyata keçirib və 143 universitetin tələbələri bu nümayişləri dəstəkləyibləр.

Bu arada, Güney Azərbaycan Milli Azadlıq Cəbhəsi 21 Azər Hərəkatı, Milli Hökumətin qurulmasının ildönümü ilə bağlı bəyanat yayıb. Bəyanatda deyilir: "Bir millət olaraq bütün imkanlarımızı bu istiqamətə yönəltməli və milli birliyimizə aparan bütün fəaliyyətləri dəstəkləyərək faşist və işğalçı fars rejiminə qarşı birgə fəaliyyət göstərməliyik. Yaşasın Azərbaycan! Yaşasın milli birliyimiz!"

Bu arada Binab şəhərindən olan Ümid Ağacani və Məlikan şəhərindən olan Mehdi Kərimi adlı milli fəallar Marağa şəhərinin zindanından azad ediliblər.

Onlar girov qarşılığında müvəqqəti olaraq məhkəməyə qədər sərbəst buraxılıblar.

İran məhkəmə sisteminin rəsmiləri fəallara qarşı sürülən ittiham barədə açıqlama verməyib. Ümid Ağacani 20 noyabr axşam saatlarında işdən evə qayıdarkən təhlükəsizlik məmurları tərəfindən həbs edilib.

Ümidin yaxınlarının dediyinə görə, o, heç bir nümayişə qoşulmadığı halda guya etiraz aksiyalarının liderlərindən biri olduğu barədə ondan məcburi etiraf almaq istəyirlər.

Bundan başqa, ötən ayın 19-da Xoy şəhərində təhlükəsizlik məmurları tərəfindən həbs edilən Negin Əhmədi sərbəst buraxılıb.

Yaxınlarının verdiyi məlumata görə, Güney azərbaycanlı xanım fəala qarşı "hökumət əleyhinə təbliğat" ittihamı irəli sürülüb və o, 500 milyon tümən girov qarşılığında müvəqqəti olaraq məhkəməyə qədər azadlığa buraxılıb.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# Milli sərvətimiz, cənnətməkan guşəmiz

## Prezident İlham Əliyevin yeni inkişaf strategiyası qədim mədəniyyət irsimizi yaşadan Şəkini həm də Qafqazın turizm mərkəzinə çevirib







**Azərbaycanın qədim mədəniyyət məskənlərindən olan Şəki bu gün həm də regionun önəmli turizm mərkəzi kimi tanınmaqdadır. Şəkiyə ayaq basan istər yerli, istərsə də əcnəbi qonaqların saysız-hesabsız memarlıq abidələrini ziyarət edə bilmələri bunu təsdiqləyən reallıqdır.**

Şəki şəhəri orta əsr Şərq şəhərlərinə məxsus olan şəhərsalma mədəniyyətini özündə qoruyub saxlayan unikal bir yerdir. Şəhərin nadir tarixi memarlıq abidələri - karvansaralar, məscidlər, minarələr, evlər, qala divarları, körpülər buranın qədim memarlıq üslubuna məxsus olmasından xəbər verir. Şəki rayonu ərazisində dövlət mühafizəsinə götürülmüş 84 arxeoloji və memarlıq abidəsi var. Onlardan I-IV əsrlərə aid Kiş alban məbədi, XVIII əsrə aid Şəki Xan Sarayı dünya əhəmiyyətli abidələrdir. Təbii şəraitinə, xüsusilə əsas iqlim amillərinə görə Şəki sanki Bolqarıstanın güllər diyarı Kazanlıkla, İtaliyanın cənubunda geniş üzüm və zeytun plantasiyaları olan Potensa, Himalay dağlarının cənub ətəklərində yerləşən Srinaqar şəhərləri ilə əkizdir.

### Qədim adət-ənənə, şirin ləhcə, qonaqpərvərlik, milli mətbəx mədəniyyəti

Şəki ölkəmizin mühüm turizm mərkəzlərindən biridir, bura gələn turistlərin sayı ilbəil artır. Azərbaycana gələn xarici turistlərin böyük əksəriyyəti Şəki şəhərini ziyarət edir. Buna səbəb Şəkinin coğrafi mövqeyi, eyni zamanda zəngin turizm potensialına malik olmasıdır. Şəkinin gözəl təbiəti, iqlimi, memarlıq, mədəni-məişət abidələri, müsbət adət-ənənələri, nadir sənətkarlıq növləri, mətbəxi turizmin, xüsusilə beynəlxalq turizmin sürətlə inkişaf etdiyi hazırkı dövrdə böyük əhəmiyyət kəsb edir. Yerli əhalinin ləhcəsi, insanlara xoş münasibəti turistlərdə gözəl təəssürat yaradır. Şəkinin mətbəx mədəniyyəti də turistlərin dəyər verdikləri amillərdən biridir. Şəki pitisinin, Şəki halvasının ayrı bir ləzzəti var. Ancaq turistlərə Şəkini ən çox sevdirən insanların qonaqpərvərliyidir.

Burada 52-dən çox (hotel, hostel, motel, qonaq evi və s.) mehmanxana fəaliyyət göstərir. Bir gündə 2500 nəfəri yatılı qarşılama potensialına malik olan Şəkiyə il ərzində 200 mindən çox yerli və xarici turistlər səfər edir.

Son illər Şəkidə turizmin inkişafı, turizm infrastrukturunun yaradılması istiqamətində mühüm işlər görülüb. Şəhərə gələn turistlərin cəlb edilməsi baxımından geniş imkanlara malik turizm obyektləri, müasir tipli istirahət mərkəzləri, yeni hotellər istifadəyə verilib. Son illər "Şəki xanlarının evi" bərpa edilib, "Marxal" sanatoriya-istirahət kompleksi, "Şəki Saray", "Şəki Palace", "İssam", "Şəki Park", "Yaffle İnn", "MinAli", "Macara", "Ruma Qala", "Old Town" hotelləri, Şəkinin şimal-qərb hissəsində, dağlıq ərazidə "Khanland" Əyləncə Mərkəzi, Baş Kəldək kəndinin yaxınlığında turizm-rekreasiya məqsədilə ayrılmış torpaq sahəsində "Şəki yaylası" adlı turizm obyekti istifadəyə verilib.

Bütün bunlar Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın digər rayonlarımıza olduğu kimi, Şəkiyə də göstərdiyi diqqət və qayğının təzahürüdür. Prezidentin imzaladığı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarına uyğun olaraq Şəki rayonu da yeni yüksəliş mərhələsindədir. Məhz İlham Əliyevin reallaşdırdığı sosial-iqtisadi layihələr Şəkini Azərbaycanın diqqətçəkən turizm mərkəzlərindən birinə çevirib. Hər zaman verdiyi tapşırıqların, göstərişlərin icrası ilə bağlı şəxsən özü maraqlanan dövlət başçısının dekabrın 2-də Şəkiyə səfəri də bunun bariz təcəssümü oldu.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəkiyə səfərləri çərçivəsində yeni obyektlərin açılışını etdilər və dünya əhəmiyyətli nadir tarixi-memarlıq abidələrində təmir-bərpa işlərinin aparılmasından sonrakı vəziyyətləri ilə tanış oldular. Dövlət başçısı görülən işlərlə maraqlanaraq tapşırıq və tövsiyələrini verdi.

### Turistlərin ən çox üz tutduqları "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu

Turistlərin ən çox üz tutduqları tarixi məkanlardan biri də "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisidir. Bu ərazidə yerləşən muzey və karvansaraylar, XVIII əsrə aid dünya əhəmiyyətli nadir tarixi-memarlıq abidəsi - Şəki Xan Sarayı, həmçinin "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi yerli və xarici turistlərin daha çox marağına səbəb olur. 2020-ci ildən başlayaraq "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində Turizmin İnkişafı Baş Planına uyğun olaraq tarixi binaların qorunması, bərpası və səmərəli istifadəsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilir. Dövlət Turizm Agentliyinin təşəbbüsü ilə 2021-ci ildə 58 tarixi binaya "abidə" statusu verilərək dövlət qeydiyyatına alınıb mühafizəyə götürülmüşdür. Nazirlər Kabinetinin 2021-ci il 2 dekabr tarixli 132 nömrəli qərarına uyğun olaraq bu abidələrdən biri ölkə, 57-si isə yerli əhəmiyyətli abidə kimi təsnifatlandırılmışdır. Dövlət mühafizəsinə götürülmüş abidələrin pasportlaşdırılması prosesinə başlanmışdır.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 2-də Şəkiyə səfərləri çərçivəsində "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olarkən bildirilib ki, qoruq ərazisində Heydər Əliyev Fondunun dəstəyi ilə XVIII əsrə aid "Xan Məscidi" bərpa olunub. Şəki Rəsm Qalereyasının XIX əsrə aid olan binasında bərpa işləri aparılıb. Şəki Tarix Diyarşünaslıq Muzeyinin yerləşdiyi XIX əsrə aid olan binada bərpa işləri aparılır. Qala divarları içərisində yerləşən XIX əsrə aid olan hərbi təyinatlı binada (keçmiş Oftalmologiya xəstəxanasının yerləşdiyi bina) bərpa işləri aparılmış və qoruğun inzibati binası kimi fəaliyyət göstərəcək. İnzibati bina yerli memarlıq üslubunda, dağ-qaya daşından və bişmiş kərpicdən inşa olunub. Binanın memarlıq irsi qorunmaqla onun fasadı, dam örtüyü, döşəməsi, pilləkənləri bərpa olunub, interyeri inzibati bina üçün uyğunlaşdırılıb. Binada kommunikasiya xətləri, istilik sistemi qurulub, inzibati heyətin fəaliyyəti üçün bütün şərait, fond və arxiv otaqları yaradılıb. İnzibati binanın ümumi sahəsi 324 kvadratmetrdir.

Digər hərbi təyinatlı bina (keçmiş Diabet xəstəxanasının yerləşdiyi bina) bərpa olunaraq ictimai məkan kimi istifadə olunacaq. Turizmin inkişafı Baş Planına uyğun olaraq "Şəki Xanlarının evi"ndə xan ailəsinin həyatını və məişətini nümayiş etdirən Etnoqrafiya Muzeyinin yaradılması, XVIII əsrə aid "Aşağı Karvansara"nın yarmarkaların, açıq hava tədbirlərinin təşkili üçün çoxfunksiyalı icma mərkəzi kimi yenidən qurulması planlaşdırılır.

Qoruqdakı şəbəkə emalatxanası da maraqlı məkanlardan biridir. Şəbəkə emalatxanasının yerləşdiyi bina dövlət mühafizəsinə götürülmüş memarlıq abidəsidir. Binaya ümumi sahəsi 127 kvadratmetr olan əsas və sahəsi 30 kvadratmetr olan yardımçı tikililər daxildir. Hazırda bərpa olunan binadan "Şəbəkə evi" emalatxanası kimi istifadə ediləcək. Yeni konsepsiyaya görə "Şəbəkə evi" emalatxanasında sənətkarların fəaliyyət göstərdiyi şəbəkə istehsalı mərkəzi ilə yanaşı, bu sənətin tarixini nümayiş etdirən ekspozisiya zalı, interaktiv turizm təcrübəsi üçün təqdimat otağı, suvenir istehsalı və satışı mərkəzi yaradılacaq. Eyni zamanda burada yeni şəbəkə ustalarının yetişdirilməsi üçün "Şəbəkə Təlim-Tədris Mərkəzi" fəaliyyət göstərəcək.

### Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sənətimizə ən yüksək dəyəri verdilər

Qoruqla tanışlıq zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın sənətkarlarla görüşüb səmimi söhbət etmələri onların həyatında silinməz iz buraxıb.

Dövlət başçısının görüşdüyü sənətkarlardan biri də şəbəkə ustası Hacı Mustafazadə Hüseyin deyir ki, indiyədək Prezidentlə 10-a yaxın görüşləri olub: "Bakıda Novruz şənliyi tədbirlərində, Bakı Konqres Mərkəzində VII Qlobal Bakı Forumu zamanı, IV və V Bakı Beynəlxalq Humanitar Forumlar zamanı, iki dəfə isə Şəkidə görüşmüşük. 2012-ci ildə cənab Prezident Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla birlikdə Şəkiyə səfər edəndə də iki qardaş Prezidentlə görüşmək xoşbəxtliyi mənə nəsib olmuşdu. Bu ayın əvvəlində, dekabrın 2-də "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğu ərazisində aparılan təmir-bərpa işləri ilə tanış olan zaman baş tutan görüş də ömür səhifəmə unudulmaz anlardan biri kimi yazıldı. Bütün görüşlərdə sənətə və sənətkarlara diqqət və qayğının göstərildiyinin şahidi olmuşam. Görüş zamanı biz öz növbəmizdə sənətə gətirdiyimiz yeniliklər və sənətin inkişafı ilə bağlı gördüyümüz işlər haqqında məlumat veririk. Mən hazırladığım dörd hissədən ibarət rəhili cənab Prezidentə hədiyyə etdim. Prezidentimiz sənətdə etdiyimiz yeniliklərə görə ünvanımıza yüksək fikirlər söylədi. Dövlət başçımızın insanlarla səmimi ünsiyyəti qəlblərdə xoş duyğular oyatdı. Onu da deyim ki, cənab Prezidentimizin sərəncamı ilə ötən il mənə "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilib. Bütün bunlara görə hər zaman dövlət başçısına minnətdaram".

Sənətkar deyir ki, ölkə rəhbərinin sənətə birbaşa dəstəyi, onlara verdiyi dəyər çox sevindiricidir. Mən də söz verdim ki, bu sənəti nəsildən-nəslə ötürərək yaşadacam: "Dövlət başçısının sənətə, sənətkara verdiyi dəstək bizi ruhlandırır, stimul verir və gələcəkdə yüksək nəticələr göstərməyimizə böyük bir dəstəkdir. Bu sənəti daim yaşadacam və nəsildən-nəslə ötürərək davam etdirəcəm".

Təkəlduz ustası Vəfa Mustafayeva isə Prezidentlə görüşün xoş təəssüratlarını bizimlə belə bölüşür: "Cənab Prezidentimizin və Mehriban xanımın Şəkiyə gəlişi bizləri sevindirdi. Sənətkarlarla səmimi görüşü bizə göstərilən mənəvi dəstəyin göstəricisidir. Həmin gün bacım Aysellə mənim bu sənətdə 20 illik fəaliyyətimizin yaddaqalan ən xoş günlərindən biri oldu. Cənab Prezidentə və Mehriban xanıma hədiyyə olaraq hazırladığımız qələbəyə aid "ŞUŞA" əsərini təqdim etdik. Mehriban xanım vurğuladı ki, hədiyyəni Şuşaya aparıb sərgidə nümayiş etdirəcəyik, bundan xoş nə ola bilər? Cənab Prezidentin və Mehriban xanımın xeyir-duasını almağımız bizim üçün çox xoş oldu və biz çalışacağıq bu mənəvi dəstəyi və etimadı doğruldaq, "keçə" sənətini daha da inkişaf etdirək".

Prezident İlham Əliyevin Şəkiyə səfəri çərçivəsində Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun Oğuz-Şəki hissəsinin yenidənqurmadan sonra açılış mərasimi keçirilib, həmçinin dövlət başçısı Şəki Şəhər İcra Hakimiyyətinin yeni inzibati binasında və Orta Zəyzid kəndində quru meyvə istehsalı müəssisəsində yaradılan şəraitlə tanış olub.

İcra hakimiyyətinin yeni binası zirzəmi qatından və 4 mərtəbədən ibarətdir. Ümumi sahəsi 6080 kvadratmetr olan binada 56 yerlik konfrans zalı, 164 nəfərlik akt zalı və 70 nəfərlik yeməkxana yaradılıb. Həmçinin yeni binada hər cür şəraiti olan 90 iş otağı, kitabxana, muzey, sərgi və toplantı otaqları var. Zirzəmi qatında avtodayanacaq və texniki xidmət sahəsi fəaliyyət göstərir. Binanın həyətyanı sahəsində abadlıq və yaşıllaşdırma işləri görülüb.

### Şəki tütün istehsalı üzrə respublikada birinci yerdə qərarlaşıb

Respublikamızın ən iri kənd təsərrüfatı rayonlarından biri olan Şəkinin ərazisi 243 min kvadratkilometr, əhalisi 190,1 min nəfərdir. Şəki rayonu 1 şəhər, 2 qəsəbə (Turan və Çələbixan) və 68 kənd yaşayış məntəqəsini əhatə edir.

Şəhər əhalisinin əsas məşğuliyyəti sənətkarlıq, turizm və ticarət, kənd əhalisinin isə əsas məşğuliyyəti kənd təsərrüfatıdır. Rayonda aqroturizm, ekoturizm, kənd turizmi və digər çoxşaxəli aktiv turizm sahələrinin potensialı mövcuddur, bu potensialdan səmərəli istifadə edilməklə yeni perspektiv layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Şəkidə sosial-iqtisadi inkişaf kənd təsərrüfatı və turizm olmaqla 2 prioritet istiqamətdə aparılır. Son on ildə Şəki rayonu üzrə ümumi məhsul buraxılışının həcmi 1,1 dəfə, sənaye məhsulunun həcmi 1,8 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi isə 1,1 dəfə artıb.

Burada taxılçılıq, tütünçülük və baramaçılıq da geniş inkişaf etmişdir. Bağçılıq və heyvandarlığın inkişafı istiqamətində mühüm işlər aparılır. Taxılçılıq Şəkidə ən inkişaf etmiş sahələrdən biridir. Hər il rayonda 66-68 min hektar sahədə taxıl əkilir və orta hesabla ildə 200 min ton taxıl istehsal olunur ki, bunun da 120-130 min tonunu ərzaqlıq buğda təşkil edir. İstehsal olunan taxıl rayon əhalisinin taxıla olan tələbatından iki 2 dəfə çoxdur. Artıq qalan taxıl isə respublikamızın digər rayonlarına satılır.

Rayonun iqtisadi inkişafına təsir göstərən digər bir sahə tütünçülükdür. Şəki tütün istehsalı üzrə respublikada birinci yerdə qərarlaşıb. 2021-ci ildə 1241 hektar ərazidə tütün əkilmiş, bu ərazilərdən 4150 ton tütün tədarük edilmişdir. 2022-ci ildə tütün əkini sahələri 1250 hektara çatdırılmışdır. Yığılan məhsulun qurudulması üçün rayon ərazisində ümumilikdə 246 müasir standartlara uyğun tütünqurutma kameraları quraşdırılmışdır.

Şəki şəhərində fəaliyyət göstərən "Azəripək" MMC-də il ərzində 1000 tona yaxın barama qəbul olunaraq istehsal prosesinə cəlb edilir. Müəssisənin Şəki, Ağsu, Zərdab, Bərdə, Füzuli, Zaqatala rayonlarında barama qəbulu və qurutma məntəqələri yaradılmışdır. Şəkidə tarixən ipəkçilik ənənələri mövcuddur.

Prezident İlham Əliyevin göstərişi ilə bu sahəyə diqqət və qayğı daha da artırılmışdır. Həmçinin rayonda heyvandarlığın, arıçılığın və bağçılığın inkişaf etdirilməsi istiqamətində işlər aparılır. Ümumilikdə 307 hektar ərazidə üzüm bağları salınmışdır ki, bu sahədən ildə 4281 tondan artıq üzüm istehsal olunur.

2022-ci ilin sonuna olan statistik məlumata görə, rayonda 61266 baş iribuynuzlu, 177253 baş xırdabuynuzlu heyvan bəslənilir. Eyni zamanda rayonda 12853 arı ailəsi vardır.

"Aqroinkişaf-2017" MMC tərəfindən 500 hektar ərazidə qoz və badam bağı, "Green Factory" MMC tərəfindən 100 hektar sahədə meyvə bağı, "Monte-Ferro" MMC tərəfindən 2700 hektar fındıq bağı salınmışdır. Ümumilikdə rayonda fiziki və hüquqi şəxslərin istifadəsində 7395 hektar meyvə bağları mövcuddur. Onlardan 3925 hektarı bar verən bağlardır. 2022-ci ildə rayonda mövcud olan bar verən meyvə bağlarından 27850 ton meyvə istehsal olunmuşdur.

### Türk dünyasının mədəniyyət paytaxtı, festivallar şəhəri

Şəki Azərbaycanda həm də festivallar şəhəri kimi tanınır. Hər il bu şəhərdə keçirilən "İpək Yolu" Beynəlxaq Musiqi, şirniyyat və teatr festivalları şəhərin qeyri-maddi irsinin qorunub saxlanmasına imkan yaratmış, eyni zamanda turizm potensialının genişləndirilməsi və beynəlxalq səviyyədə tanıdılmasında mühüm rol oynamışdır.

2019-cu il iyulun 7-də Bakıda keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. 2021-ci il iyulun 7-də Şəkidə keçirilən təntənəli mərasimdə "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi"nin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi ilə bağlı təşkilatın baş direktoru tərəfindən imzalanan sertifikat şəhər rəhbərliyinə təqdim olunub. Həmin tədbirdə hər il iyulun 7-nin Şəkidə "Şəhər günü" kimi qeyd olunması qərara alınıb. Bu il iyulun 7-də Şəkidə "Şəhər günü" möhtəşəm bayram tədbirləri ilə qeyd olunub.

Qeyd edək ki, Şəki şəhəri 2010-cu ildə "Azərbaycanın Sənətkarlıq Paytaxtı" seçilmiş, 2012-ci ildə türk dünyasının qeyri-maddi mədəni irs paytaxtı, 2016-cı il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan olunmuşdu.

Bir sözlə, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda nəzərdə tutulan layihələrin icrası Şəkinin simasının daha da gözəlləşəcəyini, turizm mərkəzi kimi imkanlarının genişlənəcəyini söyləmək olar. Bütün bunlar onu deməyə əsas verir ki, Şəki öz tarixi-mədəni irsi, abidələri, memarlıq inciləri ilə beynəlxalq turizm mərkəzinə çevriləcək.

Bütün dövrlərdə Şəkinin inkişaf və tərəqqisini diqqət mərkəzində saxlayan Prezident İlham Əliyevin Şəkiyə səfəri çərçivəsində verdiyi tapşırıq və göstərişlərinin vaxtında və uğurlu icrası Azərbaycanın bu qədim mədəniyyət mərkəzinə turizm axınını daha da sürətləndirəcək. Şəki hər zaman yerli və xarici turistlərin sevə-sevə üz tutacaqları məkan kimi nüfuzunu getdikcə daha da artıracaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## AŞ PA-nın komitə iclasında erməni deputatın təxribatının qarşısı alınıb

Parisdə AŞ PA-nın Siyasi məsələlər və demokratiya komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və üzvü Asim Mollazadə iştirak ediblər.

Komitə iclasının gündəliyində bir sıra məsələlər müzakirə edilərək qərarlar qəbul olunub.

İclas zamanı Ermənistan nümayəndə heyətinin rəhbəri R.Rubenyan adəti üzrə böhtan xarakterli çıxışını unutmayıb. Erməni deputatın son günlər Şuşa-Laçın yolunda baş verən hadisələr haqqında reallığı əks etdirməyən, böhtan xarakterli çıxışının qarşısı alınıb. Azərbaycanlı deputatlar - Səməd Seyidov və Asim Mollazadə çıxış edərək beynəlxalq səviyyədə tanınan Azərbaycan ərazisində Ermənistan tərəfinin təxribatlar törətməkdə davam etdiyini bildiriblər. Azərbaycanlı deputatlar vurğulayıblar ki, Ermənistan Laçın-Xankəndi yolundan hərbi məqsədlər, minaların və talan olunan təbii sərvətlərin daşınması məqsədilə istifadə edir və bunun qarşısının alınması vacibdir. Həmçinin Azərbaycan ərazilərində gizli ekoloji qazıntılar aparılır və ətraf mühitin çirkləndirilməsi davam edir. Ermənistanın Azərbaycan ərazilərində apardığı qeyri-qanuni iqtisadi fəaliyyət beynəlxalq konvensiyaların tələblərini kobud şəkildə pozur. Ermənistan qarşılıqlı razılaşmaya riayət etmir və monitorinq aparılmasına qəsdən mane olur.

Azərbaycanlı deputatlar Rusiya sülhməramlılarının Azərbaycanın qeyri-hökumət təşkilatlarının üzvlərinə, könüllülərə və jurnalistlərə qarşı kobud rəftar etdiyini vurğulayıblar.

## Azərbaycan və İordaniyanın media sahəsində əlaqələri gücləndirilir

Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktoru Əhməd İsmayılov Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) birgə həyata keçirdikləri AİDA proqramı çərçivəsində Azərbaycanda səfərdə olan Yaxın Şərqdə Sülh Mədəniyyəti Bölməsinin direktoru və Əmman Yerli İdarəetmə Nazirliyində İordaniya Baş nazirinin müavininin media üzrə müşaviri Mohammad Saleh Abdullah Al-Malkavi ilə görüşüb.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Əhməd İsmayılov qonaqlara Azərbaycanda media sahəsində həyata keçirilən islahatların gedişatı, MEDİA-nın fəaliyyət istiqamətləri, sahəvi jurnalistikanın inkişafı ilə bağlı həyata keçirilən təlimlər barədə ətraflı məlumat verib. O, media sahəsində qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və təkmilləşdirilməsi baxımından görüşün əhəmiyyətini qeyd edib. Medianın inkişafı istiqamətində aparılan fəaliyyətin müxtəlif tərəflərlə əlaqələndirilməsi və təcrübə mübadiləsinin aparılmasının vacibliyini vurğulayıb.

Görüşdə Mohammad Saleh Abdullah Əl-Malkavi media sahəsində əməkdaşlıq formatlarının inkişaf etdirilməsinin və əlaqələrin gücləndirilməsi üçün birgə layihələrin icrasının əhəmiyyətini qeyd edib.

Söhbət zamanı media sahəsində beynəlxalq əlaqələrin gücləndirilməsi, səmərəli əməkdaşlıq və inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## ÜDM istehsalı 4,8 faiz artıb

Cari ilin yanvar-noyabr aylarında ölkədə 121,4 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,8 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur.




Dövlət Statistika Komitəsinin məlumatına görə, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,4 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 9,2 faiz artmışdır.

ÜDM istehsalının 52,7 faizi sənaye, 8,0 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 5,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 5,0 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,8 faizi tikinti, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,3 faizi informasiya və rabitə sahələrinin, 14,3 faizi digər sahələrin payına düşmüş, məhsula və idxala xalis vergilər ÜDM-nin 7,5 faizini təşkil etmişdir.

Əhalinin hər nəfərinə düşən ÜDM 12064,2 manata bərabər olmuşdur.

## Əsas kapitala 13 milyard manatdan çox vəsait yönəldilib

İlin əvvəlindən ötən 11 ay ərzində ölkə üzrə əsas kapitala 13 milyard 53,6 milyon manat məbləğində, yaxud 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 8,2 faiz çox vəsait yönəldilmişdir.




Neft-qaz sektoruna yatırılmış investisiyaların həcmi 14,7 faiz azalmış, qeyri neft-qaz sektoruna yönəldilən vəsaitin həcmi isə 24,5 faiz artmışdır. İstifadə olunmuş vəsaitin 7161,1 milyon manatı və ya 54,9 faizi məhsul istehsalı sahələrinə, 5069,1 milyon manatı (38,8 faizi) xidmət sahələrinə, 823,4 milyon manatı (6,3 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitlərin 10081,0 milyon manatını və ya 77,2 faizini daxili vəsaitlər təşkil etmişdir. Əsas kapitala yönəldilmiş vəsaitlərin 9596,1 milyon manatı və ya 73,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Əsas kapitala yönəldilmiş vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 48,4, büdcə vəsaitləri 37,3, əhalinin şəxsi vəsaitləri 7,8, bank kreditləri 2,7, sair vəsaitlər isə 3,8 faiz təşkil etmişdir.

# Azərbaycan iqtisadiyyatının əsas gəlir mənbəyi

## AÇG-dən hasilat ahəngdar davam edir

Başa çatmaqda olan 2022-ci il də Azərbaycanın neft-qaz sənayesi üçün önəmli hadisələrlə, mühüm nailiyyətlərlə əlamətdar oldu. O cümlədən "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasından ilkin neftin əldə olunmasının 25 illiyi qeyd edildi. "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqları ahəngdar işlədi. Yeni platformanın tikintisi qrafikə uyğun irəlilədi.



Məlum olduğu kimi, 1994-cü il sentyabrın 20-də Azərbaycan hökuməti ilə 6 ölkəni təmsil edən bir qrup beynəlxalq neft şirkəti arasında imzalanan və sonradan "Əsrin müqaviləsi" adlandırılan saziş ötən dövr ərzində həqiqətən də möhtəşəm bir tarix yazdı. Bu, Azərbaycanın ilk müstəqil enerji müqaviləsi idi və ölkəmiz həmin müqavilənin sayəsində yenidən dünyanın əsas enerji təchizatçılarından birinə çevriləcəyinə inanaraq onu imzalamışdı. Amma müqavilə gözlənildiyindən də möhtəşəm oldu. O, ölkənin tarixində bir dönüş nöqtəsinə çevrildi.

Azərbaycan xalqı üçün inanılmaz faydalar, böyükhəcmli gəlirlər, on minlərlə iş yeri, dünya səviyyəli infrastruktur və bacarıqlar təmin etməklə yanaşı, müasir texnologiya və sağlamlıq, təhlükəsizlik və ətraf mühit üzrə qabaqcıl sənaye standartlarına əsaslanan bu müqavilə ölkənin misilsiz dirçəlişi və iqtisadi inkişafının təməlini qoydu. O, həmçinin Xəzəri dünyanın ən mühüm enerji istehsalı mərkəzlərindən və texnologiya baxımından ən qabaqcıl regionlarından birinə çevirdi.

Yataqda hasilat 1997-ci il noyabrın 7-də "Çıraq" platformasından başlandı. Bu tarixi hadisə noyabrın 12-də "Çıraq" platformasında Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə rəsmi surətdə qeyd olundu. Ulu Öndər həmin hadisəni öz uzaqgörən siyasətinə əsaslanan strategiyanı reallığa çevirmiş bir nailiyyət kimi qiymətləndirdi. Həmin vaxtdan bəri, yəni 25 ildən çoxdur "Çıraq" neft və səmt qazı verir, yüksəktexnologiyalı yeddi müasir platforma ilə birlikdə AÇG-dən hasilatın təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirilməsində böyük rol oynamağa davam edir.

Bunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) verdiyi məlumat da təsdiqləyir. Belə ki, ARDNF "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində 2022-ci ilin 11 ayında 9 milyard 161 milyon dollar gəlir əldə edildiyini bildirir.

AÇG-nin operatoru olan bp şirkətinin məlumatına görə, layihə çərçivəsində hasilat ahəngdar və təhlükəsiz şəkildə davam edir. İlin ilk üç rübü üçün AÇG-dən ümumi hasilat təxminən 114 milyon barel, yəni 15 milyon ton olub. Gündə orta hesabla 418 min barel neft çıxarılıb, o cümlədən "Çıraq"dan 25 min, "Mərkəzi Azəri"dən 105 min, "Qərbi Azəri"dən 108 min, "Şərqi Azəri"dən 63 min , "Dərinsulu Günəşli"dən 77 min və "Qərbi Çıraq"dan 40 min barel neft alınıb.

İlin 9 ayında AÇG-dən Azərbaycan dövlətinə əsasən Səngəçal terminalından, həmçinin "Neft Daşları"ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə isə 2,2 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Xatırladaq ki, AÇG-də iştirak payları belədir: bp (30,37 faiz), SOCAR (25 faiz), MOL (9,57 faiz), İNPEKS (9,31 faiz), "Ekvinor" (7,27 faiz), "EksonMobil" (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), ONGCVideş (2,31 faiz).

Hazırda AÇG doqquzuncu platformasının yolunu gözləyir. Üçüncü rüb ərzində "Azəri Mərkəzi Şərqi" (ACE) platformasının üst modullarının və qazma avadanlıqlarının istehsal-quraşdırma işləri Bibiheybətdəki tikinti sahəsində davam edib. Qazma modullarının üst tikililər blokuna inteqrasiyası işləri irəliləyib, modullu qazmaya dəstək modulu və qazma avadanlığı dəsti istismar sınaqlarına təhvil verilib, qazma qurğusunun sürüşdürülməsi əməliyyatları üzrə istismar sınaqları başlanıb.

Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda isə dayaq blokunun tikintisi tamamlanıb. Qurğu Xəzər dənizində AÇG müqavilə sahəsindəki daimi yerinə yola salınmaq üçün barjaya yüklənməyə hazırdır. Dünən BDÖZ sahəsində Prezident İlham Əliyev dayaq blokunun dənizə yola salınması prosesinə start verib.

"BOS Shelf" şirkətinin tikdiyi dayaq bloku yerli infrastrukturdan və obyektlərdən istifadə edilməklə tam şəkildə ölkə daxilində quraşdırılıb. Subpodratçılar və ixtisaslaşmış təchizatçılar da daxil olmaqla tikinti işlərinə 2000 nəfərdən çox insan cəlb edilib və onların əksəriyyəti Azərbaycan vətəndaşıdır.

Layihənin dəniz işlərində gəmilərin də üzərinə böyük məsuliyyət düşür. Belə ki, STB-1 daşıma barjasında lazım olan modifikasiya işləri aparılıb. "Xankəndi" sualtı tikinti gəmisi dənizin dibində zəruri konstruksiyaları quraşdırıb. Bundan sonra isə dalğıc gəmisi neft sistemi sarğaclarının bütün metroloji işlərini tamamlayıb. "İsrafil Hüseynov" borudüzən gəmisi 16 düymlük sualtı suvurma boru xəttinin inşasını bitirib.

Səngəçal terminalında ACE əməliyyatlarının qurudan idarə olunması üçün aparılan tikinti işləri və bununla bağlı istismar sınaqları sona yetib.

ACE layihəsi üzrə işlərin ümumilikdə 80 faizi tamamlanıb. Gələn il işlərin yekunlaşması və hasilata başlamaq üçün ilk quyunun qazılması gözlənilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## İqtisadi sektorda orta aylıq əməkhaqqı 830 manatdır

Bu il noyabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 27,2 min nəfər və ya 1,6 faiz artaraq 1 milyon 729,3 min nəfər olmuşdur.

Dövlət Statistika Komitəsi bildirir ki, onlardan 900,4 min nəfəri iqtisadiyyatın dövlət, 828,9 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 19,2 faizi təhsil, 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 12,8 faizi sənaye, 8,2 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,3 faizi tikinti, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 3,5 faizi peşə, elmi və texniki fəaliyyət, 2,0 faizi maliyyə və sığorta fəaliyyəti, 14,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

Cari ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 14,5 faiz artaraq 827,9 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.

# Yeni əkin sahələri, 360 manat subsidiya, məhsuldar sortlar

## Bütün bunlar Azərbaycan düyüsünü xarici bazara da çıxara bilər

**Dəfələrlə qeyd olunduğu kimi, ötən əsrin 90-cı illərində məlum səbəblər üzündən bütün sahələrdə yaranan durğunluq kənd təsərrüfatına da mənfi təsir göstərmişdir. Məhsuldarlıq kəskin aşağı düşmüş, bir çox ənənəvi bitkilərin becərilməsi tamamilə sıradan çıxmışdır.**



Həmin sahələrdən biri də çəltikçilik idi. Bu sahənin də unudulması səbəbindən düyüyə olan tələbat idxal hesabına ödənilirdi. Hətta bir çox hallarda xarici məhsulların keyfiyyəti alıcıları qane etməsə də, onu alırdılar, çünki başqası yox idi. Üstəlik, bu məhsulun idxalı ölkədən valyuta axınına səbəb olurdu.

Prezident İlham Əliyevin ənənəvi kənd təsərrüfatı sahələrinin dirçəldilməsi üçün verdiyi tövsiyələr, atdığı addımlar, o cümlədən imzaladığı sərəncamlar çəltikçiliyə də marağı artırdı. Bu gün Azərbaycanda düyü istehsalı ildən-ilə artır, özü də həmçinin məhsuldarlıq hesabına. Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, cari il 9 rayonda çəltik əkini aparılıb. Əkinlərin ümumi sahəsi 3194,25 hektar olub. Ən çox Lənkəran, Ağdaş və Ucar rayonlarında çəltik əkilib. Cari mövsüm sahələrdən 11558 ton məhsul yığılıb, orta məhsuldarlıq 36,2 sentnerə çatıb. İstehsal 858 ton, məhsuldarlıq 1,4 sentner artıb.

Son illər ölkədə çəltikçiliyin inkişafına böyük önəm verilməklə yanaşı, bu sahəyə dövlət dəstəyi də gücləndirilib, əkin sahələrinin və məhsul istehsalının artırılması ilə bağlı zəruri tədbirlər həyata keçirilib. Aqrar Subsidiya Şurasının qərarına əsasən, çəltik becərilən sahənin hər hektarına görə fermerlərə 360 manat əkin subsidiyası verilir.

Bu il ilk dəfə Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı sortlarının yaradılması, introduksiyası, yerli şəraitə adaptasiyası və toxumçuluğunun təşkili istiqamətində tədqiqat işlərinə başlanılıb. Həmin sahədə dönüş yaratmaq məqsədilə institutda Çəltik bitkisinin seleksiyası və becərmə texnologiyası şöbəsi yaradılıb, eləcə də çəltiyin seleksiyası və toxumçuluğuna dair tədqiqat işlərinin aparılması üçün Lənkəran rayonu ərazisində lazımi infrastruktur qurulub.

Xatırladaq ki, 2020-ci ildən institutun 2020-2024-cü illər üçün çəltiyin seleksiyasına dair təsdiq olunmuş mövzu planına əsasən, Lənkəran bölgəsində seleksiya tədqiqatları həyata keçirilir. Lənkəranda hər il 1-1,5 hektar sahədə toxumluq məqsədilə "Avanqard" sortunun superelit reproduksiyalı əkini aparılır və 2,5-3 ton elit toxumu istehsal edilərək bölgə fermerlərinə verilir.

Göründüyü kimi, ölkədə digər ənənəvi bitkilərlə yanaşı, çəltikçiliyin də inkişafı üçün münbit şərait yaradılır. Və bütün bunlar çəltikçiliklə məşğul olan fermerlərə istehsal etdikləri məhsula görə subsidiyaların verilməsi, onların müasir maşın və mexanizmlərlə təmin olunması, eləcə də yerli şəraitə uyğun daha məhsuldar sortların yaradılması və s. sözsüz ki, qısa vaxtda səmərəsini verəcək, həm keyfiyyəti ilə seçilən yerli düyünün daxili bazarda mövqeyini möhkəmləndirəcək, həm də ixracını təmin edəcək.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Azərbaycan neftinin qiyməti 81 dollara yaxınlaşır




AZƏRTAC xəbər verir ki, Azərbaycan neftinin qiyməti bahalaşıb.

"Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,31 dollar artaraq 80,80 dollar olub.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti martın 9-da (135,99) qeydə alınmışdı.

## 838 min şəxs sosial müavinət və təqaüdlə təmin edilib

Sosial müavinətlər üzrə 36 faiz çox olmaqla 734 milyon manat, Prezident təqaüdləri üzrə 29 faiz çox olmaqla 492 milyon manat ödənilib.

Yanvar-noyabr aylarında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu tərəfindən 838 min şəxsə sosial müavinət və təqaüd ödənilib. Onlardan 470 min nəfəri sosial müavinətlə, 368 min nəfəri Prezidentin aylıq təqaüdü ilə təmin olunub.

Əhaliyə sosial müavinətlər üzrə 36 faiz çox olmaqla 734 milyon, Prezident təqaüdləri üzrə 29 faiz çox olmaqla 492 milyon manat ödənilib.

Sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 418 min, o cümlədən bu ilin 11 ayında 197 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

# Qeyri neft-qaz məhsulları istehsalında 5 faiz artım qeydə alınıb

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ilin yanvar-noyabr aylarında ölkədə 80 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir.

Neft-qaz sektorunda məhsul istehsalı 2,2 faiz azalmış, qeyri neft-qaz sektorunda isə 5,0 faiz artmışdır.

Sənaye məhsulunun 76,1 faizi mədənçıxarma, 20,1 faizi emal, 3,2 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Mədənçıxarma sektorunda əmtəəlik neft hasilatı 5,5 faiz azalmış, əmtəəlik qaz hasilatı isə 8,0 faiz artmışdır.

Emal sektorunda sair nəqliyyat vasitələrinin istehsalı 3,4 dəfə, avtomobil, qoşqu və yarımqoşquların istehsalı 73,9 faiz, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı 64,3 faiz, maşın və avadanlıqların istehsalı 46,9 faiz, geyim istehsalı 39,0 faiz, elektrik avadanlıqlarının istehsalı 37,1 faiz, mebel istehsalı 33,4 faiz, poliqrafiya məhsullarının istehsalı 23,2 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 19,6 faiz, kağız və karton istehsalı 17,4 faiz, tikinti materiallarının istehsalı 14,5 faiz, hazır metal məmulatlarının istehsalı 13,0 faiz, qida məhsullarının istehsalı 8,0 faiz, əczaçılıq məhsullarının istehsalı 7,7 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı 6,0 faiz, kimya sənayesi məhsullarının istehsalı 2,7 faiz, metallurgiya sənayesi məhsullarının istehsalı 2,1 faiz artmış, kompüter, elektron və optik məhsulların istehsalı 1,2 faiz, içkilərin istehsalı 4,7 faiz, tütün məmulatlarının istehsalı 4,9 faiz, neft məhsullarının istehsalı 5,3 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri işləri 23,3 faiz, toxuculuq sənayesi məhsullarının istehsalı 28,8 faiz azalmışdır.



Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 3,2 faiz, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 4,7 faiz artmışdır.

# "İTi Zəka"lılar mükafatlandırıldı

Dekabrın 13-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birgə təşkil etdiyi uşaqlar arasında "İTi Zəka" hakatonunun qaliblərinin mükafatlandırma mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, Azərbaycan hökuməti və Prezident İlham Əliyev uşaq hüquqlarının qorunmasına, onların sağlam yaşamasına, eyni zamanda bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinə böyük diqqət və qayğı göstərir.

Qeyd edilib ki, Azərbaycan Ordusu 30 ilə yaxın davam etmiş münaqişəyə 2020-ci ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbə ilə son qoyub. Belə möhtəşəm qələbə qazanan bir ölkədə uşaqlarla bağlı siyasi və hüquqi qərarların qəbulunda və həyata keçirilməsində onların fikirlərinin nəzərə alınması üçün də mühüm addımlar atılır.

Digər çıxış edənlər bu cür tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar. Diqqətə çatdırılıb ki, ölkənin gələcəyi insan kapitalına bağlıdır. Həmçinin vurğulanıb ki, gənc nəslin nümayəndələri Azərbaycanı gələcəkdə gözləyən çağırışlara hazır olmalıdırlar. Bu günün yarış iştirakçıları gələcəyin elm adamları, startapçılarıdırlar.

Sonra "İTi Zəka" hakatonu barədə videoçarx nümayiş olunub.

Müsabiqənin yekununda mükafatlandırma mərasimi keçirilib. İştirakçılar yarış zamanı uşaq inkişafı, təhsil və uşaqlar, zorakılıqdan müdafiə, uşaqların informasiya təhlükəsizliyi, uşaqların asudə vaxtı mövzularında tapşırıqları icra ediblər. Hazırlanmış layihələr münsiflər tərəfindən qiymətləndirilib və üç qalib komanda müəyyən edilib. Belə ki, müsabiqədə birinci yeri "NN Edu" komandası, ikinci yeri Heydər Əliyev Liseyinin komandası, üçüncü yeri isə "İntellekt" komandası tutublar.

Qeyd edək ki, müsabiqənin məqsədi uşaqlara öz hüquqlarının təmin edilməsində təşəbbüs irəli sürmək, innovativ həll yolları ilə bağlı təkliflər irəli sürmək üçün şərait yaratmaq, onlarda kreativ düşüncəni formalaşdırmaq, eyni zamanda komandada işləmək, rəqəmsal bacarıqlarını inkişaf etdirməkdir olub.

# 30 il təhsilin xidmətində

## "Təhsil" nəşriyyatı yarandığı gündən kitab xəzinəsinə dəyərli töhfələr verir



Keçmiş SSRİ-nin süqutu, əldə etdiyimiz müstəqillik ölkəmizdə demokratikləşməyə, iqtisadi yüksəlişə və sosial inkişafa şərait yaratdı. Yaranmış bu yeni, əlverişli şərait kitab nəşrinə də öz təsirini göstərdi.

Milli müstəqillik və özünüdərkin müstəsna əhəmiyyət kəsb etdiyi tarixi məqamda kitab nəşri, təbliği və yayılması daha böyük vüsət aldı. Müstəqilliyini bərpa etmiş Azərbaycan ilk dövrdə sovet sistemi və nomenklaturasının formalaşdırdığı tədris ədəbiyyatı nəşriyyat sahəsində yeni çağırışlarla nəinki ayaqlaşa bilmirdi, hətta bir çox sahələrdə, xüsusilə humanitar sahədə köklü dəyişikliklər tələb edirdi.

70 il ərzində saxtalaşdırılmış və ya ümumiyyətlə, işıq üzü görməmiş ölkə həqiqətləri həqiqət açlığı yaşayan cəmiyyətə, topluma təqdim edilməli idi. Nəsillərarası biliklərin transformasiyasında effektiv, sistemli keçid yaradılması zərurəti yaranmışdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra bir çox sahədə olduğu kimi, təhsil sahəsində də islahatlara başlanılmışdı. Çünki bu dövrdə orta məktəblərdə istifadə olunan dərsliklər həm mənəvi, həm də tematika baxımından yararsız hala düşmüşdü. Əlifbanın dəyişdirilməsi və milli təhsil quruculuğu yeni dərsliklərin tərtib olunub yeni qrafika ilə nəşr edilməsi zərurətini gündəmə gətirmişdi.

Bununla bağlı Təhsil Nazirliyi tərəfindən "Təhsil" nəşriyyatı (əvvəl "Öyrətmən" adlanırdı) təsis olundu. Bu o vaxta təsadüf edirdi ki, ölkənin ən nüfuzlu nəşriyyatları artıq öz işlərini davam etdirə bilmir, süquta uğrayır və tədricən sıradan çıxırdı. Məlumdur ki, kitabın istehsalı böyük zəhmət tələb edən mürəkkəb prosesdir.

Azərbaycanın tanınmış naşiri, publisist və Əməkdar mədəniyyət işçisi Bəhruz Axundov kitabı sevən, ona dəyər verən şəxsiyyətlərdən biri olmuşdur. Məhz bu fitri qabiliyyətinə görə o, 1992-ci ildə yaranan "Öyrətmən" nəşriyyatına direktor təyin edilir. Bu, müstəqillik dövründün dövlət qərarı ilə təsdiqlənən ilk nəşriyyat idi. Bəhruz Axundov çox böyük şövqlə, tükənməz enerji ilə işə başlayır. Hər şeydən əvvəl təcrübəli nəşriyyat işçilərini ətrafına toplayır, redaksiyalar yaradır: "Humanitar ədəbiyyatlar redaksiyası" (müdir: Zeynalova Məsudə Əvəz qızı); "Dəqiq və texniki ədəbiyyatlar redaksiyası"; "Xarici dil və tərcümə redaksiyası" (müdir: Əzizova Elşadə Fərman qızı); "İctimai ədəbiyyat redaksiyası" (müdir: Əliyev Nihad Məmmədbağır oğlu); "İctimai fənlər ədəbiyyatı redaksiyası" (müdir: Cərullayev Şərbət Qardaşalı oğlu); "Sifariş ədəbiyyatı redaksiyası".

Nəşriyyat işinə Azərbaycan Respublikası Xalq Təhsil Nazirliyinin Bakı Dövlət Universitetinin yaxınlığında Şəhriyar küçəsi, 6-da yerləşən mətbəəsinin iki kiçik otağından başlayır. Bu kiçik otaqlarda cəmi 7-8 nəfər redaktor çalışırdı.

Nəşriyyatın redaktoru Elşadə Əzizova Bəhruz müəllimlə bağlı xatirələrində yazır: "Çox həyəcanlı günlər idi. Bəhruz müəllim də bizimlə bərabər, gününü, deməkolar ki, o kiçik otaqlarda keçirirdi. Gərgin iş məqamında bir də görürdün qapı açılırdı və o, içəri daxil olurdu. Mən nəşriyyatda xarici dillər və tərcümə redaksiyasında çıxan dərsliklərə cavabdeh idim, Məsudə xanım Əvəzqızı - ədəbiyyat dərsliklərinə və s. Gecə saat 12-dən tez oradan çıxmırdıq. Qarşımızda mühüm bir vəzifə dururdu - milli dərsliklərimizin nəşr edilməsi".

Müstəqillik dövründə qarşıda böyük problem vardı: nəşriyyat və poliqrafiya müəssisələrinin, kitab ticarəti müəssisələrinin özəlləşdirilməsi və latın qrafikasının bütün dövlət idarə, müəssisə və təşkilatlarında, kitab nəşrində tətbiqi kitab və kitabçılıq işində böyükmiqyaslı işlərin həyata keçirilməsini tələb edirdi.

Bu, xüsusilə XX əsrin 90-cı illərinin axırlarına qədər böhranlı vəziyyət kimi özünü göstərir. Amma Ümummilli Lider Heydər Əliyevin 1998-ci il avqust ayının 6-da "Mətbuata senzura nəzarətinin ləğvi" haqqında verdiyi sərəncam, "Nəşriyyat işi" haqqında qanunun (30 may 2000-ci il) imzalanması, yenə də Prezidentin sərəncamı ilə Azərbaycan Respublikasının İnformasiya Nazirliyi sistemindəki poliqrafiya müəssisələrinin, nəşriyyatların özəlləşdirilməsi haqqındakı sərəncamları (mart 2000-ci il), Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il yanvar ayının 12-də "Kütləvi nəşrlərin latın qrafikası ilə nəşri" haqqında sərəncamı respublikada nəşriyyat işinin, o cümlədən nəşriyyatların fəaliyyətlərinin genişləndirilməsinə güclü təsir göstərdi.

Beləliklə, Bəhruz Axundov 2007-ci ildən etibarən özəlləşmədən sonra "Öyrətmən" nəşriyyatını "Təhsil" adı ilə yenidən qurur. Nəşriyyat Bakı şəhəri Nərimanov rayonu, F.Xoyski küçəsi, 149 ünvanında fəaliyyətə başlayır və Bəhruz Axundov direktor olaraq təkcə nəşriyyatın kollektivinə qarşı yox, özünə qarşı da çox tələbkar şəxs kimi öhdəsinə götürdüyü hər bir sifarişi vaxtında və keyfiyyətli nəşr etmək üçün fədakarcasına çalışır.

Müstəqil Azərbaycan Respublikasının yenidən tərtib olunan dərslikləri ilk dəfə "Öyrətmən" nəşriyyatında işıq üzü görür. Təranə Tofiqqızı xatirələrində yazır: "Azərbaycan tarixi" dərsliyimiz ilk dəfə çapdan çıxmışdı. Bəhruz müəllim kitabı ən qiymətli xəzinə kimi əlində tutub nəvazişlə vərəqləyərək "Axır ki, balalarımız öz xalqının tarixi haqqında əsl həqiqətləri öyrənəcəklər" dedi və onun ilk dəfə kövrəldiyinin şahidi oldum".

Yazıçı Mustafa Çəmənli "Unudulmaz naşir" xatirə-məqaləsində yazır: "Bəhruz Axundov nəşriyyata, naşirliyə sadəcə biznes gözü ilə baxmırdı, o, bu sahənin vurğunu, fanatı idi. Çünki onda nəşriyyat işinə, kitab çapına şüurlu münasibət vardı. O, "Mən niyə naşir olmaq istəyirəm?" sualına tam, dolğun, səmimi cavab verə biləcək tək-tək naşirlərdən biri idi. O, görəcəyi hər bir işə peşəkarcasına yanaşır və peşəkarlarla işləməyi sevirdi. Çünki bilirdi ki, yüksək nailiyyətlərə qovuşmaq işini bilən peşəkarlarla nail olmaq mümkündür".

Məhz bu meyarlardan yanaşaraq ətrafına peşəkar nəşriyyat işçilərini toplayırdı. Bu baxımdan 2004-cü ildən "Təhsil" nəşriyyatında baş redaktor kimi fəaliyyətə başlayan Gülər Mehdiyevanın ötən bu illər ərzində dərsliklərin yazılmasında, ərsəyə gəlməsində müstəsna xidmətləri olmuşdur.

"Təhsil" nəşriyyatında Bəhruz Axundovun təşəbbüsü ilə 2008-ci ildə "Uşaq ədəbiyyatı şöbəsi" yaradılır. Şöbəyə tanınmış uşaq yazıçısı Sevinc Nuruqızı müdir təyin edilir.

Uşaq ədəbiyyatı sahəsində çap edilən uğurlu nəşrlərdən "Qədim Bakıya səyahət", "Melisa", "Bapbalaca əlifba", "Aysu və Ay", "Ağca və Cubbulu", "Pıçıltı" və digər kitabların adını qeyd etmək olar.

"Bədii ədəbiyyat şöbəsi"nin rəhbəri tanınmış yazıçı Mustafa Çəmənlidir. Bu şöbədə olduqca əhəmiyyətli əsərlərin nəşri həyata keçirilmişdir. Müstəqillik illərində onun tərtib etdiyi kitablar içərisində "Cənub həsrəti" adlı şeirlər toplusu (2009), İ.Nəsiminin 650 illiyinə həsr olunmuş "Zərrə mənəm, günəş mənəm" (2019), X.Natəvana həsr edilmiş "Neçin gəlməz" (2022), Ə.Haqverdiyevin 150 illik yubileyi münasibətilə çıxan "Əbədiyyət yolçusu" (2022), görkəmli muğam ifaçılarının yubileyləri münasibətilə Heydər Əliyev Fondunun sifarişi ilə hazırlanıb çap edilən albom-kitabları xüsusi əhəmiyyətə malikdir.

Fəaliyyəti dövründə "Təhsil" nəşriyyatında çoxcildli əsərlərin nəşrinə də xüsusi önəm verilmiş, xeyli sayda əhəmiyyətli kitablar çapdan buraxılmışdır. Məsələn, M.Mərdanovun 4 cilddə çap olunmuş "Azərbaycan təhsil tarixi"ni, Yaqub Mahmudlunun (Mahmudov) 12 cilddən ibarət olan "Seçilmiş əsərləri"ni, Məmməd Əmin Rəsulzadənin 5 cilddə "Əsərləri"ni, növbəti nəşrlərdən biri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İlyas Əfəndiyevin 100 illik yubileyinin keçirilməsi haqqında" 16 yanvar 2014-cü il sərəncamına əsasən nəşr edilən İlyas Əfəndiyevin 4 cilddə "Seçilmiş əsərləri"ni və s. misal göstərmək olar.

"Təhsil" nəşriyyatı yarandığı gündən Qarabağ mövzusuna xüsusi həssaslıqla yanaşmışdır. Belə ki, nəşriyyat tarixi həqiqətləri özündə ehtiva edən xeyli sayda mühüm nəşrlərin çapını həyata keçirmişdir.

44 günlük Vətən müharibəsi qələbə ilə başa çatdıqdan sonra "Təhsil" nəşriyyatı öz ənənəsinə sadiq qalaraq yazıçı və şairlərin Qarabağ mövzusunda yazdığı əsərlərdən ibarət "Qarabağ dastanı: 30 ilin həsrəti - 44 günün zəfəri" toplusunu (2021), nəşriyyatın baş direktoru Tural Axundovun təşəbbüsü ilə tərtib olunan "Şuşa tarixin obyektivində" (2022) və sairə kitabları nəşr edərək oxucuların ixtiyarına vermişdir.

2005-2010-cu illərdə müəssisə ardıcıl olaraq "İlin nəşriyyatı", çap etdiyi kitablardan bir çoxu isə "İlin kitabı" adlarına layiq görülür. 6 dildə çap olunmuş "Qarabağ: real tarix, faktlar, sənədlər" (2005), Çingiz Əlioğlunun "Atlantlar" (2006), Vaqif Bəhmənlinin və Ədalət Vəliyevin "Novruz" (2012), M.Ə.Sabirin "Hophopnamə" (2012) kitabları beynəlxalq "Kitab sənəti" müsabiqəsinin qalibi olur. Çingiz Əlioğlunun "Çərçivə" kitabı isə (naşir Bəhruz Axundov) "Qran-pri" mükafatına layiq görülür. Onu da deyək ki, bu nəşr beynəlxalq miqyasda mükafat alan ilk Azərbaycan kitabıdır.

"Təhsil" nəşriyyatı nəşr etdiyi kitabların keyfiyyətinə görə "Beynəlxalq Ticarət Liderləri Klubu"nun "Beynəlxalq qızıl mükafat"ını, xüsusi prizini və diplomunu (İspaniya, Madrid, 2012), Beynəlxalq Tədqiqatlar və Məsləhətlər Təşkilatı OMAC - Beynəlxalq Menecment Assosiasiyası Klubunun "Texnologiya, İnnovasiya və keyfiyyət üzrə Yeni era" beynəlxalq mükafatını və xüsusi diplomunu (Almaniya, Berlin, 2012), keyfiyyət və kommersiya nüfuzuna görə "Qızıl delfin" Avropa mükafatını (Fransa, Paris, 2012) almışdır. Qeyd edək ki, "Təhsil" bu, hər üç mükafata layiq görülmüş ilk və yeganə Azərbaycan nəşriyyatıdır. Bundan başqa, "Təhsil" nəşriyyatı 2019-cu ildə Malayziyanın Kuala-Lumpur şəhərində biznesdə işgüzarlığın yüksəlişində əldə olunan nailiyyətlərinə görə "The Bizz Business Excellence Award" mükafatına layiq görülmüşdür. Mükafatlandırma 5 bənd üzrə seçim əsasında: idarəçilikdə liderlik, idarəetmə sistemləri, əmtəə və xidmətlərin keyfiyyəti, kreativlik və novatorluq, sosial məsuliyyət nominasiyalarında keçirilmişdir.

2017-ci ildə Bəhruz Axundovun vəfatından sonra nəşriyyata rəhbər Tural Axundov təyin edilir. Tural atasının yolunu layiqli şəkildə davam etdirərək nəşriyyatın çap məhsullarının həm mövzu, həm də poliqrafik tərtibatı baxımından gözəl olmasına tələbkar yanaşır.

"Təhsil" nəşriyyatının digər nəşriyyatlardan fərqi ondan ibarətdir ki, onun redaksiyaları, mətbəəsi, həm də "Kitab evi" adlı mağazası vardır. Məhz bu baxımdan "Təhsil" nəşriyyatının fəaliyyəti öyrənilməyə və təqdir olunmağa layiqdir.

Onu da qeyd edək ki, "Təhsil" nəşriyyatı həm də dünyanın ən müasir poliqrafiya avadanlıqları istehsal edən bir neçə zavodunun Azərbaycan, Türkiyə, Ukrayna və Gürcüstan üzrə səlahiyyətli nümayəndəsidir.

"Təhsil" nəşriyyatı artıq 30 ildir ki, ölkəmizə ləyaqətlə xidmət göstərir. Yarandığı gündən Azərbaycan kitab xəzinəsinə əhəmiyyətli mövzularda 2000 addan çox kitab töhfə etmişdir. Qeyd edim ki, çap məhsullarının əsas hissəsi, təxminən 70 faizi tədris ədəbiyyatının payına düşmüşdür.

Ötən 30 il ərzində "Təhsil" nəşriyyatı bir çox nailiyyətlər qazanmış, əhəmiyyətli mövzularda xeyli sayda kitabların işıq üzü görməsinə nail olmuşdur. Məhz bu baxımdan "Təhsil" nəşriyyatının əldə etdiyi təcrübə respublikada fəaliyyət göstərən digər nəşriyyatlar üçün örnəkdir.

*Leyla ABASOVA,*
*tarix üzrə fəlsəfə doktoru*

# Gəncədə iki tarixlə bağlı tədbir keçirilmişdir

Gəncə Şəhər İcra Hakimiyyəti və Gürcüstanın Gəncədəki Baş konsulluğunun təşkilatçılığı ilə Azərbaycan Respublikası ilə Gürcüstan Respublikası arasında diplomatik əlaqələrin 30 illiyinə və gürcü yazıçısı Nikoloz Baratəşvilinin 205 illik yubileyinə həsr olunmuş tədbir keçirilmişdir.



Gürcüstan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Zurab Pataradze, Gürcüstanın Gəncədəki Baş konsulu Nikoloz İaşvili, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, idarə, müəssisə, təşkilat rəhbərləri, yazıçılar, ziyalılar və ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə açan N.İaşvili Azərbaycan və Gürcüstan arasında olan ikitərəfli əməkdaşlıqdan söz açaraq qeyd etmişdir ki, Azərbaycan və Gürcüstan arasında tarixi dostluq və qonşuluq ənənələrinə əsaslanan əlaqələr mövcuddur. Bu gün Gürcüstanla Azərbaycanı ilk növbədə qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir, ölkələrimiz bir sıra beynəlxalq təşkilat və qurumlar daxilində sıx əməkdaşlıq edirlər.

Baş konsul həmçinin bildirmişdir ki, bu il vaxtilə Gəncədə yaşayıb yaradan gürcü yazıçısı Nikolas Baratəşvilinin 205 illiyi tamam olur. Bu münasibətlə şairin "Merani" kitabı Azərbaycan dilinə tərcümə edilərək poeziyasevərlərin ixtiyarına verilmişdir.

Gəncə ŞİH-in başçısı Niyazi Bayramov isə çıxışında möhkəm təməllər üzərində qurulan Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafından danışmışdır. Qeyd etmişdir ki, Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdarkən Gürcüstanla münasibətlərin inkişaf etdirilməsini mühüm vəzifə kimi qarşıya qoymuşdur. Sonrakı dövrdə Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsi olaraq bu əlaqələr daha da inkişaf etmişdir.

Niyazi Bayramov Gəncədə gürcü şairi Nikoloz Baratəşvilinin 205 illik yubileyinin qeyd olunmasının əhəmiyyətindən də söz açmışdır. Bildirmişdir ki, multikultural dəyərlərə sadiq olan Azərbaycan dövləti öz ərazisində yaşayan bütün xalqlara və onların mədəniyyətlərinə hər zaman diqqət göstərmişdir. Şəhər rəhbəri "Gürcüstanın Lermontovu" adlandırılan şairin yaradıcılığı ilə tanışlığın azərbaycanlı oxucular üçün də maraqlı olduğunu diqqətə çatdırmışdır.

Sonra Nikoloz Baratəşvilinin "Merani" kitabının nüsxələri tədbir iştirakçılarına təqdim olunmuşdur. Kitabı Azərbaycan dilinə Azərbaycan Yazıçılar Birliyinin üzvü, yazıçı-dramaturq İmir Məmmədli tərcümə etmişdir.

Tədbirin sonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstana səfəri ilə bağlı videoçarx nümayiş olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Tərtərdə "Heydər Əliyev İli" çərçivəsində çoxsaylı tədbirlər nəzərdə tutulub

Prezidentin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında 28 noyabr 2022-ci il tarixli sərəncamının icrasının təmin edilməsi məqsədilə Tərtər Rayon İcra Hakimiyyətində "dəyirmi masa" keçirilmişdir.



Tədbirdə RİH-in nümayəndələri, YAP rayon təşkilatının, rayon Ağsaqqallar Şurasının, təhsil, səhiyyə, mədəniyyət və digər qurumların rəhbərləri iştirak etmişlər. Giriş sözü ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov bildirmişdir ki, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Prezident İlham Əliyevin 28 noyabr 2022-ci il tarixli sərəncamının icrasının təmin edilməsi məqsədilə Tərtər Rayon İcra Hakimiyyəti tərəfindən tədbirlər planı hazırlanmışdır. Tədbirlər planında Ümummilli Liderin şəxsiyyətinə, zəngin həyat təcrübəsinə, ictimai-siyasi fəaliyyətinə həsr olunmuş müxtəlif tədbirlər (Heydər Əliyev irsinin daha əhatəli öyrənilməsi üçün tədbirlərin keçirilməsi, Heydər Əliyev Mərkəzinə ekskursiyaların təşkili, Ulu Öndərin həyat və yaradıcılığından bəhs edən mühazirələrin və müxtəlif videoçarxların hazırlanması, ziyalıların ümumtəhsil məktəblərində çıxışlarının təşkil edilməsi, idman yarışları, inşa və rəsm müsabiqələri, ağacəkmə aksiyaları və s.) nəzərdə tutulmuşdur.

Sonra YAP rayon təşkilatının sədri Eldar Əsədov, rayon Ağsaqqallar Şurasının sədri Faiq Məmmədov, təhsil sektorunun müdiri Oktay Sarıkişiyev, "Yeni Tərtər" qəzetinin redaktoru Svetlana Bağırova və başqaları çıxış edərək təkliflərini vermişlər.

RİH-in başçısı görüşdə irəli sürülmüş təkliflərin tədbirlər planına əlavə ediləcəyini bildirmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Yaponiya portalı Ulu Öndər Heydər Əliyevin anım günü ilə bağlı məlumatlar yayıb

Yaponiyanın "ajmedia.jp" portalı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə bağlı məlumatlar yayıb.



AZƏRTAC xəbər verir ki, yapon və ingilis dillərində yayılan məlumatlarda Ulu Öndər Heydər Əliyevin zəngin həyatı və çoxşaxəli fəaliyyəti barədə yapon oxuculara ətraflı məlumat verilib.

Bildirilib ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqına və dövlətinə əvəzedilməz xidmətlər göstərib. Xalqımızı məhv olmaq təhlükəsindən qurtaran Ulu Öndərin müəyyən etdiyi strateji inkişaf xətti sayəsində Azərbaycan Cənubi Qafqazın lider dövlətinə çevrilib. Dərindən düşünülmüş iqtisadi inkişaf xətti Azərbaycanı qüdrətli dövlətə çevirməklə bərabər, həm də onun böyük nüfuz qazanmasına səbəb olub. Bu gün öz müstəqil xarici siyasət xəttinə malik olan Azərbaycan dünya dövlətləri ilə bərabər səviyyəli ikitərəfli münasibətlər qurmaqla yanaşı, həm də çoxtərəfli əlaqələr fonunda regionun geosiyasi təhlükəsizliyinə fundamental töhfələr verir.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası nəticəsində müstəqil Azərbaycan dövləti tarixən çox qısa zaman kəsiyində beynəlxalq münasibətlər sistemində layiqli yer qazana bilib. Həm ikitərəfli münasibətlərdə, həm də beynəlxalq təşkilatlar çərçivəsində böyük nüfuz qazanıb.

Bildirilib ki, bu gün Azərbaycan Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurlar qazanmaqda davam edir.

Məlumatlarda dekabrın 12-də Ulu Öndərin məzarının hərn ailə üzvləri, həm də geniş xalq kütləri tərəfindən ziyarət edildiyi, onun ruhuna dualar oxunduğu da əksini tapıb.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2023-cü ilin "Heydər Əliyev İli" elan olunduğu və bununla bağlı həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda Ulu Öndərin anadan olmasının 100 illiyi ilə bağlı çoxsaylı tədbirlər keçiriləcəyi qeyd edilib.

# Vətən boyda insan

## Dünyaşöhrətli alim - Xudu Məmmədov



1988-ci il oktyabrın 15-i idi. Bakı şəhərində ziyalılar Azərbaycan xalqının ən böyük milli təəssübkeşlərindən olan dahi Üzeyir bəy Hacıbəylinin ev-muzeyində Qarabağ problemlərini müzakirə edirdilər. İçi çoxdan çürümüş sovet rejiminin gedərayaqda xalqımızın başına sarıdığı erməni bəlasından çıxış yollarını arayıb-axtaranlar arasında ağdamlı dünyaşöhrətli alim Xudu Məmmədov da var idi.

O Xudu Məmmədov ki hələ gənc yaşında elm sahəsində böyük nailiyyət qazanaraq adından söz etdirmişdi, sovetin qılıncının önünün də, arxasının da kəsdiyi illərdə Milli Azadlıq Qərargahı təşkilatının qurucularından olmuş, 1969-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin ay-ulduzlu üçrəngli bayrağını qorxu bilmədən Azərbaycana gətirmişdi. Ürəyi turan sevdasıyla, könlü müstəqillik, hürriyyət eşqiylə döyünürdü. Hər zaman, hər yerdə açıq-aydın ifadə edirdi bu vətən sevgisini. Söz-söhbətlərində, qələmə aldığı yazılarda da, qoşduğu şeirlərdə də daim qırmızı xətt kimi keçirdi vətən.

Böyük alimin Ağdama baxa-baxa "Allaha rəvadırmı bu torpaqlar bizim əlimizdən alınsın" deyərək kövrəlməsi və "mənim ürəyimə nəsə damıb, bu gecə yuxumu qarışdırmışam. Millətimin başında qara buludlar dolanır" deməsi bu gün də şahidlərinin ürəyini köz kimi dağlayır...

Buna görə idi ki, Xudu Məmmədov məkrli ermənilərin düşmən siyahısında ilk sıralardaydı, hədəfdəydi. Hər fürsət düşdükcə xain əməllərlə ona mane olmağa, badalaq gəlməyə, uçuruma yuvarlamağa çalışırdılar.

İllərlə vəteninin dağ boyda dərdini ürəyində daşımışdı Xudu Məmmədov, amma payız fəslinin qaşqabaqlı, ağlar günündə birdən-birə tabdan düşmüşdü, daha ürəyi dözə bilməmişdi millətinin ard-arda üzləşdiyi faciələrə, elə həmin iclasda qəflətən keçinmişdi...

Xudu Məmmədovun vəfatından qısa zaman sonra bütün Bakını nəhəng SSRİ-yə qarşı etiraz mitinqləri bürümüş, xalq müstəmləkəçi rejimdən qurtuluş üçün ayağa qalxmış, azadlıq haqqını tələb etməyə başlamışdı. Bütün bunlar isə, heç şübhəsiz, böyük vətənpərvər Xudu Məmmədovun illərdir xalqın qəlbinə əkdiyi azadlıq toxumlarının müstəqilliyə uzanan pöhrələri idi.

### Torpağa vurğun

O, torpaq adamıydı, torpağı sevərdi...

Ta uşaqlığından saatlarla dayanıb onu seyr etməkdən doymazdı, əyilib qapqara dənəvər torpağı ovcuna yığardı, onun yaş qoxusunu sinədolusu ciyərlərinə çəkərdi, elə bil yenidən doğulardı bu dünyaya...

Amma bu ətir də hər torpaqdan gəlməzdi ha... Dünyanın bir çox yerində şəxsən yoxlamışdı bunu, amma xeyr, bu, o ətirdən deyildi...

Sadəcə Ağdamda, Qarabağda, o taylı-bu taylı Azərbaycanda torpaqdan onu riqqətləndirən bu ətir burum-burum gələrdi...

1980-ci ilin yayında "oğrunca", cəmi 15 dəqiqəliyinə Arazın o tayına, Vətən həsrətini söndürməyə gedəndə də müqəddəs bildiyi torpağın önündə diz çökmüş, millət ayrılığının ürəyində açdığı dərin yarasına məlhəm istəmiş, giley-güzar etmiş, nisgildən hönkür-hönkür ağlamışdı...

Bəli, o, ürəyi, könlü, ruhu ilə bağlı idi Vətən torpağına, sözünü də ona deyər, sevincini bölüşər, onunla küsər, barışardı...

Bəlkə də elə canlı və cansız təbiətin vəhdət sirrini də, elmlə sənətin arasındakı incə bağı da beləcə aşkar etmişdi... Dünyaşöhrətli azərbaycanlı alim, ictimai-siyasi xadim, professor, AMEA-nın müxbir üzvü, geologiya-mineralogiya elmləri doktoru, Böyük Britaniya Kral Akademiyasının fəxri üzvü, şair, rəssam, yazıçı Xudu Surxay oğlu Məmmədov.

### "Elmin vətəni yox, alimin vətəni olmalıdır"

"Elmin vətəni yox, alimin Vətəni olmalıdır" deyərdi böyük alim və hər zaman uşaqların, gənclərin də bu ruhda böyüməsini istəyərdi. O, söyləyərdi ki, uşaqlara vətəni sevməyi öyrətmək lazım deyil. Siz onlara vətəni tanıdın, özləri sevəcəklər.

Şöhrətli alimin özünün vətəni Azərbaycan, doğulub boya-başa çatdığı yurd isə Qarabağ, Ağdam idi.

1927-ci il dekabrın 14-də Ağdamın Mərzili kəndində dünyaya göz açıb Xudu Məmmədov. Atası tanınmış ziyalılarımızdan olan Surxay Məmmədov Leninqrad Tikinti Akademiyasını bitirib. Anası Yaxşı xanım evdar qadın olub. Xudu Məmmədov Mərzilidə 7 illik məktəbi bitirdikdən sonra rayon mərkəzindəki orta məktəbdə təhsil alıb, 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin Geologiya-coğrafiya fakültəsinin geologiya şöbəsinə daxil olub. Təhsilini fərqlənmə diplomu ilə başa vuran istedadlı gənc 1951-ci ildə Azərbaycan Elmlər Akademiyasının Kimya İnstitutuna təyinat alıb.

1957-ci ildən Azərbaycan Elmlər Akademiyası Qeyri-üzvi və Fiziki Kimya İnstitutunun Struktur kimya laboratoriyasının müdiri vəzifəsində çalışan Xudu Məmmədovun əsas elmi işləri kristallokimya sahəsində olub.

Kristalloqraf-alimin bu sahədəki nailiyyətləri hələ gənc yaşda olanda ona dünya şöhrəti gətirib. Araşdırmaçılar yazır ki, görkəmli alim Con Bernal 1953-cü ildə Moskvada keçirilən elmi konfransda "bizdəki və sizdəki "pensioner" kristalloqrafların həll edə bilmədiklərini sizin 25 yaşlı "pioner" tələbəniz - cənab Xudu Məmmədov həll etmişdir!" deyərək tələbəsi haqqında guya söz tapa bilməyən rus akademikinə tutarlı cavab vermişdi.

1956-cı ildə Moskva şəhərində növbəti Beynəlxalq Sülh Konfransında C.Bernal laboratoriyasında uzun müddət problem quruluşlardan olan ksonotlit və vollastonit minerallarının quruluşunu yüksək dəqiqliklə təyin edən Xudu Məmmədovla görüşür. İnstitutda elmi diskussiyadan sonra Xudu Məmmədovla tanışlıq onu çox heyrətləndirir və onu Londona "Sement Silikatlarının Quruluşunun Tədqiqi" elmi mərkəzinə dəvət edir.

Xudu Məmmədov iki dəfə, 1960-cı və 1966-cı illərdə müxtəlif müddətdə Bernalın qonağı olur. C.Bernal da öz növbəsində Bakıda Xudu müəllimin qonağı olur və özünün bağışladığı "Elm haqqında elm" kitabında belə bir avtoqraf yazır: "Canlı və cansız təbiəti vəhdətlərindən böyük alim Xudu Məmmədova".

Azərbaycanlı alim bir neçə illik tədqiqatlarının yekunu olaraq 1960-cı ildə "Kalsium silikatları və hidrosilikatların kristallokimyası" monoqrafiyasını yazır. Alimin əhatə etdiyi mövzu üzrə fundamental əhəmiyyətə malik olan bu əsəri Azərbaycan elm tarixində kristallokimyaya dair doğma dilimizdə ilk kitab ünvanı qazanır.

1960-1970-ci illərdə artıq elm aləmində "Kristallokimyaçıların Bakı məktəbi" kimi tanınmış laboratoriyanın əməkdaşları Xudu Məmmədovun rəhbərliyi ilə dünya laboratoriyalarının problem axtarışlarından olan quruluşları açmağa qadir idilər. Bu illərdə Xudu Məmmədov artıq dünya səviyyəsində qəbul edilmiş görkəmli kristalloqraf-alim idi.

Azərbaycanlı alim 1970-ci ildə geologiya-mineralogiya elmləri doktoru, 1973-cü ildə professor elmi adlarına layiq görülüb. Xudu Məmmədov 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilib.

O, 250 elmi əsərin, 10 müəlliflik şəhadətnaməsi və 3 monoqrafiyanın müəllifidir. Xudu Məmmədovun rəhbərliyi ilə 10 elmlər doktoru və 35 fəlsəfə doktoru yetişdirilib.

### Ən böyük arzu

Böyük elmi nailiyyətləri olan, özünün "Xudu məktəbi"ni yaradan Xudu Məmmədov üçün hər şeydən öncə vətəninin və xalqının taleyi gəlirdi, onun düşüncələrini də, duyğularını da məşğul edən bu iki məsələ idi.

Yaxın dostu Bəxtiyar Vahabzadənin Xudu Məmmədov kimliyinə yaxından bələd olacağımıza yol açan bir xatirəsinə diqqət yetirək: "1970-ci illərin sonlarında bir gün Nurəddin Rzayevlə Xudu Məmmədovun evində qonaq idik. Söhbətimizin mövzusu əsasən Azərbaycanın gələcəyi və Türkiyə ilə münasibətləri ətrafında idi. Nədənsə söhbət hərəmizin ən müqəddəs arzusu barədə oldu. Mən dedim ki, mənim ən müqəddəs arzum Azərbaycanın güneyli-quzeyli birliyini və xoşbəxtliyini görməkdir. Nurəddin dedi ki, ən böyük və müqəddəs arzum Azərbaycanın gələcəyinin parlaq olmasını görməkdir. Xudu isə dedi: "Ən böyük arzum budur ki, bir gün qapımız döyülsün, gedib açım görüm ki, əlində süngülü tüfəng olan türk əsgəridir. Soruşsun ki, kommunist Xudu Məmmədov burada yaşayır? Deyim ki, bəli, mənəm… Desin ki, biz Türkiyədən gəlmişik, Azərbaycandakı sonuncu kommunist olan Xudu Məmmədovu güllələməyə".

Türkçülüyü yaşadan Xudu Məmmədovun ən böyük arzusu türkün birliyi, Azərbaycanın müstəqilliyi idi və o, həyata keçirdiyi bütün işlərdə bu arzusunu qorxmadan ifadə edirdi.

O, Ağdamın Mərzili kəndində 1941-1945-ci illər müharibəsi iştirakçılarının xatirəsinə abidə inşa olunması üçün çox çalışmış və buna nail olmuşdu. Dizayn və ideyası özünə aid olan bu abidədə Xudu Məmmədov Azərbaycanın müstəqilliyi ilə bağlı arzusunu əks etdirmişdi. Həmin abidə ilk baxışdan yarpaq və beşguşəli ulduz kimi görünsə də, diqqətlə baxdıqda, bunun ay və səkkizguşəli bir fiqurda birləşən beşguşəli ulduz olduğu görünürdü.

### Heydər Əliyev olmasaydı...

Ağdamda dillər əzbəri olan məşhur "Çay evi"nin də yaranması Xudu Məmmədovun ideyası idi. Azərbaycanlı ustaların Çin memarlıq üslubunda məharətlə tikdikləri bu binanın içərisi milli ornamentlərlə işlənmişdi.

Xudu Məmmədov yazdığı "Naxışların yaddaşı" kitabında isə qədim naxışların araşdırılması ilə türkçülüyün izlənməsinin mümkünlüyündən bəhs etmişdi. Böyük alim fikirlərini zəngin faktlarla izah etmiş, eramızdan çox-çox əvvəl türklərin məskunlaşdığı ərazilərdə tapılan sənət nümunələrində simmetriya elementlərindən istifadə olunmasının kristalloqrafiya elmi ilə bağlılığını mükəmməl şəkildə əsaslandırmışdı.

Məmməd Əmin Rəsulzadənin ən yaxın silahdaşlarından biri və şəxsi həkimi olan Məhəmməd Kəngərli 1969-cu ildə Türkiyədə Xudu Məmmədova üçrəngli bayrağımızı hədiyyə etmişdi və o, bu bayrağı gizli şəkildə Azərbaycana gətirmişdi.

Xudu Məmmədov tərəfindən türkçülüyün, azərbaycançılığın bu cür açıq-aydın təbliğ olunması təbii ki, sovet hökumətinin, çuğulçuların gözündən yayına bilməzdi, amma nə sirr idisə, görkəmli alimə heç kim bir söz deyə bilmirdi.

Alimin yeganə övladı Toğrul Məmmədov müsahibəsində bu məqama aydınlıq gətirib: "...Gəlin bir şeyi yaddan çıxartmayaq ki, o vaxt Azərbaycanın rəhbərliyində Heydər Əliyev var idi. O vaxt atam, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk və digər Azərbaycanın bütövlüyünü arzu edən ziyalıları sanki bir sehrli əl sovet hökumətinin qəzəbindən qoruyurdu. O sehrli əl Heydər Əliyevin əli idi. O, olmasaydı, atam kimilərin taleyi repressiya dövrü ziyalılarının taleyi kimi olacaqdı".

### Sirri-xuda

Xudu Məmmədovun ən böyük zənginliyi sadəliyi idi. Hər zaman el obasının yanında olardı, dünyanın heç bir dilbər guşəsini Ağdama, Kəlbəcər yaylaqlarına dəyişməzdi. Səhhətindəki problemlər də doğma yurdu Qarabağda yoxa çıxardı. Klassik ədəbiyyatı, şeiriyyatı, muğamı, saz havalarını çox sevərdi. Hətta Zəlimxan Yaquba "Saz" poemasını yazmasını da Xudu Məmmədov məsləhət görmüşdü.

Görkəmli alim özü də şeirlər, bayatılar qələmə alırdı, "Qoşa qanad" əsərini çox sevdiyi dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin xatirəsinə həsr etmişdi. Eyni zamanda Xudu Məmmədovun müdrik deyimləri bu gün də dillərdə dolaşmaqdadır.

Bir sözlə, Qarabağın yetişdirdiyi görkəmli elm xadimi Xudu Məmmədov hərtərəfli insan idi və onun elmi uğurlarını, ictimai-siyasi fəaliyyətini bir yazıya sığdırımaq, şəxsiyyətinin özəlliyini tam açmaq mümkün deyil.

Amma bu bir gerçəklikdir ki, hətta Xudu Məmmədovun müasiri olmayanlar, onu tanımayanlar belə şöhrətli alimimiz haqqında yazılanları oxuyanda, deyilən fikirləri eşidəndə onun necə insansevər, torpağına, millətinə bağlı həssas bir unikal şəxsiyyət olduğunu dərindən duyur, hiss edirlər. İstisnasız olaraq ürəyində bu böyük insana xüsusi ehtiram yaranır, onu öz doğması sayırlar.

Fərqləndirmək çətindir ki, Xudu Məmmədov böyük alim idi, yoxsa böyük insan?! Çünki o, nadir istedad və bacarığı ilə elm sınağından, yüksək həssaslığı, qayğıkeşliyi, millətsevərliyi ilə el imtahanından əla qiymətlər almağı bacaran şəxsiyyətlərdən olmuşdu.

Ömrünü xalqının azadlıq və müstəqillik mübarizəsinə həsr edən Xudu Məmmədov 1988-ci ildə, Qarabağda hadisələrin alovlandırılaraq millətimizin başına müsibətlər açıldığı ildə, böyük Azərbaycan təəssübkeşi dahi Üzeyir bəyin ev-muzeyində dünyasını dəyişmişdi.

Bu isə təsadüf deyildi. Tanrının Xudu Məmmədov üçün yazdığı zaman və məkan reallığı, sirri-xuda idi ki, vətəni canından çox sevən Xudu Məmmədovu 30 illik Qarabağsızlıq, Ağdamsızlıq sınağına çəkmədən öz dərgahına aparmışdı...

### İndi Xudu Məmmədovun da nigaran ruhu rahatlıq tapıb, şaddır

Böyük alim ömrünün hələ erkən çağında, cəmi 61 yaşında dünyadan köçərək Azərbaycanı, elm aləmini dərin yasa boğmuşdu. Xudu Məmmədov kimi dahi alimin erkən dünyadan köçməsi təbii ki, elm üçün əvəzedilməz itki idi. Amma Xudu Məmmədovun timsalında millətinin itkisi sözlə ifadəsi mümkün olmayacaq miqyasda böyük idi. Azərbaycan nəhəng milli təəssübkeşini, vətən sevdalısını, el oğlunu itirmişdi...

Xalqı ən çox incidən Xudu Məmmədovun vətənin taleyindən, millətinin aqibətindən nigaran olaraq bu dünyadan köçməsi idi.

Amma zamanın çarxı dönüb, dolaşıb İlahi ədaləti təmin etdi. Azərbaycan müstəqilliyini bərpa edib qüdrətli dövlətə çevrildi, Qarabağ münaqişəsini cəmi 44 günə sonlandıraraq Şuşada zəfər çaldı. Azərbaycanın bu böyük qələbəsi türk birliyinin zəfəri oldu. Bu zəfər həm də zorla bizdən ayrı salınmış o taylı, cənubi azərbaycanlı soydaşlarımızın haqq və hüquqları uğrunda etiraza qalxmalarına təkan verdi...

Bütün bu sadaladığımız möcüzəvi gerçəkliklər isə bir zamanlar əqidə yoldaşları ilə bərabər, Xudu Məmmədovun apardığı mücadilənin müzəffər sərkərdə İlham Əliyev tərəfindən gerçəkləşdirilən parlaq sonluğu idi.

İndi Xudu Məmmədovun da nigaran ruhu rahatlıq tapıb, şaddır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# "Qarabağın dünəni, bu günü, sabahı": Şuşa kitabxanaları

"Şuşa ili" ilə əlaqədar Azərbaycan İstiqlal Muzeyi tərəfindən həyata keçirilən "Şuşa - Qarabağın dünəni, bu günü, sabahı" adlı layihə davam edir.

Muzeydən AZƏRTAC-a bildirilib ki, layihə çərçivəsində növbəti təqdimat Şuşanın kitabxanalarına həsr olunub.

Qədim Şuşada tarixən ilkin kitabxanaların yaradılması, günümüzə qədər fəaliyyəti və inkişafı azərbaycanlılar tərəfindən həyata keçirilib.

Qarabağ ərazisində ilk kitabxana-qiraətxana məhz Şuşada yaradılıb. Şuşa Realnı Məktəbinin fransız dili müəllimi Əhməd bəy Ağaoğlu 1896-cı ildə Şuşada müsəlman qiraətxanası adı ilə şuşalılar üçün yeni kitabxana açmışdır. Bəzi mənbələrdə qiraətxananın 3 il ərzində fəaliyyət göstərdiyi və kitab fondunun 500 nüsxəyə çatdığı da bildirilir.



Şuşa əsrlərdən bəri xalqımızın mədəniyyət mərkəzi kimi tanınmış və ilk kitabxana kimi ilk kitab çapı da Şuşada baş tutmuşdur. Belə ki, o zaman Şuşada məktəb şəbəkəsinin genişlənməsi dərs kitablarına tələbatı artırmış və bu da öz növbəsində kitab çapını zəruri etmişdir. Dövrünün görkəmli şəxsiyyətlərindən, mütərəqqi ziyalılarından biri olmuş Mir Möhsün Nəvvab 1884-cü ilin əvvəlində daşbasma (litoqrafiya) üsulu ilə kitab çap edən mətbəə təşkil etmiş və burada dərs kitablarını, özünün, eləcə də müasirlərinin bir sıra məcmuələrini, dini risalələri çap etmişdir. Kitab çapı genişləndikcə onların toplandığı və istifadə edilə biləcəyi bir məkana da ehtiyac duyulurdu. Elm öyrənmənin, kitabın, mütaliənin əhəmiyyətini anlayan ziyalımız M.M.Nəvvab 1903-cü ildə Gövhər ağa məscidinin həyətində növbəti kitabxana-qiraətxananı da açmışdır. Hətta mənbələrdə bu kitabxanada onun oğlu Miriş ağanın da çalışması barədə məlumatlar qeyd edilib. Nəvvabın mətbəəsində çap edilən kitablar Şuşa kitabxanalarında mühafizə edilir və geniş oxucu kütləsinə təqdim edilirdi. Dövrünün alimləri həmin kitabxanalarda toplaşır və elm, təhsil, ədəbiyyat barədə müzakirələr aparırdı. Beləliklə, Şuşada elmi, mədəni, ədəbi mühit formalaşırdı.

Milli qəhrəmanlarımız

# Qubadlıda bir məzar var...



Oğul var evdən gedər, oğul var eldən. Əliyar Əliyev belə igidlərdən idi. 1990-cı ilin əvvəllərində torpaqlarımızın işğalı zamanı cəbhəyə yollanan ilk könüllülərdən biri oldu Əliyar Əliyev. Müharibədə özünü təkcə qorxmaz, cəsur döyüşçü kimi deyil, bacarıqlı hərbçi, əsl təşkilatçı kimi göstərdi. Əvvəlcə taborun kəşfiyyat bölməsinin komandiri, sonra tabor komandirinin müavini təyin edilən gənc zabiti ən çətin döyüşlərdə dəstənin önündə görmək olardı. Tabor dəfələrlə düşmənə ağır zərbə vurdu. 1992-ci ilin payızında isə Əliyar 40 könüllü döyüşçü ilə birlikdə işğal altında olan Laçının kəndlərini cəmi 4 günə düşməndən azad etdi.

### "Pəhləvanlar taboru"

Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyev 1957-ci il dekabrın 14-də Qubadlı rayonunun Qəzyan kəndində doğulub. 1975-ci ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olub. İnstitutu fərqlənmə diplomu ilə bitirərək, elə doğma rayonunun Dondarlı kənd orta məktəbində idman müəllimi kimi işə başlayıb. Hərbi xidməti başa vurduqdan sonra Saransk Dövlət Universiteti onu idman üzrə tanınmış mütəxəssis kimi müəllim işləməyə dəvət edib və Əliyar Əliyev həmin universitetdə iki il müəllim işləyib. Atasının ölümü ilə əlaqədar o, Qəzyana qayıdıb. Burada qəsəbə orta məktəbində müəllim, "Məhsul" Kənd Könüllü İdman Cəmiyyətində rayon şöbəsinin məşqçisi vəzifəsində çalışıb. 1985-ci ildən isə Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyəti rayon şurasının sədri seçilib. O, zamanında ölkəmizin say-seçmə idmançılarından hesab olunub. Dəfələrlə güləş üzrə respublika, sonralar isə ümumittifaq və beynəlxalq yarışlarda qalib gəlib.

1979-cu ildə ailə quran Əliyar ailəsi ilə birlikdə Qubadlıda yaşamağa başlayır. Onun Emin, Yusif və Pərvanə adlı övladları dünyaya gəlir. O, şücaətli döyüşçü olmaqla yanaşı, nümunəvi ailə başçısı və qayğıkeş ata idi. Əliyar musiqini də idman qədər çox sevirdi. Qarmonda ifa etməyi bacarır, tez-tez ailəsini başına yığıb mahnılar ifa edirdi.

1988-ci ilin fevralında Xankəndidəki ilk erməni mitinqlərindən sonra Ermənistandan azərbaycanlıların deportasiyası başlayır və ilk qaçqın dalğası Qubadlıdan keçir. Qarakilsədən, Qafandan, Gorusdan qovulan azərbaycanlıların bir qismini qubadlılılar qəbul edirlər. Dağlıq Qarabağla Ermənistan arasında yerləşən Qubadlının strateji əhəmiyyətini başa düşən erməni təcavüzkarları burada da təxribatlar törətməyə başlayırlar. Məhz elə o illərdə Əliyar Əliyev Qubadlıda könüllülərdən ibarət dəstə təşkil edir. Onun təşkil etdiyi tabor camaat arasında "Pəhləvanlar taboru" kimi də tanınır. Çünki könüllülərin əksəriyyəti onun rəhbərlik etdiyi Könüllü Bədən Tərbiyəsi və İdman Cəmiyyətinin üzvlərindən ibarət idi.

Xalq onu sevir, ona inanır, övladlarını ona etibar edirdi. Əliyar isə çalışırdı ki, batalyona vətənə məhəbbətinə, fiziki gücünə güvəndiyi insanları, tanıdığı adamları götürsün. Çox vaxt qarşısını kəsib, gileylənənlər də olurdu. Onlara cavab verməsə də, sonralar deyirmiş ki, silahları, havadarları bizdən qat-qat üstün olan düşmənə qarşı bu uşaqları necə qurban verim? Sonra el-obanın üzünə necə çıxaram?!

### Ermənistana üçgünlük matəm yaşadan igid

Tabor komandiri olarkən Başarat, Susuzdağ, Suarası kimi strateji mövqeləri düşməndən geri aldı. 1991-ci ilin mayında Qubadlının Yuxarı Cibikli kəndi, 1992-ci il oktyabrın 12-də isə Topağac-Başarat yüksəkliyi uğrunda gedən döyüşlərdə onun rəhbərlik etdiyi alay düşməni ağır itkilərə məruz qoydu. Alayın topçuları Xocalı soyqırımından bir neçə gün sonra Gorusun altını üstünə çevirib, düşmənin 300-dən çox canlı qüvvəsini məhv etdi. Ermənistana üçgünlük matəmi də elə onlar yaşatdılar. Hətta İrəvanda keçirilən mitinqlərdə Əliyar Əliyevə və onun 3 döyüşçüsünə ölüm hökmü çıxartdılar.

Son döyüş Laçının iki kilometrliyində oldu. "Tikanlı zəmi" yüksəkliyi deyilən ərazidə Əliyar Əliyev qəhrəmancasına döyüşərək şəhadətə ucaldı. Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə 1992-ci il noyabrın 10-da ona ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adı verildi.

Xalq əsl qəhrəmanlarını heç vaxt unutmur, onlar barədə xatirələri, göstərdikləri şücaətləri, döyüş və həyat yollarını sonrakı nəsillərə ötürür. Bu gün 65 yaşı tamam olan Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyev də belə şəhid qəhrəmandır. İllərdir həmişə bu vaxt onun xatirəsinə silsilə tədbirlər, idman yarışları və turnirlər keçirilir.

### Xalqının qəlbində əbədiyaşarlıq qazandı

2017-ci ildə Bakı şəhəri, Nərimanov rayonunda Əliyar Əliyevin adını daşıyan küçədə Milli Qəhrəmanın abidəsinin açılışı olub. Qəhrəmanımızın digər bir abidəsi də Qubadlı rayonunda ucaldılıb. Masazırda onun adına məktəb, Sumqayıtda və Binəqədidə isə "Əliyar" adlı bulaqlar var.

Əliyar Əliyev haqqında "Pəhləvan komandir" sənədli filmi də çəkilib. Filmdə onun həyatından və keçdiyi şərəfli döyüş yolundan bəhs edilir.

Digər işğal altında olan torpaqlarımızla birlikdə Qubadlı da düşmən tapdağından azad edildikdən sonra Əliyar Əliyevin qəbri bərpa olunub, gül-çiçəyə bürünüb.

Qubadlıda bir məzar var - şəhid qəhrəman Əliyar Əliyevin məzarı. İndi bu məzar da kimsəsiz, sevgisiz, sahibsiz deyil. Bu torpağı Vətən olaraq şərəfləndirən belə məzarlar Qubadlıda, Laçında, Şuşada... çoxdur. Vətənə sipər olan, gənc yaşda əbədiyyət qədər ömür qazanan Əliyar Əliyev, doğum günün mübarək!

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*




*14 dekabr təqvimi*

**YARIMFİNAL**

**Fransa- Mərakeş (23:00)**



## Enrike İspaniyanı daha güclü sayır

İspaniya millisinin sabiq baş məşqçisi Luis Enrike Qətərdə keçirilən dünya çempionatının yarımfinal cütlərindən danışıb. O, İspaniya millisinin həmin komandaların hamısından güclü olduğunu bildirib: "Futbol elə bir idman növüdür ki, komanda hücuma keçsə də, qalib gələ bilmir. Amma Mərakeşdə belə deyil. O, komandanın bizə qarşı epizodları var idi. İspaniya yarımfinaldakı bütün komandalardan güclüdür. Sadəcə, bəxtimiz gətirmədi".

Xatırladaq ki, İspaniya 1/8 finala Mərakeşə penaltilər seriyasında 0:3 hesabı ilə uduzub. Komanda turnirlə vidalaşdıqdan sonra Luis Enrike istefaya göndərilib.

# Ronaldu favoritini açıqladı

Portuqaliya millisinin kapitanı Kriştiano Ronaldu mundialda əsas favoritini açıqlayıb. 37 yaşlı hücumçu "Mirror"a müsahibəsində deyib: "Düşünürəm ki, turnir başlamazdan əvvəl dediyim kimi, Fransa əsas favoritdir. Və mən də Mbappenin bu mundialın ən yaxşı oyunçusu olacağını düşünürəm".

Ronaldu İngiltərənin turnirdə mübarizəni dayandırması haqda da danışıb: "Unutmayın, İngiltərə Fransaya qarşı çox yaxşı futbol oynadı. Düşünürəm ki, Braziliya ilə eyni şey onların başına gəldi. Sonda xırda detal matçın nəticəsinə təsir etdi. Ancaq İngiltərə dünya çempionatında oynadığı futbolla fəxr etməlidir".



## Luiş Fiqudan Santuşa tənqid



Portuqaliya millisinin keçmiş üzvü, "Qızıl top"un sahibi Luiş Fiqu yığmanın baş məşqçisi Fernando Santuşun kapitan Kriştiano Ronaldunu 1/4 finalda Mərakeşlə matçda start heyətində meydana buraxmamaq qərarına münasibət bildirib. Qol.az xəbər verir ki, o, Santuşun yanlış qərar verdiyini bildirib. Fiqu deyib: "Ronaldu ehtiyat oyunçular skamyasında olarkən dünya çempionatını qazana bilməzsən. Onu heyətdən kənarda saxlamaq səhv idi. Bu məğlubiyyətin tam məsuliyyəti Santuşun üzərinə düşür".

Xatırladaq ki, 1/4 finalda Portuqaliya millisi Mərakeşə 0:1 hesabı ilə uduzub. Ronaldu bu görüşdə Portuqaliya millisinin start heyətində yer almayıb və oyunun 51-ci dəqiqəsində meydana çıxsa da, qol vura bilməyib. Portuqaliya millisi isə turnirdə mübarizəni dayandırıb. Daha əvvəl 1/8 finalda İsveçrə ilə matçda da Ronaldu ehtiyat oyunçular arasında idi.

# Braziliyada baş məşqçi namizədləri

Titenin istefasından sonra Braziliya millisinin baş məşqçisi vəzifəsinə namizədlər məlum olub. Bu barədə yerli mətbuat məlumat yayıb. Bildirilir ki, federasiya komandanın 1/4 finalda Xorvatiyaya məğlubiyyətinin (1:1, penaltilər seriyası - 2:4) ardından baş məşqçi vəzifəsinə daha iddialı və dünyaca məşhur mütəxəssis təyin etmək istəyir. Həmçinin rəhbərlik düşünür ki, bu çalışdırıcı yığmanı "DÇ-2026"ya hazırlamalıdır və uzun müddət komandada qalmalıdır. Federasiya baş məşqçi vəzifəsinə 2 əsas namizəd irəli sürüb: Pep Qvardiola ("Mançester Siti") və Karlo Ançelotti ("Real").

Xəbərdə o da qeyd olunur ki, Ançelotti özü də Braziliya millisini çalışdırmaqda maraqlıdır. Lakin o, cari mövsümü Madrid təmsilçisində başa vurmağı planlaşdırır.

Qeyd edək ki, cari mundialdan sonra Tite baş məşqçi vəzifəsindən istefa verib.





# "Lider oyunçular lazımdır"





İngiltərə millisinin sabiq üzvü Devid Bekhem yığmanın "DÇ-2022"dəki çıxışı haqda danışıb. O, Britaniya mətbuatına açıqlamasında milli komandadan razı qaldığını bildirib.

Qeyd edib ki, bu inkişafı davam etdirmək lazımdır: "1/4 finalda dayanmaq bizi üzür. Təbii ki, özümüzə gəlmək vaxt alacaq. Amma bunu etməliyik. Çox yaxşı və gənc komandamız var. Azarkeşlər bu komanda ilə fəxr etməlidirlər. Qaret Sautqeyt uğurlu işlər görür".

Bekhem komandaya yeni liderlər lazım olduğunu da düşünür: "İngiltərə millisinə lider oyunçular lazımdır. Hazırda bunu kapitan Harri Heyn bacarır, çətin məqamda məsuliyyəti üzərinə götürdü. Amma yeni liderlər də lazımdır ki, komanda daha güclü olsun. Bu dünya çempionatından başımız dik ayrılırıq. Növbəti yarışda daha da uzağa gedəcəyik".

Xatırladaq ki, İngiltərə millisi mundialın 1/4 finalında Fransaya 1:2 hesabı ilə uduzub.

# Yarımfinal üçün hakim təyinatları



Bu gün yarımfinalda keçiriləcək Fransa - Mərakeş oyunu üçün hakim təyinatları açıqlanıb. Matçı Meksika Futbol Federasiyasından olan Sezar Ramos idarə edəcək. Ona həmyerliləri Alberto Morin və Migel Hernandes kömək göstərəcəklər. Dördüncü hakim funksiyasını Xesus Valensuela yerinə yetirəcək. VAR hakimi Drü Fişer (Kanada), onun köməkçisi Nikolya Qallo (Kolumbiya) olacaq.

## Reqraqi nəticəni möcüzə saymır

Mərakeş millisinin baş məşqçisi Valid Reqraqi "DÇ-2022"nin yarımfinalında Fransa ilə oyun öncəsi komandadakı əhvali-ruhiyyədən danışıb. O deyib: "Mərakeş millisinin bir çox futbolçusu zədələnib. Komandanın uğuru üçün bütün güclərini sərf ediblər. Heç kim dayanmadı. Biz heyrətamiz nəticə əldə edə bildik. Dünya çempionatının yarımfinalına çıxmaq möcüzə deyil, zəhmətin nəticəsidir".

Xatırladaq ki, bu gün keçiriləcək Fransa - Mərakeş matçı Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.



# Mundial düşərli oldu - 120 milyon avro

Argentina millisinin və "Benfika"nın futbolçusu Entso Fernandes "Liverpul"un hədəfindədir. İngiltərə klubu yarımmüdafiəçinin transferi üçün 120 milyon avro ödəməyə razıdır. Bu, 21 yaşlı cənubi amerikalının müqaviləsində əks olunan sərbəstqalma məbləğidir. Entso "Benfika"nın heyətində cari mövsümün 22 matçında 3 qol və 3 assistə imza atıb.

Qeyd edək ki, Fernandes "DÇ-2022"də keçirdiyi 5 görüşdə 1 qol vurub və 1 məhsuldar ötürmə edib.





## Mbappedən dəstək

Portuqaliya millisinin dünya çempionatında mübarizəni dayandırması ilə bağlı Kriştianu Ronaldunun sosial şəbəkədə paylaşımına reaksiyalar müxtəlif olub. Fransa yığmasının hücumçusu Kilian Mbappenin "post"a yazdığı şərh diqqətləri çəkib. 24 yaşlı forvard Ronaldonun paylaşımına emojilər yerləşdirib. O, dünya rekordçusunu kral, azarkeş sevgisini qazanan və bütün zamanların ən mükəmməli saydığını etiraf edib.

Qeyd edək ki, beşinci dəfə dünya çempionatında oynayan 37 yaşlı Ronaldu mundialda 22 matçda 8 qol vurub.

# Ronaldodan dəyərləndirmələr

Əfsanəvi braziliyalı futbolçu Ronaldo Fransa millisinin üzvü Kilian Mbappe haqqında danışıb. O, 23 yaşlı hücumçunu tərifləyib: "Mbappenin nə qədər sürətli və yaxşı bir futbolçu olduğunu görürük. Onun stili futbol oynadığım dövrlərdəki halımı xatırladır. Mbappe öz bacarıqlarından necə istifadə edəcəyini yaxşı bilir. O, digər futbolçulardan daha sürətlidir. Mbappe bu üstünlüyünü necə qola və ya qol ötürməsinə çevirəcəyini anlayır".



Ronaldo hazırda davam edən mundialda Fransanın çempion olacağını düşündüyünü vurğulayıb: "Mən mundial başlamazdan əvvəl də eyni qənaətdəydim. Məncə, Fransa çempion olacaq, Mbappe turnirin ən yaxşısı seçiləcək".

Qeyd edək ki, Fransa sabah "DÇ-2022"nin yarımfinalında Mərakeşlə qarşılaşacaq. Komanda mərhələ adlayacağı təqdirdə finalda bu gün keçiriləcək Argentina - Xorvatiya görüşünün qalibi ilə üz-üzə gələcək.

Xatırladaq ki, Mbappe 2017-ci ildən Fransa millisinin üzvüdür. O, "DÇ-2022"də artıq 5 qola imza atıb və bombardirlər yarışında liderdir.

# İngiltərə millisinə 4 namizəd



İngiltərə millisinin baş məşqçisi postuna namizədlər bəlli olub. Belə ki, Qaret Sautqeyti dörd mütəxəssis əvəzləyə bilər. Əgər 52 yaşlı mütəxəssis vəzifəsindən ayrılmağa üstünlük versə, bu postu onun köməkçilərindən olan Stiv Holland da tuta bilər. Digər namizədlər Tomas Tuxel, Maurisio Poçettino və Brendan Rocersdir.

Qeyd edək ki, 2016-cı ildən yığmanı çalışdıran Sautqeytin müqaviləsi 2024-cü ilin yayında başa çatacaq.

## Henderson Keynə dəstək oldu

İngiltərə millisinin futbolçusu Cordan Henderson dünya çempionatının 1/4 final mərhələsində Fransaya uduzduqları oyun barəsində danışıb. Yarımmüdafiəçi məğlubiyyətə görə kədərli olduqlarını deyib: "Danışmaq çətindir. İkinci qoldan sonra xəyal qırıqlığı yaşadıq. Hesabı bərabərləşdirmək üçün çox çalışdıq. Bu qədər əziyyətdən sonra uduzmaq ağrılıdır".

Kapitan görüşdə penaltidən yararlana bilməyən Harri Keynə də dəstək olub: "Günahkar Keyn deyil. İlk penaltini vurdu, ikinci alınmadı. O, dünya səviyyəli oyunçudur. Onu tənqid edə bilmərəm".



## Deşam Mərakeşi sürpriz komanda saymır

Fransa millisinin baş məşqçisi Didye Deşam dünya çempionatı ilə bağlı maraqlı fikirlər səsləndirib. Mütəxəssis dörddəbir finalda çətin bir görüşü arxada qoyduqlarını deyib: "Böyük oyun oldu. Vacib komandaya qarşı əhəmiyyətli qələbə qazandıq. Futbolçularım möhtəşəm oynadılar. Bu, məni xoşbəxt etdi. Qarşıda Mərakeşlə oyunumuz var".

Deşam 1/8 finalda İspaniya, 1/4 finalda Portuqaliyanı mübarizədən kənarlaşdıran Mərakeşin artıq sürpriz komanda olmadığını söyləyib: "Mərakeş tərifə layiqdir. Sürpriz etdilər, amma sadəcə bir qol buraxaraq, böyük komandaları məğlub etməyi bacardılar. Onların etdikləri artıq sürpriz deyil". Fransa bu gün yarımfinalda Mərakeşlə üz-üzə gələcək.

***Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"***

İsraildən məktub almışıq

# Dar gündə Azərbaycan bizə sahib çıxdı









Mən Ukraynanın Xarkov şəhərində anadan olmuşam. İkinci Dünya müharibəsi illərində bu gözəl şəhər Kiyevdən sonra ilk olaraq bombalanan yerlərdən biri idi. Atamı dərhal cəbhəyə apardılar. Ailəmiz üçün isə şəhərdə qalmaq çox təhlükəliydi. Çünki faşistlər yəhudiləri sorğu-sualsız öldürür, min bir işgəncə verirdilər.

Qohumlarımızın vasitəsilə çətinliklə də olsa qatara bilet tapıb Avropada gözəlliyinə görə birinci olan Xarkov dəmiryolu vağzalından vaqona minib məlumsuz istiqamətdə yola düşdük. Hara gedirdik, nə edəcəydik, bunu heç kim bilmirdi. Atamdan sonra ailəmiz beş nəfərdən ibarət idi: anam, üç bacım və mən. 16 yaşı yenicə tamam olan böyük bacım bütün qayğıları öz üzərinə götürməyə çalışırdı.

Bu səfərimiz haqqında çox danışmaq olar. Bircə onu demək istəyirəm ki, əziyyətli günlərdən sonra nəhayət, gəlib çıxdıq Azərbaycanın Tərtər rayonuna. Ailənin kiçiyi idim. Anam və bacılarım mənim üçün rahatsız olurdular. Ancaq tezliklə başa düşdük ki, tək deyilik. Bizə mehriban münasibət göstərən, vəziyyətimizi, dərdimizi başa düşən insanların əhatəsindəyik. Odur ki, biz də tərtərlilərlə tez dil tapdıq, doğmalaşdıq və bu doğmalığı indiyədək qoruyub saxlayırıq.

Qadınların təndirdə bişirdiyi çörəyin ətri hələ burnumuzdan getməyib, yuxularımda Tərtərdən keçən kiçik arxları, onların saf sularını görürəm. Azərbaycandan gətirdiyimiz kitabın vərəqləri arasında isə Qarabağın qızıl gülünün ləçəklərini qoruyub saxlayıram.

Humanistlik azərbaycanlıların qanında, canındadır. Bunun sayəsində yalnız biz deyil, yüzlərlə yəhudi ailəsi ölümün pəncəsindən xilas oldu. Onu da deyim ki, bu, o qədər də asan məsələ deyildi. İkinci Dünya müharibəsində cəbhəyə hər cür kömək göstərən Azərbaycanın öz əhalisi də çətinliklərlə üz-üzə qalmışdı. Buna baxmayaraq, çörəklərini bizimlə bölüşürdülər, bir stəkan süd, bir neçə qənd parçası ilə xəstə uşaqları ovundururdular.

Böyük bacım Raisa Poqoster həyatını ömürlük Azərbaycanla bağladı. Tərtərli Bilalla ailə qurdu, övlad, nəvə-nəticə sahibi oldu. Xarkov şəhəri faşistlərdən azad edildikdən sonra ailəmiz geri qayıtsa da, bacıma görə Azərbaycanla əlaqələrimiz kəsilmədi.

Bu illər ərzində bir həqiqəti də dərk etdik. Xeyirxahlıq Azərbaycan xalqının milli-mənəvi dəyəridir, bu dəyərləri yaşadan, inkişaf etdirən unudulmaz insan Heydər Əliyevin sayəsində isə nəinki yəhudilər, Azərbaycanda yaşayan bütün xalqlar eyni hüquqlara malikdirlər və onların hüquqları dövlətin Əsas Qanunu - Konstitusiyası ilə qorunur. Azərbaycanda antisemitizm olmayıb və bu gün də yoxdur. Bacımın Ümummilli Lider Heydər Əliyevə olan sonsuz məhəbbəti bizim bütün ailə üzvlərimizə keçib.

Çətin günlərimizdə bizi yaşadan, ölümün pəncəsindən xilas edən bu ölkəni heç zaman unutmuruq, orada baş verən prosesləri izləyir, kədərinizə şərik olur, sevincinizə şad oluruq. 30 il torpaqlarınızın işğal altında olması bizi də çox rahatsız edirdi. Nəhayət, Vətən savaşında Azərbaycanın əldə etdiyi qələbə ilə hamımızın üzü güldü. Bu qələbənin qazanılmasında İsrailin də payının olması isə Azərbaycan və İsrail xalqlarının dostluğunun sarsılmaz sübutudur.

Qeyd etmək istəyirəm ki, Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi olan Prezident İlham Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində Azərbaycanda bu gün tolerantlıq mühiti yaranıb. Bakıdakı sinaqoqlarda yəhudilər sərbəst olaraq dini ayinlərini icra edirlər. Heydər Əliyev Fondu hesabına Azərbaycanın paytaxtında tikilmiş "Xabad or-Avner" məktəbində yəhudi uşaqların yüksək təhsil almaları üçün hər cür şərait yaradılıb. Burada onlar ivriti, milli adətləri öyrənməklə yanaşı, Azərbaycan dilinə, adət-ənənələrinə də bələd olurlar.

Dövlətlərimiz arasında münasibətlər qohumlar arasında da əlaqələrin möhkəmlənməsinə kömək edir. Bu yaxınlarda bacım Raisanın nəvəsi Anar Əliyev pambıqçılıq sahəsində təcrübə mübadiləsi keçmək üçün həmkarları ilə birlikdə İsraildə oldu. Bizim mütəxəssislər öz biliklərini onlara həvəslə öyrətdilər. Ümidvaram burada əldə etdiklərini onlar Vətənlərində tətbiq edəcəklər. Anarın bizə gəlməsi, ailəmizlə görüşməsi hamımızı sevindirdi. Gənclər də bir-birini tanıdı və əminəm ki, qohumluq münasibətlərimiz bundan sonra da möhkəmlənəcək.

Sonda onu bildirim ki, İsraildə Azərbaycan səfirliyinin açılması iki dövlət arasında münasibətləri daha da inkişaf etdirəcək. Buna görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk.

***Semyon POQOSTER,***
***İsrail, Netivot şəhəri***





# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


# Eva Kayli vəzifəsindən kənarlaşdırıldı

## Avropa Parlamenti yunanıstanlı ermənipərəst deputatın korrupsiya əməllərini müzakirə edib

Dekabrın 13-də Avropa Parlamenti Körfəz ölkələrindən ən azı birinin maraqları üçün qeyri-qanuni lobbiçilik etməkdə şübhəli bilinən Sosialist və Demokrat siyasi qrupdan olan öz vitse-prezidentinə və bir neçə Avropa Parlamenti rəsmisinə qarşı korrupsiya ittihamları ilə bağlı xüsusi dinləmələr keçirib. Müvafiq araşdırmaya ötən həftə Belçika hüquq-mühafizə orqanları tərəfindən başlanılıb.



Avropa Parlamentinin saytında dərc olunan məlumata əsasən, dekabrın 12-15-də Strasburqda keçirilən plenar iclasın açılışı zamanı Avropa Parlamentinin Sədri Roberta Metsola bəyan edib ki, Avropa Parlamenti və Avropa demokratiyası hücuma məruz qalır. Millət vəkilləri çərşənbə axşamı Qətərin şübhəli korrupsiya əməlləri və daha geniş mənada, Avropa institutlarının fəaliyyətində daha çox şəffaflıq və hesabatlılığa ehtiyac barədə müzakirələr aparmağa razılaşıblar. Müvafiq qətnamənin cümə axşamı səsverməyə çıxarılacağı gözlənilir. Bidirildiyi kimi, bu korrupsiya işinin araşdırılması ilə bağlı deputatlar Qətər, Küveyt, Oman və Ekvador üçün viza azadlığının verilməsi ilə bağlı hesabata yenidən baxılmasını, Avropa Parlamentinin Vətəndaş Azadlıqları Komitəsinə müzakirəyə göndərilməsinə və həmin vaxta qədər müvafiq danışıqlara başlamamağa səs veriblər.

Bir gün əvvəl bu vəziyyətlə bağlı keçirilən plenar dinləmə zamanı Avropa Parlamentinin Sədri Belçika hüquq-mühafizə orqanlarının insidentin araşdırılmasında göstərdiyi səyləri tam dəstəklədiyini bildirib və qeyd edib ki, Avropa Parlamentinin divarları arasında heç bir korrupsiya məsələsi və ya əlaməti cəzasız qalmayacaq. O, Qətər və Küveytlə viza rejiminin liberallaşdırılması üzrə danışıqların başlanması ilə bağlı artıq planlaşdırılan elanı dayandırdığını və bu sənədlər paketini əlavə baxılmaq üçün AP-nin müvafiq komitəsinə göndərdiyini açıqlayıb.

Eyni zamanda, Roberta Metsola vurğulayıb ki, bu işdə heç bir "coğrafi" aspekt yoxdur, söhbət konkret şəxslərin dürüstlüyündən və etik davranışlarından gedir. Özü də onlardan biri, Avropa Parlamentinin vitse-prezidenti səviyyəsində yüksək vəzifə tutur.

"The Brussels Times" qəzetinin xəbərinə görə, Belçika polisi 16 ünvanda axtarışlar aparıb və beş nəfəri həbs edib. Tutulanlar arasında istintaq dövründə vəzifəsindən kənarlaşdırılmış Avropa Parlamenti Sədrinin müavini, yunanıstanlı deputat Eva Kayli də var idi.

Belçika nəşrinin xatırlatdığı kimi, korrupsiya hadisəsi 2022-ci il dünya çempionatı iıə bağlı baş verib, bu zaman Qətər, xüsusən də əcnəbi işçilərə qarşı insan haqlarının pozulması ilə əlaqədar iddialara qarşı özünü müdafiə etməyə məcbur olub.

Son məlumata görə, Avropa Parlamentinin deputatları səs çoxluğu ilə Eva Kaylinin Avropa Parlamentinin sədr müavini vəzifəsindən uzaqlaşdırılmasını dəstəkləyiblər. "Euronews" telekanalının xəbərinə görə, Avropa parlamentarilərinin 625-i Kaylinin vəzifədən kənarlaşdırılmasının "lehinə", bir deputat "əleyhinə" səs verib, daha iki deputat isə bitərəf qalıb.

Səsvermə korrupsiya qalmaqalı ilə bağlı araşdırma çərçivəsində keçirilib. Eva Kayli rüşvətxorluqda və şübhəli mənbələrdən aldığı külli miqdarda pulun yuyulmasında ittiham olunur. Polis onun Brüsseldəki evində axtarış zamanı 600 min avro nağd pul aşkar edib.

Əməliyyat zamanı Avropa Parlamentinin sabiq deputatı Antonio Panseri, deputatın köməkçisi Mari Arena, italiyalı cüdoçu, 1996-cı il Yay Olimpiya Oyunlarının iştirakçısı Françesko Corci və Eva Kaylinin atası Aleksandros Kaylis də daxil olmaqla, azı 6 nəfərin saxlanıldığı bildirilir.

Xatırladaq ki, bir sıra avropalı parlamentarilər kimi Eva Kayli də uzun müddətdir qızğın ermənipərəst mövqeyi, azərbaycanlılara və türklərə açıq nifrəti ilə tanınır.

Məsələn, 2020-ci ilin oktyabrında AP-nin yunanıstanlı deputatı Eva Kayli diplomatik pasportlara malik azərbaycanlılar üçün Şengen vizasının ləğvi ilə bağlı Avropa İttifaqına sorğu təqdim edib. O zaman rüşvətxor siyasətçi "Azərbaycanın Qarabağa "təcavüz" cəhdi və münaqişə zonasından Aİ-yə qeyri-qanuni miqrasiya axınının artması ehtimalı fonunda Aİ-nin təhlükəsizliyinin qiymətləndirilməsi"nə çağırıb və səsləndirdiyi bu cəfəngiyyatla bağlı Avropa Parlamentinə hesabat təqdim edilməsini istəyib.

Bundan əlavə, Kayli Ermənistanın guya "Türkiyənin dəstəyi ilə hərbi hücum təhlükəsi altında" olmasına işarə edərək, İrəvana əməli dəstək verməyə çağırıb. Onun təxribat xarakterli bəyanatında iddia edilirdi ki, "Azərbaycan Dağlıq Qarabağda ermənilərə qarşı haqsız müharibə aparır, 1994-cü il atəşkəs sazişini pozur və beynəlxalq ictimaiyyətin dialoq çağırışlarına məhəl qoymur".

Eva Kayli dəfələrlə Ermənistanın işğalçılıq siyasətini dəstəkləyib, Avropa Parlamentində Azərbaycanın əleyhinə qərar və qətnamələrin qəbulunda xüsusi fəallıq nümayiş etdirib.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***


**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
struktur idarələrinə tələb olunan polad boru və dirsəklərin satın alınması məqsədilə
**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti**
struktur idarələrinə tələb olunan süzgəclərin satın alınması məqsədilə
**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 23 dekabr 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***



«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**








# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Təbii Sərvətlər və Ekologiya İşçiləri Həmkarlar İttifaqının sədri Telman Quliyevə əzizi

**QİYAS MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin general-mayoru Elşən Zeynalova anası

**VALİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hünzlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 6491
Sifariş 3601
Qiyməti 40 qəpik